# DÜŞÜNƏN İNSAN

№ 4 - Dekabr 2011 - 2 AZN

# 2012

## DÜNYANIN SONU, YOXSA YENİ BİR BAŞLANĞIC?



- DİNSİZLİYİN QARANLIQ TARİXİ: FAŞİZM VƏ KOMMUNİZM
- QURANDA HƏR MÖVZU AÇIQLANMIŞDIR
- XOŞBƏXTLİYİN SİRRİ
- KOSMOSDAN ATOM ZƏRRƏLƏRİNƏ QƏDƏR SƏYAHƏT
- BƏRƏKƏTİN QARŞISINI ALAN BÖYÜK MANEƏ: MAL YIĞMAQ EHTİRASI

DVD FİLM HƏDİYYƏ

MADDƏNİN ARDINDAKI SİRR

GÜNƏŞİN QƏRBDƏN DOĞUŞU YAXINLAŞIR


بسم الله الرحمن الرحيم
Bu jurnalın məqalələrinin hazırlanmasında
Harun Yəhyanın (Adnan Oktar)
əsərlərindən istifadə edilmişdir.
Aylıq abunə olmaq istəyənlər üçün
əlaqə nömrəsi
012-434-93-01
الله
رسول
محمد

DÜŞÜNƏN İNSAN - Dekabr 2011;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəli
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (050) 4662020; E-mail:admin@dusuneninsan.info
"Düşünən İnsan" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418

DÜŞÜNƏN İNSAN

# içindəkilər

*DÜŞÜNƏN İNSAN ; DEKABR 2011*

Elmi-texnoloji xəbərlər 2
Dövlət qurumunun zəruriliyi 4
Adrenalin təhlükəli vəziyyətdə orqanizmə necə enerji verir? 6
Haqq dinlər tarixin hər dövründə olmuşdur 10
İslam dünyasında keçən ay 12
Həzrəti Həsənin (ə.s.) həyatı bütün müsəlmanlar üçün nümunədir 14
Kamil iman sahibinin xüsusiyyətləri 16
Kosmosdan atom zərrələrinə qədər səyahət 20
Bir ayə, bir açıqlama 23
Ümidvar olmaq mömin əlamətidir 24
Quranda hər mövzu açıqlanmışdır 26
Alova çağıran ənənə: ataların dinin bağlılıq 28
Dinsizliyin qaranlıq tarixi: faşizm və kommunizm 32
Fosillər təkamülü təkzib edir 37
2012: Dünyanın sonu, yoxsa yeni bir başlanğıc? 38
Əhli-sünnənin dörd məzhəb imamı hz. Mehdinin (ə.s.) gələcəyini müjdələmişdir 44
Allahın qar kristallarında yaratdığı ehtişam 48
Əhli-beyt imamlarından axırzamanla bağlı ayə təfsirləri 50
Demokratiyanın əsl mənbəyi Allahın elçiləri olan peyğəmbərlərdir 54
Bərəkətin qarşısını alan böyük maneə: mal yığmaq ehtirası 58
Şəkər yediyiniz zaman bədəninizdə çalışan nəhəng fabrikdən xəbəriniz varmı? 62
Allah hər yerdədir 64
İnsanlar nə üçün haqsızlığa məruz qaldıqlarını düşünürlər? 66
Müasir elmin islami mənşəyi 70
Xoşbəxtliyin sirri 74
Canlılardakı mükəmməl müdafiə metodu: kamuflyaj 76
Hər işdə Allaha yönəlmək 78
Müsəlmanın danışıq üslubu 80

Şərq-Qərb mətbəəsində çap olunmuşdur



# Elmi-Texnoloji xəbərlər




## Uçan ağ balina: Airbus Beluqa

Airbus şirkətinin təyyarə hissələrini nəql edən A300-600ST (Super Transporter) tipi təyyarəsi balinaya bənzədiyi üçün diqqəti cəlb edir.

Şirkət 155 ton ağırlıq qaldıra bilən təyyarənin adını okean nəhənglərindən olan ağ balinaya bənzədiyi üçün "Beluqa" adlandırdı. İlk uçuşunu 1994-cü ildə reallaşdıran Beluqa Airbus şirkətinin müxtəlif ölkələrdə istehsal edilən təyyarə hissələrini Fransa və Almaniyadakı montaj xəttinə daşıyır. Airbusun 5 ədəd istehsal etdiyi Beluqa təyyarələrindən "Misirin xəzinələri" kimi nadir əsərlərin də nəqliyyatında da istifadə edilir.

## Kainatda ilk qaz buludu kəşf edildi

Amerikalı astronomların apardıqları tədqiqatlar nəticəsində, 13,7 milyard il əvvəl kainatın yaranmasından sonra meydana gələn qaz buludunu kəşf etdilər.

Amerikanın "Science" jurnalında dərc olunan məqalədə bildirilib ki, bu qazın komponentləri kainatdakı elementlərin əsasını təşkil edən maddələrin yaranmasına səbəb olub. Kainatın yaranma nəzəriyyəsi olan "Böyük partlayış"a (Big Bang) görə, əvvəl hidrogen və helium kimi yüngül elementlər əmələ gəlib. Daha sonra yüz milyonlarla il keçib, qazlar yaranıb, sıxlaşıb və planetlər əmələ gəlməyə başlayıb.

Kaliforniya Universitetinin astronomiya və astrofizika professoru Xavyer Proçaskanın dediyinə görə, dünya tarixində ilk dəfə olaraq hidrogen və helium kimi yüngül elementləri tədqiq etməyə başlayıblar. O: "İlk dəfə kainatın ilk anlarında ulduzlardan gələn ağır elementlərin qarışmadığı qazları araşdırırıq", - dedi.

Astronomlar bildiriblər ki, həmin qaz buludunda karbon, oksigen və silisiumun olmaması hidrogenin saflığına dəlalət edir.

## Ağ ev rəsmi açıqlama verdi: “yadplanetlilər yoxdur”



Ağ ev yadplanetlilərlə heç bir əlaqənin olmadığına dair rəsmi açıqlama verib. Açıqlamada: “Yer kürəsindən başqa heç bir planetdə həyat yoxdur”, - deyilib.

Ağ Evin Elm və Texnologiya Siyasəti Ofisinin rəhbəri Fil Larson bildirdi ki, bu açıqlama Amerika hökumətinin yadplanetlilərlə əlaqə qurub-qurmadığına dair məlumat verməsi tələbinə əsasən qələmə alınıb.

On yeddi mindən çox amerikalı tərəfindən imzalanan iki ərizəyə cavab olaraq Ağ Evdən verilən açıqlamada: “Amerika hökumətinin Yer planetindən başqa yerdə həyat olduğuna və ya yadplanetlilərin insanlarla əlaqəsinin olmasına dair heç bir dəlili yoxdur”, - deyilib.

Ağ Evin Elm və Texnologiya Siyasəti Ofisinin açıqlamasında bu məsələlərlə bağlı var olduğu iddia edilən dəlillərin ictimaiyyətdən gizlədilməsinə dair heç bir məlumatın olmadığı bildirilib.

Açıqlamada NASA araşdırmalarının nəticələrinə də qısaca toxunulub. Elm adamları və riyaziyyatçılar tərəfindən trilyonlarla ulduzun bəzilərində həyat şəraitinin olma ehtimalı qeyd olunub. Ancaq kainatın böyüklüyü və ulduzlar arasındakı məsafə nəzərə alındıqda həyat şəraitinin olduğu ehtimal edilən yerlərlə əlaqə qurmağın imkansız olduğu da bildirilib.

## Ölü dənizdə həyat var

İsrailin Lut gölü (Ölü dəniz) dünyanın ən alçaq yeridir. Bu duzlu göldə İsrail - Almaniya əməkdaşlığı ilə bir qrup elm adamı yeni mikroorqanizmlər kəşf edib. Gölün suyu çox duzlu olduğundan burada heç bir canlının yaşamadığı düşünülürdü. Hal-hazırda Ölü dənizin 100 metr dərinliyində mikroorqanizmlərin yeni növlərinin kəşf edildiyi bildirilir.

## Ovçuluq tarixində “dərin” kəşf

Şərqi Timorda bir mağarada tapılan ton balığı və dənizin dərin sularında yaşayan başqa balıqlara aid qalıqlar insanların 42 min il əvvəl bu balıqları ovladıqlarını sübut edir. İnsanların 42 min il əvvəl ton balığı, köpək balığı və dəniz durnası kimi dərin dəniz sularında yaşayan balıqları ovladıqları məlum olub. Balıq qalıqlarından başqa bu ərazidə 16-23 min il əvvəlki tarixlərə aid sümük balıq qarmaqlar da tapılıb. Qarmaqların okean balıqçılığı üçün istifadə edildiyi, ancaq hansı növlərin ovlandığının məlum olmadığı qeyd edilib. Araşdırmanın nəticələri insanların o dövrdə dənizdən faydalanmaq üçün kifayət qədər texnologiyaya sahib olduqlarını ortaya qoyur. Avstraliya Milli Universitetinin arxeoloqu Suya O’Konnorun rəhbərliyi altında aparılan elmi araşdırmanın nəticələri “Science” jurnalında dərc olunmuşdu.



# DÖVLƏT QURUMUNUN ZƏRURİLİYİ

"İndi şükürlər olsun ki, Azərbaycan müstəqil bir dövlətdir. Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır."

**HEYDƏR ƏLİYEV**



## Dövlət nədir və niyə zəruridir?

Dövlət ortaq həyat və mədəniyyəti paylaşan bir cəmiyyətdə bu cəmiyyəti nizamlama, bu cəmiyyətə təhlükəsizlik, sülh və rifah təmin etmə məqsədini daşıyan və bu məqsədə yönələn qanunlar qəbul etmə, bu qanunları tətbiq etmə, mühakimə etmə, cəzalandırma kimi güclərə sahib olan qurumdur.

Dövlət tarixin məlum olan ən qədim cəmiyyətlərindən indiyə kimi həmişə mövcud olmuşdur. Marksistlər ortaya atdıqları xəyali "mədəni təkamül" ssenarisi daxilində dövlətin sonradan ortaya çıxan bir mexanizm olduğunu iddia edirlər. İlk cəmiyyətlərdə dövlət və ya dövlətə bənzər bir qurumun olmadığını, kommunal həyat tərzinin mövcudluğunu irəli sürürlər. Halbuki heç bir tarixi və ya arxeoloji tapıntı bu iddianı təsdiq etmir. Əksinə, haqqında məlumatımız olan ən qədim mədəniyyətlərin hamısında güclü dövlət mexanizmlərinin mövcud olduğu məlumdur. Buna görə də dövlət quruluşunun bəşər tarixi ilə bir yaşda olduğunu söyləmək mümkündür.

Bu, əslində, insanın yaradılışının təbii nəticəsidir. İnsan yaradılışının

tələbi olaraq doğru və yanlış anlayışlarına malik olmaqla doğrunu öyrənmək və bu doğruya uyğun şəkildə yaşamaq istəyir. Yanlışı tətbiq edənlərin isə dayandırılmasını, onlara mane olmağı arzu edir. Buna görə də insanlara doğrunu və yanlışı müəyyənləşdirəcək bəzi qanunlar qəbul edən və bu qanunlara riayət edərək yaşamağı təmin edən bir nüfuzun varlığı zəruridir.

Belə ki, cəmiyyətlərin quruluşu düşünüldüyündə dövlətin nə qədər əhəmiyyətli olduğu asanlıqla görünür. Bir cəmiyyətdə sülh və asayişi təmin edən, zərərli davranışları qanunla qadağan edən, bu qanunlara da tabe olmağı məcbur edən yeganə güc dövlətdir. Buna paralel olaraq dövrümüzdəki cəmiyyətlərin sağlamlıq, təhsil, milli təhlükəsizlik, infrastruktur kimi xidmətlərin də yalnız dövlət tərəfindən qarşılana biləcəyi aydındır.

Burada dövlətin varlığına qarşı çıxan ən əsas siyasi ideologiya olan anarxizmin yanlışlıqlarına nəzər yetirmək zəruridir.

## Anarxizmin yanlışlığı

Anarxizm sol ideologiyaların marjinalı kimi qəbul edilir. "Anarxizm" yunan sözü olub "özbaşınalıq" deməkdir. Bu ideologiyanın tərəfdarları dövlətin cəmiyyətə zərər verən bir qurum olduğunu iddia etmiş, insanların azadlıq və sülhə qovuşması üçün dövlətin ortadan qaldırılmasının lazım olduğunu müdafiə etmişlər. Dövlətlə yanaşı, dinə də qarşı çıxmış və dinin məhv edilməsinə çalışmışlar. Fransa inqilabından sonra ortaya çıxan bu ideologiya, xüsusilə 19-cu əsrdə məşhurlaşmış, Rusiyada Bolşevik inqilabının (1917) hazırlanmasında da rol oynamışdır.

Əvvəlcə, anarxizmin tamamilə xəyali və həqiqətlərdən uzaq fikir olduğuna diqqət yetirmək lazımdır. Çünki dünyanın heç bir ölkəsində heç bir zaman bu ideologiya tətbiq olunmayıb. Heç vaxt dövlətin ləğv edilib anarxist cəmiyyətin qurulması hadisəsi baş verməyib. Yalnız bəzi böhran zamanlarında dövlətlərin nüfuzu zəifləmiş, bunun nəticəsində isə cəmiyyətə sülh və rifah deyil, əksinə, yalnız çəkişmə, qarşıdurma və talan gəlmişdir.

Başqa cür də mümkün deyil. Çünki dövlətin olmadığı şəraitdə cəmiyyətin öz-özünü təşkil edərək asayiş və sabitlik meydana gətirməsi qeyri-mümkündür. Dövlətin olmadığı bir mühitdə qanunlar da olmaz. Bu halda, "qanunsuz" anlayışı ortadan qalxar və hər kəs istədiyi hərəkəti rahat şəkildə edə bilər.

Belə bir cəmiyyət isə meşə qanunlarının hakim olduğu "sürü"yə çevrilər. İnsanların dincliyinin, şəxsiyyət və mülkiyyət toxunulmazlığının olmadığı bu sürü, əslində, insan cəmiyyətindən çox heyvan dəstələri kimi yaşayar. Maraqlısı budur ki, bu nəticə anarxistlərin fəlsəfəsinə tam uyğundur. Çünki anarxistlər də eynilə marksistlər kimi Darvinin ortaya atdığı "insanın təkamülü" nağılına inanır və dolayısilə, insanı "inkişaf etmiş heyvan növü" kimi qəbul edirlər.

Ancaq tarix anarxizmin tamamilə yanlış bir fəlsəfə olduğunu çoxsaylı misallarla sübut edir. Anarxistlər dövlətin aradan götürülməsinin sülh və rifaha gətirəcəyinə inanırlar. Halbuki siyasi tarixə nəzər yetirdikdə dövlət hakimiyyətinin ortadan qalxdığı hər dövrdə qanlı xaos mühitinin olduğu görünür. Orta əsrlər boyu siyasi nüfuzun ortadan qalxdığı dövrlər həmişə qarət, talan və qırğın dövrləri olmuşdur. Anarxizmin çıxış nöqtəsi sayılan Fransa inqilabı tarixin ən qanlı siyasi hərəkatlarından biridir. Fransa inqilabında, xüsusilə də inqilabın "Terror dövrü" olaraq tanınan mərhələsində on minlərlə insan edam edilmiş, inqilabın Robespyer kimi öndə gələnləri də daxil olmaqla, bir çox insan gilyotinə (Gilyotin, edam məhkumunun başını üst tərəfdən kəsmək prinsipiylə edilmiş bir növ edam vasitəsidir) göndərilmişdir. İnqilabdan sonra Fransa on beş ildən çox müddətdə dincliyə qovuşa bilməmişdir. Nizam və təhlükəsizliyin yenidən təmin edilməsi isə inqilab dövrünün sona çatması və Napoleonun mütləq iqtidarının qurulması ilə, yəni dövlətin yenidən təsis edilməsi ilə mümkün olmuşdur. Bu hal tarixin hər dövründə eynidir. Dövlət əleyhinə edilən hər cür "inqilab" inqilabçıların buna başladıqları vaxt ortaya atdıqları bəzəkli şüarların əksinə, qan, kədər və gözyaşı gətirir.

# ADRENALİN TƏHLÜKƏLİ VƏZİYYƏTDƏ ORQANİZMƏ NECƏ ENERJİ VERİR?

Həyəcanlandıqda və ya qorxduqda daha güclü, cəld və diqqətli olmağınızı təmin edən adrenalin hormonu orqanizminizə hansı əmrləri verir?

## Çox güclü təsiri olan bu hormon təhlükəli vəziyyətdə nə qədər ifraz olunur?

Ürəyə, beyinə və əzələlərə gedən damarları açan adrenalin molekulları qaraciyərə və dəriyə gedən damarları nə üçün daraldır?

Təhlükə ilə qarşılaşan zaman insan özünü müdafiə etmək və ya dərhal olduğu yerdən qaçmaq üçün orqanizmi daha güclü və cəld olmalıdır. Bu cür fövqəladə hallarda orqanizmdə lazımi tənzimləmə aparılması üçün əvvəla ürəyiniz daha sürətlə döyünməli və daha çox qan vurmalıdır. Belə ki, insan orqanizmi bu cür hallar üçün qüsursuz yaradılmış və orqanizmimizə təhlükəli vəziyyətdə fəaliyyət göstərən qeyri-adi hormon yerləşdirilmişdir. Adrenalin adlanan bu hormon fövqəladə hal baş verdikdə böyrəküstü vəzilərin daxili hissəsində yerləşən laboratoriyada ifraz olunur və bədənin müxtəlif hissələrinə yayılaraq orqanizmin təhlükəli vəziyyətə uyğun reaksiya verməsini təmin edir.

## Qanımızdakı adrenalinin miqdarı nə qədərdir?

Aparılan tədqiqatlar mühüm faktı üzə çıxarmışdır. İnsanın qanındakı adrenalin hormonu aşağıdakı kimi ifadə edilir:

"Əgər orqanizmimizdəki qanı 2 metr dərinliyi, 100 metr diametri olan göllə müqayisə etsək, qanımızdakı adrenalin miqdarı bu gölə tökülən bir çay qaşığı mayeyə bərabər olar." (Helena Curtis, Sue Barnes, Invıtation To Biolog, səh. 467)

Miqdarının az olmasına baxmayaraq, bu maddə insan orqanizminə çox güclü təsir edir. Adrenalinin insanlara qazandırdığı bu xüsusiyyətlər yaradılışındakı mükəmməllikdən qaynaqlanır.

## Təhlükəli vəziyyətdə lazım olan əlavə qan necə təmin olunur?

Təhlükənin meydana gəlməsi ilə orqanizmdə həyəcan siqnalı verilir. Beyin böyrəküstü vəzlərə ildırım sürəti ilə əmr göndərir. Böyrəküstü vəzin daxili hissəsində yerləşən hüceyrələr fövqəladə vəziyyət elan edir və təcili surətdə adrenalin hormonu ifraz edilir.





Adrenalin molekulları qana qarışır və orqanizmin müxtəlif hissələrinə yayılır İfraz olunan adrenalin molekulları damarları tənzimləyir. Bu tənzimləmə təhlükəli vəziyyətdə həyati orqanlara daha çox qan getməsini təmin edir. Bunun üçün ürəyə, beyinə və əzələlərə gedən qan damarlarını genişləndirmə əmri verilir.

Damarların ətrafındakı hüceyrələr adrenalin hormonunun verdiyi əmrə tabe olaraq lazımi damarları genişləndirir. Beləliklə, beyin, ürək və əzələlərin ehtiyacı olan əlavə qan təmin olunur. (Eldra Pearl Solomon, İnsan Anatomisine ve Fizyolojisine Giriş, Çeviri: Doç. Dr. L. Bilkem Süzen, İstanbul, Birol Basın Yayın Dağıtım, avqust 1997, səh. 140)

## Adrenalin molekulları nə üçün dəriyə gedən damarları daraldır?

Adrenalin molekulları ürəyə, beyinə və əzələlərə gedən damarları genişlədir, dəriyə gedən damarları isə daraldır. Beləliklə, orqanizm üçün lazım olan əlavə qan təmin olunur.

Dəriyə az qan getməsinin başqa səbəbi də var: əgər yaralanma olarsa, qan itirmə riski azaldılır. Həddindən artıq həyəcanlanan zaman dəridə müşahidə olunan solğunluğun səbəbi də o anda dəriyə daha az qanın getməsidir.

## Adrenalin hormonu Rəbbimizin nəzarəti altındadır

Bədəninizdəki damarların diametri və bu damarların haraya, hansı miqdarda qan daşıdığı gözlə görünməyən hormon tərəfindən tənzimlənir. Adrenalin hormonunun bədəndəki bu fəaliyyəti böyük ağıl, bilik və qabiliyyət tələb edir. Bu çox kiçik molekul nəyi nə vaxt etməyi yaxşı bilir, insanın ehtiyacı olmadıqda orqanizmdə əsla həyəcan siqnalı vermir. Bundan başqa, hansı hüceyrələrə getməli olduğunu, hansılarına necə əmr verilməsini çox yaxşı bilir və bunu heç unutmur. Habelə orqanizmin nə vaxt fövqəladə vəziyyətdən çıxarılması məsələsində də əsla yanılmır.

Əgər səhv olarsa, orqanizmdə qarşısıalınmaz zədələr meydana gələr. Ancaq bu kiçik molekullar böyük məsuliyyətlə işləyir. Bir neçə atomun müəyyən nizam ilə birləşməsindən əmələ gələn şüursuz, cansız, beyni, gözü, biliyi olmayan mayenin bu qədər ağıllı, mütəşəkkil hərəkət etməsi qeyri-mümkündür. Bütün bunlar orqanizmimizdəki hər molekulu Allahın yaratdığını, eyni zamanda həyatımız boyu hər anımızın Allahın nəzarəti altında olduğunu qəti sübut edir. Allahın gücü, qüdrəti, yaratma sənətindəki üstün elm və ağıl hər an hər yerdə təzahür edir. Rəbbimizin Quranda bildirdiyi kimi:



**Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah hər şeyi əhatə edir. (Nisa surəsi, 126)**

Adrenalin molekulları hər orqan üçün müxtəlif funksiya yerinə yetirir. Damara gedən zaman damarı genişləndirən adrenalin molekulu ürəyə getdikdə ürək hüceyrələrinin daralmasını sürətləndirir. Beləliklə, ürək daha sürətlə döyünür və əzələlərə əlavə güc üçün lazım olan qanı ötürür.

Böyrəküstü vəzilər laboratoriya kimi işləyir və bir-birindən vacib hormonları ifraz edir. Böyrəküstü vəzilərdə iki müxtəlif laboratoriya var. Biri adrenal korteks, digəri isə adrenal medulla adlanır. Bu laboratoriyalarda ifraz olunan hormonlar insan üçün həyati əhəmiyyət kəsb edir.

Qaraciyərə çatan adrenalin molekulları buradakı hüceyrələrə qana daha çox şəkər qarışdırmağı əmr edir. Beləliklə, qandakı şəkərin miqdarı artır və əzələlərin ehtiyacı olan əlavə enerji təmin olunur.

Təhlükəli vəziyyətlərdə beyin və böyrəküstü vəzilər arasındakı rabitə ilə orqanizmdə həyəcan siqnalı verilir.

Təyyarədə zədə meydana gələn zaman təyyarəçinin orqanizmində dərhal adrenalin ifraz olunur. Bu maye beyinə daha çox şəkər və qan göndərir, beləliklə, təyyarəçinin daha diqqətli olmasını təmin edir. Qan təzyiqini və ürək döyüntülərini artıraraq daha cəld olmasını təmin edir. Bunlar adrenalinin təyyarəçidə meydana gətirdiyi onlarla dəyişiklikdən bir neçəsidir.

Adrenalin hormonu qana qarışdıqda bütün orqanizmdə həyəcan siqnalı verilir. Həzm orqanlarının hərəkətinə mane olur və həzm prosesini dayandırır. Beləliklə, əzələləri qidalandırmaq üçün mühüm miqdarda qan əldə edilir. Eyni zamanda ürəyin ritmi artır, qan təzyiqi yüksəlir. Ağciyərlərin bronxları genişlənərək oksigenin daxil olmasını və qanın oksigenlə qidalanmasını sürətləndirir. Qandakı şəkərin miqdarı artır. Bu da əzələləri həddindən artıq enerji ilə təmin edir. Nəhayət göz bəbəkləri böyüyür və gözlərin işığa həssaslığı artır. Bütün bu təsirlər birləşdikdə insan istər qaçış, istərsə də müdafiə vəziyyətinə hazır olur.



# *İlham Əliyev:*

*"Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır və tarixən İslam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir.*

*Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətində qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgə yaşayışın, əmin-amanlığın və dözümlülük mühitinin formalaşmasında İslam dininin müstəsna rolu olmuşdur".*





# HAQQ DİNLƏR TARİXİN HƏR DÖVRÜNDƏ OLMUŞDUR

## TÖVRATDAN 1500 İL ƏVVƏLƏ AİD OLAN EBLA LÖVHƏLƏRİNDƏ ADI ÇƏKİLƏN PEYĞƏMBƏRLƏR

E.ə. 2500-cü illərə aid Ebla lövhələri din tarixini öyrənmək baxımından çox əhəmiyyətli məlumatlarla zəngindir. 1975-ci ildən etibarən bir neçə dəfə tədqiqat və müzakirə mövzusu olan Ebla lövhələrinin ən əhəmiyyətli xüsusiyyəti isə İlahi kitablarda bəhs edilən üç peyğəmbərin adının çəkilməsidir.

Ebla lövhələrinin min illər sonra tapılması Quranda adı çəkilən qövmlərin coğrafi mövqeyinin müəyyən olunması baxımından çox əhəmiyyətlidir.

Ebla e.ə. 2500-cü illərdə indiki Suriyanın paytaxtı olan Şam və Türkiyənin cənub-şərq ərazilərini əhatə edən krallıq idi. Bu krallıq mədəni və iqtisadi baxımdan inkişaf etmiş, amma bir müddət sonra (bir çox sivilizasiyada olduğu kimi) tarix səhnəsindən silinmişdi. Lövhələrdən aydın olur ki, Ebla krallığı dövrünün tanınmış mədəniyyət və ticarət mərkəzi olub. Eblalılar dövlət arxivi formalaşdıran, kitabxana quran və yazılı şəkildə ticarət müqavilələri bağlayan mədəniyyətə sahib idilər. Hətta eblait adlanan öz dilləri var idi. (Ebla, funk & wagnalls new encyclopaedia, (c) 1995 funk & wagnalls corporation, infopedia 2.0, softKey multimedia inc.)

### Yer altında gizli qalan dinlər tarixi

1975-ci ildə aparılan qazıntılar zamanı aşkar edilən Ebla mədəniyyəti həqiqi əhəmiyyətini mixi yazılarla yazılmış təxminən 20.000 lövhə və hissələrdən ibarət arxivin tapılması ilə qazanmışdır. Bu arxiv eyni zamanda digər arxeoloqlara üç min ildən bəri məlum olan bütün mixi yazılı mətnlərdən dörd dəfə çox idi.

Lövhələrdəki dil Roma Universitetində arxeoloji yazılar eksperti olan Ciovanni Pettitano tərəfindən açıqlandığında mövzunun nə qədər vacib olduğu daha da yaxşı aydın oldu. Bunun sayəsində, Ebla krallığının və bu böyük dövlət arxivinin tapılması artıq təkcə arxeoloji deyil, dini dairələri də maraqlandıran bir mövzuya çevrilmişdi. Çünki lövhələrdə Qurani-kərimdə adı çəkilən mələk Mikayılın (Doubleday, 1981, s. 271-321) və üç İlahi kitabda bəhs edilən peyğəmbərlərin adı çəkilirdi. Hz. İbrahim (Ab-ra-mu) və Hz. İsmayılın (İş-ma-il) adları... (Howard La Fay, “Ebla: Bilinməyən böyük bir imperiya”, National geographic magazine, dekabr 1978, səh. 736)

### Ebla lövhələrindəki adların əhəmiyyəti

Ebla lövhələrində aşkar olunan peyğəmbər adlarının çox böyük əhəmiyyəti var. Çünki



sözügedən adlara ilk dəfə bu qədər qədim tarixi mənbədə rast gəlinmişdi. Tövratdan 1500 il əvvələ aid olan bu məlumatlar olduqca maraqlıdır. Hz. İbrahimin adının lövhələrdə qeyd olunması Hz. İbrahim və onun gətirdiyi dinin Tövratdan əvvəl mövcud olduğunu təsdiq edir.

Tarixçilər Eblada tapılan lövhələri bu cəhətdən dəyərləndirdilər, hz. İbrahim və onun peyğəmbərliyi haqqındakı bu əhəmiyyətli kəşf dinlər tarixi üçün mühüm tədqiqat mövzusuna çevrildi. Amerikalı arxeoloq və dinlərin tarixini tədqiq edən David Milad Freydmanın da apardığı tədqiqatlara əsasən, lövhələrdəki İbrahim və İsmayıl kimi adların peyğəmbər adları olduğu bildirildi. (İlim ve teknik dergisi, say 118, sentyabr 1977, oktyabr 1978)

## Lövhələrdə adı çəkilən digər adlar

Yuxarıda da qeyd etdiyimiz kimi, lövhələrdə yazılan adlar üç İlahi kitabda bəhs edilən peyğəmbər adları idi və lövhələr Tövratdan daha qədim idi. Bundan başqa, bu adların yanında daş lövhələrdə əks olunan başqa mövzular və yer adları da var idi. Bu məlumatların və yer adlarının öyrənilməsi nəticəsində məlum oldu ki, eblalılar ticarət sektorunda böyük uğur qazanmışdılar. Yazılarda Eblanın yaxınlığındakı Sina, Qəzza və Qüds adları da çəkilirdi. Bu da eblalıların bu yerlərlə olan ticarət və mədəni əlaqələrini göstərirdi. (Harun Yəhya, Quran möcüzələri)

Lövhələrdə nəzərə çarpan digər əhəmiyyətli bir xüsusiyyət isə Lut qövmünün yaşadığı Sodom və Qomorra bölgələrinin adları idi. Məlum olduğu kimi, Sodom və Qomorra Ölü dənizin sahilində Lut qövmünün yaşadığı, hz. Lutun təbliğ edib insanları din əxlaqına çağırdığı ərazi idi. Bu iki yerdən başqa, Quran ayələrində adı çəkilən İrəm şəhəri də Ebla lövhələrindəki adların arasında idi..

Bu adların daha çox diqqət çəkən tərəfi isə peyğəmbərlərin təbliğ etdiyi kitablardan başqa, indiyə qədər başqa heç bir mətndə işlədilməməsi idi. Bu, o dövrdə haqq dini təbliğ edən peyğəmbərlərin xəbərlərinin bu bölgələrə də çatdığını göstərən əhəmiyyətli bir sənəddir. “Reader’s digest” jurnalındakı bir məqalədə verilən məlumata görə, Kral Əbrumun hakimiyyətdə olduğu dövrdə eblalıların dinlərində dəyişiklik olduğu, insanların ulu Allahın adını ucaltmaq üçün adlarının qarşısına başqa bir ad əlavə etdiklərindən məlum olur.

## Allahın vədi haqdır...

Yaşadıqları dövrdən təxminən 4500 il sonra ortaya çıxan Ebla tarixi və Ebla lövhələri çox əhəmiyyətli bir həqiqətə diqqət çəkir: Allah Eblaya da hər qövmə olduğu kimi, elçilər göndərmiş və onlar da qövmlərinə göndərilən dini təbliğ etmişdilər. Bəzi qövmlər onlara göndərilən dini qəbul edib hidayətə qovuşmuş, bəziləri isə peyğəmbərlərin təbliğ etdiyi dinə qarşı çıxıb batil həyatı daha üstün tutmuşdular. Göylərin, Yerin və bunların arasındakı hər şeyin Rəbbi olan Allah bunu Quranda belə bildirir:

**Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”, – (deyə), elçi göndərdik. Onlardan kimisini Allah hidayət yoluna yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir. Yer üzündə gəzib dolaşın və görün yalan sayanların aqibəti necə oldu! (Nəhl surəsi, 36)**

# İSLAM DÜNYASINDA KEÇƏN AY

## İspaniya, Kordovada 519 il sonra azan oxundu

Əndəlusun paytaxtı Kordovada xilafətin 1492-ci ildə süqut etməsilə kəsilən azan 519 il sonra ilk dəfə yenidən oxunub. Bu azanla müsəlmanlar ilk dəfə cümə namazı da qılıblar.
8 əsr Avropa torpaqlarında hökmranlıq edən Əndəlus dövlətinin paytaxtı olan Kordovada yerləşən tarixi Kordova məscidinin yanındakı kiçik məsciddə əsrlər sonra yenidən azan səsləri yüksəlib.

İspaniyada İslamın hakimiyyəti sona çatdıqdan sonra azanların səslərinin kəsildiyi və Əndəlus hökmdarlarının 205 il ərzində tikdirdiyi Kordova məscidinin yanındakı məsciddə artıq açıq şəkildə azan oxunub namaz qılınır.

Kordova məscidi İspaniyada müsəlman Əndəlus Əməvi sülaləsinin hakimiyyət illərində tikilən möhtəşəm məsciddir. Müsəlmanlar Tariq ibn Ziyadın sərkərdəliyi ilə 711-ci ildə İspaniyanı fəth etmiş və Kordovanı paytaxt elan etmişdilər.

990-cı ildə inşası tamamlanan Kordova məscidi 120x120m ölçüləri olan kvadrat formasındadır. Məscidin içində hər biri 10 m hündürlüyündə olan 1419 sütun ucalır. Bu sütunlar dünyanın ən keyfiyyətli mərmərlərindən hazırlanıb. Məscidin 20 qapısı var. Qapıların qarşısında portağal bağları salınmış, hər tərəf yaşıllaşdırılmışdır. Məscidin ətrafında bağlar, hovuzlar, fəvvarələr, çeşmələr var. Müsəlmanların dəstəmaz alması üçün çoxlu bulaq tikilmişdir. Döşəmə ən qiymətli mərmər və bəzəkli taxtalar ilə işlənmişdir. Bura, eyni zamanda, həm Əndəlusun, həm də bütün Avropanın məşhur universiteti idi... Dini və dəqiq elmlər sahəsində ən keyfiyyətli ali təhsil ancaq burada verilirdi.

1894-cü ildə Almaniyanın Vürzburq şəhərində nəşr olunmuş Şahzadə Salvador, Prof. Qraus, teoloq Kirçberqer, Baron von Bibra, xanım Trelfol tərəfindən hazırlanmış "Spanien: İspaniya" adlı əsərdə bu məscid haqqında belə yazılır:

"Tariq ibn Ziyadın sərkərdəliyi ilə 711-ci ildə İspaniyanı fəth edərək Kordovanı özlərinə paytaxt elan edən müsəlmanlar bu torpaqlara mədəniyyət gətirdilər. Böyük bir saray, xəstəxanalar, mədrəsələr tikdilər. Eyni zamanda, böyük bir məscid (universitet) qurdular. Avropada ilk dəfə qurulan universitet budur. O vaxta qədər avropalılar elmdə, texnikada, tibdə, kənd təsərrüfatı və mədəniyyətdə çox geri qalmışdılar".

## Qurani-kərim gürcü dilinə tərcümə edilib

Mərmərə universitetinin ilahiyyat fakültəsindən məzun olan gürcü Aziz Mikelatze müqəddəs Kitabımız Qurani-kərimi gürcü dilinə tərcümə edib. Gürcüstanda bundan əvvəl iki dəfə Quranın gürcü dilinə tərcümə edildiyini xatırladan Mikeladze hər iki tərcümənin xristianlar tərəfindən edildiyini və tərcümələrdə ciddi səhvlər olduğunu bildirib. Yeni tərcümə isə daha təkmil formadadır.



## İslam dünyasının "facebook"u yayıma başlayır

İslam dünyasının ən güclü sosial media saytı www.salamworld.com tezliklə İstanbuldan yayıma başlayacağı bildirilib.

Saytın qurucularının verdiyi məlumata görə, "İslam dünyasının facebook"u olmağa namizəd olan www.salamworld.com İslam dünyasının tanınmış iş adamları tərəfindən maliyyələşdirilir.

Əsas mərkəzi İstanbulda yerləşən saytın Qahirə, Moskva, London, Dubay, Məkkə, Mədinə, Astana, Nyu-york, Paris və Kuala Lumpur kimi şəhərlərdə şöbələri olacaq.

Texniki işləri Hindistanın Heydərabad şəhərində həyata keçirilən sosial media saytı, əvvəlcə, türk, ərəb, ingilis, fransız, fars və rus, daha sonra isə Azərbaycan, qazax, özbək, urdu, malay, Çin, puştu, benqal və kürd dillərində fəaliyyət göstərəcək.

"Salam, dünya" mənasını verən "Salamworld" saytının Misirdə keçirdiyi toplantıda 15 ölkədən 60-a yaxın sosial media mütəxəssisi, jurnalist, elm adamı və digər peşə qruplarından dəvətlilər iştirak edib.

Saytın nümayəndələri saytın hələ fəaliyyətə başlamamasına baxmayaraq, 100 mindən artıq insanın elektron poçt vasitəsilə üzv olmaq üçün müraciət etdiklərini qeyd ediblər.

İslam dünyasının ən böyük sosial media saytı olmağı nəzərdə tutan "Salamworld" 3 ildə 100 milyon üzvə çatmağı qarşısına məqsəd qoyub.

Saytı hazırlayan qrupa dünyanın bir çox ölkəsindən peşəkarlar daxildir.

"Siyasət yox, qadağa yox, sərhəd yox" şüarı ilə fəaliyyətə başlayacaq "Salamworld" müsəlman gəncliyi, İslam dünyasının intellektual liderlərini, İslam dünyasındakı dinamik iş gücünü, İslam haqqında məlumat almaq istəyən qeyri-müsəlman kütləni və qərbdə yaşayan müsəlman təşkilatları hədəf seçib.

## İngiltərədə müsəlman tələbələr darvinizmi boykot edir

İngiltərənin "Sunday Times" qəzetinin verdiyi xəbər görə, təkamül nəzəriyyəsi haqqında mübahisə səbəbindən ölkənin qabaqcıl tibb fakültələrində biologiya dərsləri boykot edilib və mühazirə zalları boş qalıb.

London Universitet Kollecində (UCL) müsəlman tələbələrin əksəriyyəti təkamül nəzəriyyəsinin inanclarına zidd olduğuna görə, biologiya dərslərinə girmir. Professorlar da tələbələrdən bu nəzəriyyənin keçilməməsi üçün antidarvinist məzmunlu məktublar aldıqlarını deyirlər. Genetika professoru Stiv Counz təkamül dərslərinə etiraz edən tələbələrin əvvəllər xristianlardan, son dövrlərdə isə, əsasən, müsəlman tələbələrin arasından çıxdığını söyləyir.

İngiltərədə fəaliyyət göstərən "Muslims4UK" qrupuna yaxın olan mənbələr müsəlman tələbələr arasında yayılmış hərəkatda türk yazıçı Harun Yəhyanın əsərlərinin təsirinin olduğunu deyir. Harun Yəhyanın kitab və DVD-lərini İngiltərədəki bir çox kitab mağazasında əldə etmək mümkündür. Yaradılışçılığın tərəfdarları İngiltərənin müxtəlif bölgələrinə təşkil etdikləri səfərlərdə Harun Yəhyanın fikirlərini yaymağa çalışırlar. Bu il London, Mançester, Lidz, Dundi şəhərlərində Harun Yəhya konfransları təşkil olunmuşdur. 2008-ci ildə London kollecində də buna bənzər konfrans verilmişdi.



Harun Yahya sınıfları boşalttı

Evrim teorisi bilim insanları ve din adamları arasında büyük tartışma yaratıyor.

Ingiliz Sunday Times gazetesi ülkenin önde gelen tıp fakültelerinde biyoloji derslerinin evrim tartışması nedeniyle boş kaldığını yazdı. Gazeteye göre College London'da Müslüman öğrencilerin önemli bölümü biyoloji derslerine evrim teorisi inançlarına ters düştüğü için girmiyor. Profesörler de öğrencilerden bu teorilerin işlenmemesi için tepki mesajı aldıklarını söylüyor. Genetikbilim profesörü Steve Jones, evrim derslerine itiraz eden öğrencilerin önceden Hristiyanlar arasından çıkarken, son zamanlarda yoğun olarak Müslüman öğrenciler arasından çıktığını söyledi.

Ingiltere'de faaliyet gösteren radikal Muslims4UK grubuna yakın kaynaklar gazeteye mMüslüman öğrenciler arasında yaygınlık kazanan harekette Türk yazar Harun Yahya'nın yayınlarının etkili olduğunu söyledi. Yahya'nın kitap ve dvd'leri Ingiltere'deki birçok kitapçıda kolaylıkla bulunuyor. Yaratılışçılığı savunanlar, Ingiltere'nin farklı bölgelerine düzenledikleri turlarda Yahya'nın görüşlerini yaymaya çalışıyor. Bu yıl Londra, Manchester, Leeds, Dundee kentlerinde Harun Yahya se[...] yılında da C[...] toplantı yap[...]

# Həzrəti Həsənin (ə.s.) həyatı bütün müsəlmanlar üçün nümunədir

Əhli-beytdən olan hz. Həsən (ə.s.) Peyğəmbərimizin (s.ə.v.) nəvəsi, hz. Əlinin (ə.s.) oğludur. Peyğəmbərin (s.ə.v.) qızı hz. Fatimə onu hicrətin 3-cü ilində Mədinədə dünyaya gətirib. Hz. Muhəmməd (s.ə.v.) onun qulağına azan oxuyub və adını Həsən qoyub.

Hz. Həsən (ə.s.) uşaqlıqdan Rəsulullaha (s.ə.v.) beyət etmişdi. Onun mükəmməl tərbiyəsi ilə böyümüşdü.

Səkkiz yaşında olarkən əvvəl babası hz. Muhəmməd (s.ə.v.), sonra da anası hz. Fatimə vəfat edir. Bundan sonra, atası hz. Əlinin (ə.s.) tərbiyəsi ilə böyüyür.

Hz. Həsən (ə.s.) ağ və gözəl simalı insan idi, daha çox Peyğəmbərimizə (s.ə.v.) bənzəyirdi.

Hz. Həsən (ə.s.) Allah sevgisi ilə dolu, həlim xasiyyətli, təmkinli, sülhpərvər, mərhəmətli və səbirli idi. Malını Allah yolunda xərcləyər və bol sədəqə verərdi. Hz. Həsən (ə.s.) iyirmi beş dəfə piyada həccə getmişdi. On beş oğul və səkkiz qız övladı vardı. Həyat yoldaşlarının hamısı hz. Həsəni (ə.s.) çox sevirdilər. Hz. Həsən (ə.s.) hz. Hüseynlə (ə.s.) birlikdə Peyğəmbərimizin (s.ə.v.) nəslini indiyədək davam etdirən iki mübarək şəxsiyyətdən biridir.

## Peyğəmbərimizin (s.ə.v.) hz. Həsənə (ə.s.) olan sevgisi və şəfqəti

Peyğəmbərimiz hz. Həsəni (ə.s.) çox sevərdi, ona qarşı şəfqətlə davranırdı. Bir çox səhabə Peyğəmbərimizin (s.ə.v.) nəvələrini necə sevdiyini, onlarla necə maraqlandığını və oyunlar oynadığını qələmə almışlar.

Rəsulullah (s.ə.v.) hz. Həsəni (ə.s.) çox sevərdi, onunla zarafatlaşar, qucağına alıb öpərdi, mübarək saqqalı ilə oynamasına icazə verərdi. Hz. Zeydin (ə.s.) oğlu Üsamə (ə.s.) Peyğəmbərimizlə (s.ə.v.) əlaqədar bunları demişdir:

"Rəsulullah bir dizinə məni, o bir dizinə də nəvəsi Həsəni oturdar, sonra ikimizi birdən bağrına basar və: "Ya Rəbbi, bunlara rəhm et. Çünki mən bunlara qarşı mərhəmətliyəm", - deyə dua edərdi". (Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 2. cilt, Akçağ Yayınları, Ankara, s.508)

Peyğəmbərimiz (s.ə.v.) namaz qılarkən hz. Həsən gələr, səcdəyə qapanan Rasulullahın (s.ə.v.) kürəyinə, boynuna çıxardı. Rəsulullah (s.ə.v.) da hz. Həsənə olan sevgisindən və mərhəmətindən ötrü onun yıxılıb əzilməsinin qarşısını almaq üçün səcdədən yavaş-yavaş qalxardı. Rəsulullah (s.ə.v.): "Dünyadakı iki reyhanım", - dediyi nəvələri Həsən və Hüseyni tez-tez yanına çağırar, onları iyləyər və bağrına basardı.

"Günəşi itirən aya müraciət etsin. Onu da itirsə, ulduza müraciət etsin". Əshabi-kiram bu hədisin izahını istəyəndə, Rəsulullah (s.ə.v.) bunu belə açıqladı: "GÜNƏŞ MƏNƏM. AY ƏLİdir. Fatimə də ulduzdur. ŞİMAL QÜTBÜNƏ YAXIN OLAN O İKİ ULDUZ İSƏ HƏSƏNLƏ HÜSEYNdir". (Tam İlmihâl Se'âdet-i Ebediyye sh-1011)

"Həsən və Hüseyni sevən, məni sevər, onlara kin duyan da mənə qarşı kin duymuş olar". (Ahmed b. Hanbel, Müsned, II, 288).

## Hz. Həsənin (ə.s.) xəlifəlik dövrü

Hz. Həsən (ə.s.) atası hz. Əlinin (ə.s.) şəhid olmasından sonra 661-ci ildə xəlifə oldu. Ona 40 min insan beyət etdi. Lakin Misir və Şam əhalisi Müaviyəyə beyət etmişdi. Xilafətin yeddinci ayında Bağdadın yaxınlığında iki tərəf bir-birinə qarşı döyüşə hazırlaşarkən, müsəlmanların qanının tökülməməsi üçün hz. Həsən (ə.s.) xilafəti Müaviyəyə verdi. Bu vəziyyət, eyni zamanda, Peyğəmbərimizin (s.ə.v.) bir möcüzəsini də göstərirdi. Çünki hz. Həsən kiçik ikən Rəsulullah (s.ə.v.) Ona işarə edərək: "Bu oğlum seyiddir. Ümid edirəm ki, Allah-Təala onun vasitəsilə iki tərəfi barışdırar", - deyə buyurmuşdu. Hz. Həsənin (ə.s.) xilafətdən çəkilməsilə müsəlman qanı tökülmədi, sülh və əmin-amanlıq təmin edildi. Beləliklə, Rəsulullahın (s.ə.v.) hz. Həsənlə (ə.s.) əlaqədar söylədiyi bu söz həyata keçdi.

## Hz. Mehdi (ə.s.) hz. Həsənin (ə.s.) soyundandır

Peyğəmbərimiz (s.ə.v.) hədislərində müsəlmanların hz. Mehdini (ə.s.) tanımaları üçün onun əlamətlərini bildirmişdir. Bunlardan biri də hz. Mehdinin (ə.s.) hz. Həsənin (ə.s.) soyundan olmasıdır.

"HZ. MEHDİ FATİMƏNİN ÖVLADLARINDANDIR VƏ HƏSƏNİN soyundandır". (Ebu Davud, Hz. Mehdi, 1)

Təmman "Fevaid" adlı əsərində və İbni Əsakir Abdullah bin Əmrdən rəvayət etdilər. Buyurdu ki: HƏSƏNin ÖVLADINDAN BİRİ (HZ. MEHDİ) şərq tərəfdən çıxacaq, əgər dağlar ONA qarşı gəlsə belə, onları əzəcək və özünə o dağlarda yollar açacaq. (Ali Bin Hüsamettin El Muttaki, Celaleddin Suyuti'nin Tasnifinden Hadisler - Ahir Zaman Hz. Mehdi'sinin Alametleri, s. 22)

## Rəsulullah (s.ə.v.) hz. Mehdi (ə.s.) və hz. Həsəni (ə.s.) cənnətlə müjdələmişdir.

Hakim, İbni Macə və Əbu Naim hz. Ənəsdən rəvayət etdilər. Mən Rəsulullahdan (s.ə.v.) eşitdim. Belə buyurdu: Biz Əbdülmüttəlibin övladından yeddi insan cənnətin əfəndiləriyik. Mən, Həmzə, Əli, Cəfər, HƏSƏN, Hüseyn və HZ. MEHDİ. (Ali Bin Hüsameddin El Muttaki, Celaleddin Suyuti'nin Tasnifinden Hadisler - Ahir Zaman Mehdisinin Alametleri, Kahraman Neşriyat, s. 19)

Hz. Həsən (ə.s.) 10 il davam edən imamlıq dövrünü müxtəlif təzyiqlər altında keçirmişdi. Hətta evində belə təhlükəsizliyi yox idi və hicrətin 50-ci ilində zəhərlənərək şəhid edildi.

# Kamil iman sahibinin xüsusiyyətləri

## Kamil iman sahibinin Allah inancı necədir?

- Allahdan başqa İlah olmadığını,
- hər hadisəni yaradanın ancaq Allah olduğunu,
- hər işi idarə edənin Allah olduğunu,
- bütün qəlblərin ancaq Allahın idarəsində olduğunu,
- Allahın hər şeyi ehtiva etdiyini,
- qədəri (taleyi) müəyyən etdiyini,
- hər şeyə gücünün yetdiyini və dilədiyini etdiyini,
- hər hadisədən xəbərdar olduğunu və hər şeyi eşidib gördüyünü,
- hər şeyi qoruduğunu,
- qeybi bildiyini,
- heç nəyə ehtiyacı olmadığını və bütün nöqsan sifətlərdən uzaq olduğunu,
- doğmadığını və doğulmadığını,
- yanılmadığını və unutmadığını,
- mülkün yeganə sahibi olduğunu,
- hər şeyin yeganə varisi olduğunu,
- daim diri olduğunu,
- izzət və şərəfin yeganə sahibi olduğunu,
- daim üstün və qalib olduğunu,
- ən gözəl isimlərin sahibi olduğunu,
- hökm və hikmət sahibi olduğunu,
- qullarına şah damarlarından daha yaxın olduğunu,
- ürəklərindən keçirdikləri ən kiçik şeyi də bildiyini,
- gizlinin gizlisini bildiyini,
- sonsuz ədalətli olduğunu,
- mərhəmətlilərin ən mərhəmətlisi olduğunu,
- qullarına qarşı çox əfvedici olduğunu,
- qullarını çox sevdiyini,
- tövbələri qəbul etdiyini,
- səmimi duaya cavab verdiyini,
- yaxşılığın və şükrün əvəzini artıqlaması ilə verdiyini,
- insana hər şeyi öyrətdiyini,
- xəbərdarlıq edib qorxutduğunu,
- ölüləri diriltdiyini və hesab gününü yaradan olduğunu,
- dininə kömək edənlərə dünyada və axirətdə kömək etdiyini,
- vədinin haqq olduğunu,
- inkarçılar üçün cəhənnəmi, möminlər üçün isə cənnəti yaratdığını bilən Allah inancına malikdir.

## Kamil iman sahibinin Allah qorxusu

- Yalnız Allahdan qorxar və yalnız Ondan çəkinər,
- Allahdan başqa heç nədən qorxmaz,
- Allahdan gücü çatdığı qədər çox qorxar,
- imanı və Allah qorxusunu qəlbə yerləşdirənin Allah olduğunu bilər,
- bu qorxunu yalnız çətinlik və çarəsizlik anlarında deyil, hər an yaşayar,

- Allahın qəlblərdə olanı və gizlinin gizlisini bildiyini unutmaz,
- heç kimin onu görmədiyi yerdə də Allahın gördüyünü hər an xatırlayar,
- hesab verəcəyini bilərək hərəkət edər,
- haram və halallara diqqət edər,
- gördüyü hər işi bu qorxu üzərində qurar,
- hər işində Allaha yönələr,
- yeganə cəzalandıranın Allah olduğunu bilər,
- Allahın təhdidindən və cəhənnəm əzabından qorxar,
- daha əvvəl gəlib-keçənlərə Allahın verdiyi əzabları unutmaz,
- hörmət dolu, içi titrəyən və böyük Allah qorxusuna malikdir.

## Kamil iman sahibinin imanı

- Allah qorxusuna və Allah sevgisinə əsaslanan,
- yalnız Allaha ibadət edən,
- Allahı hər şeydən üstün tutan,
- Allahdan başqa İlah axtarmayan,
- Allaha heç nəyi ortaq qoşmayan,
- hər şeyin Allahdan olduğunu bilən,
- Allahın həmişə onun yanında olub etdiklərini gördüyünü bilən,
- həyatının hər anında "Allahın razılığını qazanmağı" hədəfləyən,
- bütün həyatı Allah üçün yaşamağı tələb edən,
- Allahın sərhədlərini qorumağı təmin edən,
- Allah qarşısında acizliyini çox yaxşı bilən,
- Allahın ayələrinə qəlbən itaət edən,
- yalnız Allaha güvənən,
- köməyin ancaq Allahdan olduğunu qavrayan,
- daim Allahı xatırlayan,
- Qurana bağlı olan,
- Allaha əsla nankorluq etməyən,
- qiyamət gününə tam yəqinliklə iman edən,
- axirətin varlığına qəti olaraq inanan,
- dünya həyatına aldanmağa mane olan,
- gələcək narahatlığını ortadan qaldıran,
- hər işdə bir xeyir olduğunu hər an hiss etdirən,
- hər işdə Allaha yönəlməyi təmin edən,
- sahib olduğu bütün xüsusiyyətlərin Allahdan olduğunu unutmayan,
- Allaha, hökmlərinə və elçilərinə könüldən itaəti təmin edən,
- şeytanın təsirinə düşməyən,
- hər an vicdanın səsilə hərəkət etməyi təmin edən,
- yalnız Allaha yönəlmiş bir əhvalı olan,
- yalnız Allahı və inananları dost etməyi təmin edən,



- Allaha yaxınlaşmaq üçün ciddi səy göstərən,
- Allaha hər an şükür edici olmağı təmin edən,
- gizli və açıq zəkat verməyi unutdurmayan,
- hər çətinliyə səbir edə bilən və qətiyyən qorxmayan,
- üstün əxlaq qazandıran,
- göstərilən mömin əlamətlərində qətiyyət təmin edən,
- təqvada yarışıb önə keçən imana malikdir.

## Kamil iman sahibinin qədər (tale) anlayışı

- Hər şeyin bir qədərlə yaradıldığını,
- doğumdan ölümə qədər hər hadisəni Allahın xüsusi olaraq planlaşdırdığını,
- hər hadisənin ancaq Allahın təqdir etdiyi zamanda reallaşacağını,
- Allaha qəlbən tam güvənərək bağlanmalı olduğunu,
- qəlbən itaət etmənin məqbul olduğunu,
- Allahın bütün zamanları bir an içində gördüyünü,
- yalnız Allaha təslim olmanın vacibliyini,
- nə edirsə-etsin, nəticəni Allahın təyin edəcəyini,
- Allaha tam təslim olduğu təqdirdə əsla qəmgin olmayacağını,
- Allahın yaratdığı hər görüntüdən razı olmalı olduğunu bilər,
- Başına gələn hər şeyin Allahdan olduğunu bildiyi üçün:
-həyəcanlanmaz,
-kədərlənib çətinliyə düşməz,
-təlaşlanmaz,
-ümidsizliyə qapılmaz,
-gərginlik və stress keçirməz,
-narahat olmaz,
-qəzəblənməz,
-"Kaş ki", -deməz,
-ani və kəskin reaksiyalar verməz,
-ölüm qarşısında kədərlənməz,
-itirdiklərinə görə və başına gələn hadisələrə görə kədərlənməz.

## Kamil iman sahibinin düşüncəsi və ağlı

- Quran ayələri haqqında lazımi qədər dərindən düşünən,
- hər şeyi Quran məntiqilə qiymətləndirən,
- hər hadisədə müsbət düşünən,
- vicdanın istiqamətləndirdiyi şəkildə hərəkət edən,
- hər hadisənin qədərdə Allahın təqdir etdiyi şəkildə meydana gəldiyini bilərək düşünən,
- hər hadisənin ardında gizlənən xeyir və hikməti görməyə çalışan,
- ayaq üstə, otura rkən, yatarkən, hər an daim Allahı düşünən,
- Allahın varlığını və yaratma sənətini dərindən düşünən,
- Allahın diqqət çəkdiyi mövzuları və iman həqiqətlərini araşdırıb düşünən,
- suallarının cavablarını yalnız Qurandan tapan,
- çətinliklərdə həll yolunu həmişə Quranda axtaran,
- daim dinin lehinə düşünən,
- vəsvəsə gəldiyində şeytandan olduğunu düşünüb Allaha sığınan,
- möminlər haqqında hüsnü-zənn edən,
- başqalarının ehtiyaclarını düşünə bilən,
- daha təcili işləri müəyyən edib onlara üstünlük verə bilən,
- haqla batil arasında Qurana uyğun müqayisə edə bilən,
- təmiz ağılla düşünə bilən,
- öz yaradılışını düşünən,
- qiyaməti düşünən,
- hesab gününü düşünən,
- cənnəti və xüsusilə də cəhənnəmi

düşünüb öyüd alan,
- özünə verilən öyüdləri ətraflı düşünən,
- öz nəfs mühakiməsini edə bilən ağıl və düşüncəyə malikdir.

## Kamil iman sahibinin sevgi anlayışı

- Allahı hər kəsdən və hər şeydən çox sevər,
- Peyğəmbərimizə (s.ə.v.) duyduğu sevgi bütün inananlara duyduğu sevgidən üstündür,
- möminlərə olan sevgisi Allahın rizasına əsaslanan sevgidir,
- ən çox sevdiyi insanlar Allahın rizasını qazanmağa ən çox səy göstərən, ən təqvalı olduğuna ümid etdiyi şəxslərdir,
- dünya həyatının bəzəklərinə qarşı həvəsli sevgi duymaz,
- gördüyü xeyirli işlərin əvəzində Allahın sevgisindən başqa heç bir mükafat istəməz,
- Allaha və elçisinə qarşı baş qaldıranlara qarşı əsla sevgi duymaz,
- bir şeyə qarşı duyduğu sevgi və ehtiyac o mövzuda fədakarlıq göstərməsinə mane olmaz,

## Kamil iman sahibi necə və nə barədə danışar?

- Allahı ən gözəl adları ilə təsbih edər,
- sözün ən gözəlini söyləyər,
- gələcəkdə olacaq bir hadisə üçün hər zaman "Allah diləsə" mənasını verən "inşaAllah" sözündən istifadə edər,
- Allahın sənətini əks etdirən hər gözəlliyi gördüyündə: "MaşaAllah", -deyərək Allahın şanını ucaldar,
- Allahın razı olacağına ümid etdiyi sözü söyləyər,
- danışıqlarında ayələri xatırladaraq danışar,
- hikmətli danışar,
- qısa, mənalı və aydın danışar,
- boş və faydasız söhbətlər etməz,
- ehtiyaca uyğun danışar,
- yalan söz söyləməz,
- ata və anasına qarşı "uf" belə deməyəcək qədər hörmətlə danışar,
- yumşaq söz söyləyər,
- danışığı ilə qarşı tərəfə etibarlı olduğunu hiss etdirər,
- bacardığı qədər səmimi, sadə, içindən gəldiyi kimi danışar,
- gizli söhbətlərdən çəkinər,
- söylədiyi sözün nə məna verəcəyini bilərək və yaxşı düşünərək danışar,
- öyüd verərək danışar,
- bir evə girdiyində əvvəl Quranda ifadə edildiyi kimi, "salam" sözünü söyləyər,
- cahillərlə qarşılaşdığında onlarla cahil kimi söhbətə dalmaz, "Salam", -deyib keçər,
- böhtan atacaq bir söz söyləməz,
- bu cür söhbətlərə qatılmayıb şərəflə oradan uzaqlaşar,
- yaxşı və gözəl rəftarları təşviq edən və pis davranışlardan çəkindirən söhbətlər edər,
- orta səslə danışar, qışqıraraq danışmaz,
- ağzından çıxan hər sözdən məsul olduğunu bilər,
- boş və gərəksiz məqsədlər üçün and içməz,
- danışığında heç kimi pisləməz,
- dedi-qodu etməz,
- vicdanı hərəkətə gətirən təsirli sözlər söyləyər,

## Kamil iman sahibinin duası

- hər şeydə Allaha yönələrək,
- yalnız Allaha dua edərək və yalnız Ondan kömək diləyərək,
- Allahın hər duaya cavab verdiyini bilərək,
- Allahın ona şah damarından daha yaxın olduğunu və hər düşündüyünü həmin an eşitdiyini bilərək,
- Allahı ən gözəl adları ilə təsbih edərək və bu adlarının mənalarını dərin-dərin düşünərək,
- dua edərkən Allahdan istəyinə sərhəd qoymayaraq,
- duanın qəlibləşmiş forması olmadığını, Allahın rizasını qazanmaq üçün edilən hər hərəkətin bir dua olduğunu bilərək,
- dua etmək üçün xüsusi bir məkan və yerə gərək olmadığını, hər zaman, hər yerdə dua edə biləcəyini bilərək,
- Allaha ən hörmətli şəkildə dua edər,
- yalnız çətinlik və ehtiyac içində olarkən deyil, bolluq və nemət içində olarkən də dua edər,
- dualarından sonra verilən nemətlərə nankorluq etməz,
- duası qəlbən və səmimidir,
- Allaha yalvara-yalvara, için-için dua edər,
- nümayiş üçün dua etməz,
- qorxu və ümidlə dua edər,
- özünə olduğu qədər, hətta özündən daha çox peyğəmbərlər və digər möminlər üçün dua edər

# KOSMOSDAN
## ATOM ZƏRRƏLƏRİNƏ QƏDƏR
## SƏYAHƏT

İnsan ucsuz-bucaqsız kainatda nöqtə boyda sahəni belə əhatə etmir. Aşağıdakı şəkilləri araşdırdığınızda bunu daha yaxşı anlayacaqsınız. Allah kosmosdan atomun daxilindəki zərrəciklərə qədər davam edən sistemdə mükəmməl nizam yaratmışdır. Nəhəng qalaktikalarda da, mikroskopik ölçüdəki yarpaq hüceyrəsində də çox incə nizam mövcuddur. Kainatdakı hər şeyi qüsursuz yaradılışla var edən Rəbbimizin sənəti bədənimizdə də, atomlarda da, ulduzlarda da mükəmməl şəkildə təcəlli edir. Bizim üzərimizə düşən məsuliyyət isə həyat üçün belə qüsursuz kainatı yaradan Rəbbimizə şükür etməkdir.

- Everest kimi yüksək zirvələri, Nil kimi uzun çayları, Sakit, Atlantik okean kimi nəhəng okeanları və 6.5 milyarda çatan insanları özündə ehtiva edən dünyaya 100.000 km uzaqdan baxsaq, bir aspirin dərmanı boyda olduğunu görərik.
- Yer kürəsinin Günəşdən qəbul etdiyi bir günlük enerji bütün bəşəriyyətin bir gün ərzində ehtiyacı olan enerjinin təxminən on min mislidir.
- Yer kürəsinin nəhəng qitələrini məhsuldar torpaqları ilə insan üçün əlverişli şəkildə yaradan Allah bizə lütf etdiyi dünya nemətlərini bir ayədə belə bildirmişdir:

**"Yer üzündə bir-birinə yaxın (müxtəlif iqlimli) torpaq sahələri, üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Onlar eyni su ilə suvarılır.**



**(Lakin) Biz yeyilməsinə görə onların birini digərindən üstün edirik. Doğrudan da, bunda başa düşən adamlar üçün dəlillər vardır". (Rəd surəsi, 4)**

• Günəş şüaları canlı həyatın davam etməsi üçün Yer kürəsinə tam lazım olan ölçüdə çatır. Bu ideal ölçünü təmin edən isə Yer kürəsini bir tavan kimi əhatə edən atmosferdir. Atmosferin başqa xüsusiyyəti isə Yerə çatan şüaları seçib zərərli şüaların keçməsinə mane olmaqdır. Allah dünyanı insanların yaşaması üçün əlverişli yaratmışdır.

• 100 milyon işıq ili uzaqlığında bir nöqtə kimi görünən Süd yolunun kainatdakı milyonlarla qalaktikadan yalnız biri olduğunu düşünsək, Allahın yaratma gücünün böyüklüyünü daha yaxşı qavrayarıq.

• Genişliyi təxminən 100 min işıq ili olan və Günəş, Yer və Ayın da içində olduğu Süd yolu qalaktikası ən az 200 milyard ulduzla birlikdə kainatdakı ən böyük qalaktikalardan biridir.

Allah Quranda ulduzlar haqqında belə bildirmişdir:

**Biz dünya səmasını parlaq ulduzlarla bəzədik. (Saffat surəsi, 6)**

**Ulduzların batdığı yerlərə and olsun! Kaş bunun, doğrudan da, böyük bir and olduğunu biləydiniz. (Vaqiə surəsi, 75-76)**

• 1 işıq ilindən daha az uzaqlıqda olan Günəşin parlaqlığı digər ulduzlara nisbətən daha çoxdur. Səmanı möhtəşəm nizamla yaradan Rəbbimiz Günəşi çıraq kimi yaratdığını belə bildirir:

**Ayı bir nur, günəşi də çıraq etmişdir. (Nuh surəsi, 16)**

• Yarpağa rəngini verən xloroplast piqmentidir. Piqmentin yaşıl rəngdə olmasının səbəbi isə onun həm bənövşəyi, həm də qırmızı işığı qəbul etməsidir. Xloroplast günəş işığına məruz qalanda hərəkət etməyə başlayır və yarpaq hüceyrəsinin içində dolaşır. Bu hərəkətin səbəbi isə günəş işığından maksimum səmərəli şəkildə istifadə etməsidir.

• Palıd ağacı dərin kökləri sayəsində torpaq aşınmasına səbəb olan erroziyanın qarşısını alır. Torpağın keçiriciliyini artıraraq, yağış sularının yeraltı qaynaqlara enməsini təmin edir. Palıd qozası ilə qidalanan dələlər üçün də qida qaynağı olan palıd ağacı Allahın yer üzündə yaratdığı nemətlərdən yalnız biridir.

• Dünyaya 1 km uzaqlıqdan baxdığımızda yollar, göllər, binalar daha yaxşı görünür. Allah Quranda dağları, çayları, yolları bir nemət olaraq yaratdığını belə bildirir:

**O, sizi silkələməsin deyə, yer üzündə möhkəm dağlar və düzgün səmt götürəsiniz deyə, çaylar və yollar yaratdı. (Nəhl surəsi, 15)**

• İnsan bədənində bir saniyə içində reallaşan əməliyyatlar heyrətamizdir. Eyni anda sinir hüceyrələri arasında xəbərləşmə gedir, böyrəklər qanı süzür, qırmızı qan hüceyrələri oksigen-karbondioksid alış-verişi edir, fermentlər kimyəvi reaksiyalara başlayır, ürək qanı nasosla vurur... Ancaq ortada açıq-aşkar bir həqiqət var ki, bədəni meydana gətirən mikroskopik hüceyrələrin qanın içindəki mineralları ayırması, oksigeni, karbondioksidi bir-birindən ayırd edib daşıması, elektriksiz nasos vəzifəsini icra etməsi mümkün deyil. Həm kainatın, həm də öz bədənimizin yaradılışında detallara varsaq, böyük incəliklə qarşılaşarıq. Bu şəkillərdə gördüyümüz kimi, böyükdən kiçiyə qədər ətrafımızı əhatə edən strukturların və ya sistemlərin hansına baxsaq, böyük bir möcüzə ilə mütləq qarşı-qarşıya gələrik. Burada əhəmiyyətli olan məqam isə bu möcüzələri görə





bilməkdir. Bu möcüzələri görə bilmək, Allahın varlığını və sonsuz böyüklüyünü anlamaq ancaq iman gətirənlərə xas olan xüsusiyyətdir.

- Xromatin hüceyrənin DNT-sinin içində olan nazik ip formasındadır. Nazik olduğuna görə mikroskop altında görünmür. Ancaq hüceyrə bölünəndə xromatin genişlənir və daha qalın olur. Beləliklə də, mikroskop altında görünür.
- DNT hüceyrə nüvəsində olan və bədənin bütün məlumatını daşıyan şifrələri ehtiva edir. İnsanın bir DNT molekulunda bir milyon ensiklopediya səhifəsini dolduracaq miqdarda məlumat var.
- Elektronlar nüvənin ətrafında müxtəlif orbitlərdə saniyədə 1000 km. sürətlə fırlanır. Bu sürət bir saniyədə İstanbuldan Antalyaya getməyə bərabərdir. Bu yüksək sürətə baxmayaraq, elektronlar bir-birləri ilə toqquşmurlar.
- Tənəffüs etdiyimiz hava, içdiyimiz su, dağlar, heyvanlar, bədənimiz, qısaca desək, gördüyümüz, toxunduğumuz, hiss etdiyimiz hər şey atomlardan meydana gəlmişdir. Əlinizdə tutduğunuz bu jurnalın hər bir səhifəsi də milyardlarla atomdan ibarətdir.
- Elektronlarla nüvə arasında olduqca böyük məsafə var. Əgər elektronlarla nüvə arasındakı boşluq aradan qaldırılsaydı, bir planet qədər maddə cəmi bir noxud dənəsi böyüklüyündə qalardı.
- Yarpağın üzərindəki damarlar xüsusi planla yaradılmışdır. Bu damarlar həm yarpağın hər nöqtəsini qidalandırır, həm də bitkinin Günəş işığından maksimum faydalanması üçün dik dayanmasını təmin edir.
- Fotosintez yaşıl bitkilərin reallaşdırdığı kimyəvi əməliyyatdır. Bitkilər Günəş şüalarını enerji qaynağı kimi istifadə edərək karbondioksid və hidrogeni birləşdirirlər və bu yolla qida və oksigen istehsal edirlər. Bu əməliyyat elə kompleks şəkildə reallaşır ki, XXI əsrin üstün texnologiyasına baxmayaraq, hələ də fotosintez sisteminə bənzər sistem qurulmamışdır.
- Yarpağı meydana gətirən hüceyrələr Günəş işığını maksimum səviyyədə yığan, hər cür xarici təsirə davam gətirən, ən az vəsaitlə ən çox əməliyyat aparan şəkildə yaradılmışdır. Yarpaq kağız nazikliyində olmasına baxmayaraq, içindəki hüceyrələri qoruyur və onlar arasındakı əlaqəyə nəzarət edir.
- Təxmini hesablamalara görə, yer üzündə hər il bitkilər tərəfindən istifadə edilən su miqdarı 280 milyard ton, karbondioksid miqdarı 680 milyard ton və bu maddələrin əvəzinə atmosferə buraxılan oksigenin miqdarı isə 500 milyard tondur. Bu rəqəmlər molekulun reallaşdırdığı əməliyyatların nə qədər əhəmiyyətli olduğunu açıq şəkildə ortaya qoyur. Fotosintez canlılığın mənşəyini təsadüflərlə şərh etməyə çalışan təkamül nəzəriyyəsinin nə qədər əsassız olduğunu göstərir.
- Atomu meydana gətirən proton və neytronlar “kvark” adlanan alt hissəciklərdən meydana gəlir. Kvarkların ölçüsü isə $10^{-18}$ (0,000000000000000001) metrdir.
- Kainatda var olan güclü nüvə qüvvəsi sayəsində protonlar neytronlarla birlikdə nüvədə bir-birlərinə birləşmiş halda olurlar. Başqa sözlə desək, güclü nüvə qüvvəsi protonları bir yerdə tutaraq atomun mərkəzindəki nüvəni meydana gətirir.

Karbon həyati əhəmiyyət daşıyan elementdir. Dünyadakı bütün xammalın təxminən 1/500-ni sadə, ya da mürəkkəb halda karbon meydana gətirir.

# Bir Ayə Bir Açıqlama

**Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir. Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman (Allahı) xatırlayıb düşünərlər və dərhal görərlər. (Şeytanlar) isə öz qardaşlarını azğınlığa sürükləyər. Sonra da onlardan əl çəkməzlər. (Əraf surəsi, 200-202)**

Yuxarıdakı ayələrdə Allah insanları şeytandan gələn şübhələrə, vəsvəsələrə qarşı xəbərdar edir və insanı şeytanın vəsvəsələrinə qarşı müqavimət göstərmək üçün düşünməyə çağırır. Çünki insanın Allahın ayələri və ətrafındakı yaradılış möcüzələri üzərində dərin düşünməsi onu boş düşüncələrdən, vəsvəsədən xilas edər.

Şeytan möminlərin zehnini boş düşüncələrlə məşğul etməyə çalışır. Məqsədi iman gətirən insanları məşğul edib Allahın rizasını qazanmaq üçün faydalı işlər görmələrinə mane olmaqdır. Möminlər hər an Allahı razı etmək üçün çalışırlar. Mömin hər işi: "İmkanım, ağlım, gücüm, sağlamlığım yerində ikən ən yaxşısını edim ki, Allahın razılığını qazanım", - deyə düşünərək edər. Şeytan xeyirli işlərdən çəkindirmək üçün müxtəlif vəsvəsələrlə möminin ağlına girməyə çalışır. Bu vəsvəsələr, əsasən, axirəti unudub dünyəvi məsələlərə aludə olan insanlara daha çox təsir edir. Çünki şeytan qürur, qısqanclıq, bağlılıq, təkəbbür kimi tamamilə dünyəvi hisslərlə insanı aldadır.

Halbuki Allah rizası üçün saleh əməllər edən və axirət üçün çalışan insanın təkəbbürlü olması və dünyəvi mənfəətlərə can atması mənasızdır. Bu cür hisslər tamamilə şeytanın oyunudur. Mömin belə bir vəsvəsəyə qarşı dərhal şeytandan Allaha sığınmalıdır. Ardınca Allahın ayədə bildirdiyi kimi, yaxşı-yaxşı düşünüb Allahı zikr etməlidir.

Ayədəki "və dərhal görərlər" sözləri ilə Rəbbimiz bu cür davranmağın möminin ağlını və vicdanını açacağını bildirir. Allahın Quranda göstərdiyi bu qəti həll yolunu seçməyib bilə-bilə Allaha sığınmaqdan çəkinən və israrla vəsvəsənin içinə dalan insanlar ayədə bildirildiyi kimi, şeytanın ardınca gedib doğru yoldan uzaqlaşırlar.

İnsan şeytanın bu oyununu görməli və Quran əxlaqı ilə buna qarşı müqavimət göstərməlidir. Əks təqdirdə, bilərək dünya və axirətdə özünü zərərli sistemə salar. Bunun yerinə, Allahın bildirdiyi həll yolunu seçməsi və şeytanın tələsini zərərsizləşdirməsi isə çox asandır. Bu əxlaq Allahın iznilə insana dünya və axirətdə həm Allahın rizasını qazandırar, həm də bütün nemətlərin qapısını açar.

Ayənin sonunda şeytanın vəsvəsə və təlqinlərinə qulaq asan insanların şeytanın qardaşları olduğu, səmimi düşünməyən, Allahı xatırlamayan bu insanların şeytanın onları sürüklədiyi yerə gedəcəyi bildirilir.



# ÜMİDVAR OLMAQ MÖMİN ƏLAMƏTİDİR

*"Bacardığınız qədər özünüzü dünya işlərinə verməyin. İbadət üçün özünüzə vaxt ayırın. Çünki kimin məqsədi sırf dünya olsa, Allah onun işlərini çətinləşdirər, yoxsulluq qorxusu hər zaman onu təqib edər. Kimin məqsədi axirət olsa, Allah işlərini sahmana salar, rahatlığını artırar, zənginliyi qəlbinə yerləşdirər, xeyirli olan hər şeyi sürətlə ona yaxınlaşdırar".* (Hz. Muhəmməd)

İman gətirən bir şəxs hər şeyini itirsə belə, ümidsizliyə qapılmadan səbir və şövqlə hər şeyə başdan başlaya bilər. Sahib olduğu bu şövq imanından, Allaha olan sevgi və etibarından, Quran əxlaqını mənimsəməsindən və dünya həyatının keçiciliyini qavramasından qaynaqlanır. Gələcəyindən həmişə ümidvar olması, hadisələrin həmişə gözəl tərəflərini görməyi bacarması həyatı boyu qarşılaşdığı bütün hadisələrdə özünü büruzə verər.

Ümidvar olmaq Quranda möminlərin başlıca xüsusiyyəti kimi qeyd olunur. Ümid etmək eyni zamanda, insanın imanının göstəricisidir. İnsan imanı çərçivəsində Allaha ümid bəsləyər, Onun rəhmətinə və sonsuz nemətlərinə qovuşmağın həsrətini çəkər. Çünki Allah iman gətirənlərə həm bu dünyada, həm də axirətdə böyük nemətlər vəd etmişdir. İnsan da Allaha olan etibarı, yaxınlığı, təslimiyyəti və səmimiyyətinə görə nemətlərə qovuşmağı ümid edər. Hər şeyin yalnız Allahın diləməsilə olduğunu bildiyi üçün heç bir halda kədərə, pessimizmə və ümidsizliyə qapılmaz. Allahın möminlərin dualarına cavab verdiyini bildiyi üçün ən pis görünən hadisənin belə imtahan mühitinin bir hissəsi olduğundan və nəticədə möminlər üçün mütləq xeyirə çevriləcəyindən şübhə etməz.



Ətrafımızda olan hər şey Allahın: "Ol", -deməsi ilə olur. Hər an, hər şey, qarşımıza çıxan hər görüntü Allahın diləməsi ilə yaradılır. Heç nə özbaşına buraxılmır. Hər şey Allahın təyin etdiyi qədər üzrə baş verir. Allah hər şeyə güc yetirəndir.

Bunun şüurunda olan mömin xoşagəlməz şəraitdə, çətin görünən vəziyyətlərdə belə Allahın rəhmətindən və köməyindən ümidini üzməz. Çətinliklərə səbr edən, Allahdan ümidini kəsməyən və heç bir şəraitdə Allahın hökmlərindən dönməyənlər həm dünyada, həm də axirətdə müjdələnmişdir.

Quranda möminlərin daima Allaha ümid edən bir əhvalda olduqlarını görürük. Həqiqətən də səmimi olaraq iman gətirən bir şəxs Rəbbimizi Quranda təsvir edildiyi kimi tanıyıb təqdir edər və bunun nəticəsində Allahın rəhmətini və nemətini dərk edər. Onun möminlərin dostu və yardımçısı olduğunu, onlara sonsuz şəfqətli və mərhəmətli olduğunu, Allahın saleh qullarına həm bu dünyada, həm də axirətdə böyük mükafat verəcəyini və Allahın qətiyyən vədindən dönməyəcəyini bilər. Onun insan üçün həmişə xeyirli və gözəl olanı dilədiyini, rəhmət və hidayət qapılarını açdığını, saysız-hesabsız mükafat fürsəti verdiyini görər.

Məhz belə şüura sahib olan mömin Rəbbindən daima ümidvar olar, Ondan dünyada da, axirətdə də hər şeyin ən gözəlini və ən xeyirlisini ümid edər. Çünki Allaha iman gətirib təslim olmuşdur və Allah mömin qullarına sonsuz rəhmətini vəd etmişdir. Quranın bir çox ayəsində Allahın möminlərə gözəl cavab verdiyini, onları mərhəmət, razılıq və tükənməz nemətlərlə müjdələdiyini görürük:

**İman edənlər, hicrət edənlər və Allah yolunda öz malı və canı ilə cihad edənlərin Allah dərgahında ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır. Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan cənnət bağları ilə müjdələyir. (Tövbə surəsi, 20-21)**



# QURANDA HƏR MÖVZU AÇIQLANMIŞDIR

Allah bütün insanların qaranlıqdan nura çıxması üçün hər mövzunun açıqlamasını və həll yolunu Quranda bildirmişdir. "Nəhl" surəsində Rəbbimiz Quran haqqında belə buyurur:

**... Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yolu göstərən rəhbər, mərhəmət və müjdə olaraq nazil etdik. (Nəhl surəsi, 89)**

**"Ənam" surəsində isə: "... Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna toplanılacaqlar. (Ənam surəsi, 38)"** - şəklində bildirilmişdir. Quranda hər şey ən mükəmməl, ən hikmətli tərzdə hərtərəfli açıqlanmışdır. Bu, Allahın qullarına olan rəhmətinin təzahürüdür.

Allah həqiqi imanın şərtlərini, insanların dünyadakı və axirətdəki həyatına dair bir çox məsələni, iman sahibi insanın əxlaqını və həyatı boyu yol göstərən bir çox şeyi bizə Quranda ətraflı bildirir. Bundan əlavə, Allah Quran vasitəsilə bizə Özünü tanıdır, bütün kainatı yoxdan yaradan, aləmlərdən üstün, qüsursuz, gizlinin gizlisini görən, eşidən, hər şeydən xəbərdar olduğunu bizə ayələrlə açıqlayır.

Bununla bərabər, Quranda insanların nə üçün və necə yaradıldıqları, Allahın rizasını qazanma yolları, ibadət formaları, gözəl əxlaqın tərifi, fiziki və mənəvi cəhətdən sağlam olmağın yolları, çətin anlarda və gözlənilməz hallarda görüləcək tədbirlər, müxtəlif insan xarakterləri hərtərəfli açıqlanmışdır. Bundan əlavə, elmi həqiqətlərə işarə edən ayələr, gündəlik həyata və sosial problemlərə dair məlumatlar, qiyamət günü, cənnət və cəhənnəm kimi bir çox məsələ haqqında xəbər verilmişdir. Quranda insanın həyatının hər anında ehtiyacı olan əsas biliklərin hamısı var. Ayələrdə belə bildirilir:

**Beləliklə, Biz onu ərəbcə Quran olaraq nazil etdik. Biz orada təhdidləri dönə-dönə açıqladıq ki, bəlkə, onlar çəkinsinlər və ya ibrət alsınlar. (Taha surəsi, 113)**

**Biz bu Quranda insanlar üçün hər cür məsəli müfəssəl izah etdik. Lakin insanların çoxu yalnız küfrü seçdi. (İsra surəsi, 89)**

**Biz bu Quranda insanlar üçün hər cür məsəli ətraflı izah etdik... (Kəhf surəsi, 54)**

Qurana əsasən, insan Allahın hökmlərini qeyd-şərtsiz qəbul etməli, ancaq Allahı özünə dost və vəkil tutmalı, həyatdakı yeganə məqsədi Allahın rizası, rəhməti və cənnəti olmalıdır. Quran ayələrində bildirildiyi kimi yaşayan insan üçün yeganə ölçü Quran, tutduğu yol da Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v.) yoludur. Quranda həqiqi müsəlmanların hər dövrdə yaşadıqları cəmiyyətin batil dinindən ayrılıb ancaq Allaha və Onun əmrlərinə tabe olduğundan bəhs edilir. Quranda yaşadıqları cəmiyyətin batil dinini qəbul etmədikləri üçün qınanan və ölümlə hədələnərək mağaraya sığınan əməlisaleh gənclər haqqında "Kəhf" qissəsində xəbər verilir (Kəhf surəsi, 13-16). Quranın başqa ayələrində də hz. Yusifin ancaq Allaha və Onun əmrlərinə tabe olması iman gətirənlərə nümunə göstərilir:

**... Mən Allaha iman gətirməyən, özləri də axirəti inkar edən adamların dinindən uzaqlaşmışam. Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Hər hansı bir şeyi Allaha şərik qoşmaq bizə yaraşmaz. Bu, Allahın bizə və (bütün) insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir. (Yusuf surəsi, 37-38)**



Əlbəttə, yaşadığı cəmiyyətin batil dinindən ayrılmaq mənəvi cəhətdən bu dinin bütün mənsublarından ayrılmaq deməkdir. Başqa sözlə, onların Allahın haqq dini olan İslamdan başqa ibadət formalarını, inanclarını, dəyər ölçülərini, düşüncə tərzlərini, əxlaq anlayışlarını, adət-ənənələrini, davranışlarını, danışıq üslublarını mənimsəməmək, əsas mənbə kimi Allahın vəhyini ölçü almaqdır.

Allah Ona qulluq edənlərə din olaraq İslamı seçib bəyənmiş, Quranı doğru yol göstərən rəhbər kimi nazil etmiş, Peyğəmbərimizin həyatını nümunə göstərmişdir. Yeganə doğru haqq yol Allahın yoludur. Allahın Quranda bildirdiyi yollardan başqa bütün yollar batildir və ancaq xurafata, bidətə, zənnə əsaslanır. Ona görə, insan ancaq Quran ayələrini ölçü qəbul etdikdə, Allahın əmrlərini dəqiq yerinə yetirdikdə, hər an Onun rizasını qazanmaq üçün saleh əməllər etdikdə və Peyğəmbərimizdən (s.ə.v.) nümunə götürdükdə Allahın dərgahından gözəl mükafata ümid bəsləyə bilər.

Quranda bildirildiyi kimi, Allahın sözləri tamamlanmışdır və ancaq Quranı və Peyğəmbərimizin (s.ə.v.) sünnəsini özünə rəhbər edən insan ən doğru biliyi əldə edə bilər. Allahdan başqa hakim olmadığı Quranda belə xəbər verilmişdir:

**"... mən Ondan başqasınımı hakim qəbul etməliyəm?" Kitab verdiklərimiz bilirlər ki, o, həqiqətən, sənin Rəbbin tərəfindən nazil edilmişdir. Odur ki, şübhə edənlərdən olma. Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs Onun kəlmələrini dəyişə bilməz. O, Eşidəndir, Görəndir. (Ənam surəsi, 114-115)**

Peyğəmbərimiz hz. Muhəmməd də qövmünə yeganə mənbəyin Quran olduğunu demişdir. Peyğəmbərimiz (s.ə.v.) bəzi hədislərində müsəlmanlara belə öyüd-nəsihət verir:

***"Qurandan bərk yapışın və Onu özünüzə doğru yol göstərən, rəhbər edin. Çünki o, Aləmlərin Rəbbinin kəlamıdır. Ondandır və Ona qayıdır (Sizi də Ona çəkər)".*** (Ramuz El-Ehadis, 2-ci cild, səh. 317, No. 10)

Yenə buyurdu: ***"Bu qəlblər dəmir kimi pas tutur". "Pas nə ilə təmizlənir, ya Rəsulullah?" - dedilər. Buyurdu: "Qurani-kərim oxumaqla və ölümü xatırlamaqla" (Beyhaki). Yenə buyurdu: "Mən sizə iki vaiz qoyub gedəcəyəm, daima sizə nəsihət verəcəklər. Biri səsli, digəri sükutla danışacaq: səsli vaiz Qurani-kərimdir. Susan vaiz isə ölümdür."*** (İmam-ı Gazali, Kimya-yı Saadet, səh. 141)

***Allahdan başqa ilah olmadığına və Mənim Onun elçisi olduğuna şahidlik edirsiniz, elə deyilmi? Elə isə müjdələnin. Bu Quran elə bir ipdir ki, bir ucu Allahın əlində, bir ucu da sizin əlinizdədir. Ondan yapışın. Ondan sonra dəlalətə (inkara) və təhlükəyə əsla düşməzsiniz.*** (Ramuz El-Ehadis, 1-ci cild, səh. 7, No.4)

# ALOVA ÇAĞIRAN ƏNƏNƏ: ATALARIN DİNİNƏ BAĞLILIQ

Bəzi insanların ömür boyu yaşadıqları mühitdən, ailələrindən,dostlarından təsirlənərək formalaşan və kökündə atalarının dini duran düşüncə tərzləri onların din əxlaqını mənimsəməsinə mane olur. Bu tip düşüncə tərzləri əksər hallarda tamamilə materialist təmələ əsaslanır və din adı altında üzə çıxan, lakin haqq dinlə heç bir əlaqəsi olmayan fikirlərdən ibarət olur. Belə ki, Quranda din əxlaqını təbliğ edən peyğəmbərlərə və möminlərə atalarının dininə bağlı olan insanların verdiyi cavablar bildirilmiş, bu insanların ümumi xüsusiyyətləri xəbər verilmişdir. Elmdən təhsilə, iqtisadi quruluşdan ədalət sisteminə qədər hər sahədə keçmiş adət-ənənələrin davam etdirilməsinin tərəfdarı olan bu şəxslər din əxlaqının gətirdiyi ağıllı, ədalətli sistemə qarşı çıxmışlar. Ancaq qarşı çıxarkən müdafiə etdikləri fikirlər, adətən, ağıla və vicdana əsaslanan fikirlər olmamış, mənfəət, adət-ənənə əsas götürülmüşdür. Bu mühafizəkar təfəkkürlə Allahın vəhyini insanlara təbliğ edən elçilər də qarşılaşmışdır. Hz. Muhəmmədin (s.ə.v.), hz. İsanın, hz. Şüeybin, hz. Musanın, hz. İbrahimin, hz. Nuhun, hz. Hudun və bir çox elçinin təbliğindən üz çevirən bu insanlar Quranda bildirildiyinə görə, batil dinlərindən və inanclarından əl çəkməyəcəklərini söyləyiblər. Rəbbimizin "ataların dininə bağlılıq" kimi bildirdiyi bu yanlış inanc dövrümüzdə də davam edir. Bəzi insanlar hələ də əcdadlarından qalan dünyagörüşünü, yanlış əxlaq anlayışını mühakiməsiz qəbul edərək əsrlər boyu davam edən bu inanca bağlı qalırlar.

## Ataların dininə bağlı qalmaq savab deyil, itkidir

Quranda elçilərin təbliği və qövmlərinin onlara verdiyi cavablarla bağlı ətraflı məlumat verilir. Elçilərin Allaha iman gətirmək üçün dəvət etdiyi bu şəxslər Quranda bildirildiyinə görə: **"... Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik! (Zuxruf surəsi, 23)"** - deyə cavab veriblər.

Həqiqətən də, iman gətirməyən insanların tutduğu yol əcdadlarının yolu, oxuduqları da əcdadlarının əsərləridir. Ondan başqa yol tutmur və atalarının ən doğru yolda olduqlarına inanırlar. Onların həyat tərzini özlərinə nümunə götürür, dedikləri hər sözün nümunə olduğunu düşünürlər. Bu bağlılıq o qədər güclü olur ki, tutduqları yolun səhv olduğunu və atalarının xətalarının olduğunu onlara göstərmək istəyən insanları da özlərinə düşmən qəbul edirlər. Allah Quranda bunu aşağıdakı ayə ilə bildirmişdir:

**... Gəlmisiniz ki, bizi atalarımızın tutduğu yoldan döndərəsiniz və yer üzündə böyüklük etmək ikinizə qalsın? Biz sizə iman gətirən deyilik. (Yunus surəsi, 78)**

## Atalarının dininə bağlılıq şüuru örtür

Atalarının dininə tabe olan insanlar doğruluğunu araşdırmadan, vicdanla dəyərləndirmədən, sadəcə, illərdən bəri o şəkildə gördükləri üçün atalarının dinini davam etdirir, həqiqətlərə var gücləri ilə qarşı çıxırlar.

Allah inkar edənlərin bu davranışını: **“...Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? (Bəqərə surəsi, 170)”** - ayəsi ilə bizə bildirir. Lakin onlar öz dinlərinə bağlı olduqlarına görə, atalarının yanıldığını düşünmür, doğru olanı eşitmək istəmir, elçinin dəvətindən üz döndərirlər. Ancaq bu davranışlarını əsaslandırmaq üçün heç bir tutarlı açıqlamaları yoxdur. Çünki elçi onları Allahın sözü olan Qurana dəvət edir. Rəbbimiz bu həqiqəti Quranda belə bildirir:

**(Hər peyğəmbər öz ümmətinə) dedi: “Əgər sizə atalarınızın tutduğu o yoldan daha doğrusunu göstərsəm necə?” Onlar dedilər: “Biz sizinlə göndərilənləri inkar edirik”. (Zuxruf surəsi, 24)**

İnsanlar atalarının dininə kor-koranə bağlı olduqlarına görə, Quran ayələrindəki hökmləri görməməzliyə vurur və Allahın vəhyinə əhəmiyyət vermirlər. Dünya həyatının nə qədər qısa olduğunu, bir müddət sonra ölüb kəfənə bürünərək torpağın altına qoyulacaqlarını və Allah dərgahında bütün əməllərinə görə sorğu-sual olunacaqlarını heç ağıllarına gətirmirlər.

Allah Quranda: **“Bəli, Biz onlara və atalarına ömürləri boyunca xoş güzəran verdik... (Ənbiya surəsi, 44)”** - ayəsi ilə iman gətirməyələrin yanıldığını bildirir. Ölümdən qaçan bu insanlar Allahın elçilərinə tabe olmadıqları üçün ziyana uğrayacaqlarını düşünməyərək böyük qəflət içində yaşayırlar.

## Ataların dini ilə mübarizəyə Qurandan nümunə...

Quranda din əxlaqından üz çevirərək atalarının dininə tabe olanlara dair verilən nümunələrdən biri hz. İbrahimin qövmüdür. Bu inkarçı qövm atalarının yolunu tutaraq bütlərə ibadət edirdi. Bu batil dinə olan bağlılıqlarına görə, hz. İbrahimin haqq din əxlaqına dəvətini qəbul etmirdilər. Allah Quranda hz. İbrahimin inkar edənlərlə əlbir olan atasına və qövmünə: **“...Bu nə heykəllərdir ki, siz onlara sitayiş edirsiniz? (Ənbiya surəsi, 52)”** - dediyini bildirir. Bundan sonra aralarındakı söhbətlər Quranda belə bildirilir:

**“Onlar: “Biz atalarımızı onlara ibadət edən görmüşük!”– demişdilər”. (İbrahim) demişdi: “Doğrusu, siz də, atalarınız da, açıq-aydın bir azğınlıq içindəsiniz”. Onlar: “Sən bizə haqq gətirmisən, yoxsa oyunbazlardansan?” – demişdilər. (İbrahim) demişdi: “Xeyr, sizin Rəbbiniz, yaratdığı göylərin də, yerin də Rəbbidir. Mən də buna şahidlik edənlərdənəm. (Ənbiya surəsi, 53-56)**

Daha sonrakı ayələrdə sözügedən qövmün onları Allaha iman gətirmələri üçün dəvət edən hz. İbrahimə inkarla cavab verdikləri bildirilir. Aralarındakı bu söhbətdən sonra hz. İbrahim bütlərinə tələ quracağını söyləmiş, onlar getdikdən sonra da onların sitayiş etdikləri bütün bütləri – böyük bütdən başqa – sındırmışdı. Daha sonra inkar edən qövmlə hz. İbrahimin arasındakı söhbət Quranda belə bildirilir:

**Onlar dedilər: “Tanrılarımızı kim bu kökə salıb? Şübhəsiz ki, o, zalımlardandır!” (Bəziləri:) “İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik” – dedilər. “Onu camaatın gözü qabağına gətirin ki, şahidlik etsinlər” – dedilər. Onlar dedilər: “Tanrılarımızı sənmi bu kökə saldın, ey İbrahim?” (İbrahim) dedi: “Xeyr, bunu onların bu böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun”. (Ənbiya surəsi, 59-63)**



Hz. İbrahimin bu dəvəti və ağıllı metodu qarşısında qövmü, əvvəlcə, tərəddüd etmiş və **"vicdanlarına müraciət edib"** zalımlıq etdiklərini bir anlıq qəbul etmişdilər (Ənbiya surəsi, 64). Ancaq daha sonra yenidən üz çevirmişdilər. Allah onların bu inkarını ayələrdə belə bildirir:

**... "Axı sən bilirsən ki, bunlar danışmırlar". (İbrahim) dedi: "Elə isə Allahı qoyub sizə heç bir fayda və zərər verə bilməyən (bütlərəmi) tapınırsınız? Tfu sizə də, Allahdan başqa tapındıqlarınıza da! Doğurdandamı, siz dərk etmirsiniz?" (Ənbiya surəsi, 65-67)**

**Bu söhbətdən sonra imandan üz döndərən qövmü hz. İbrahimi öldürməyə, oda atmağa çalışmış, ancaq Rəbbimiz onların bu tələsini pozmuşdur. (Ənbiya surəsi, 68-70)**

## Ataların dini vicdanı kütləşdirir

Hz. İbrahim qissəsindən də göründüyü kimi, iman gətirməyən qövm üçün atalarının doğru yolda olması, etdikləri şeyin ağıllı, məntiqli olması vacib deyil. Çünki onlar doğrunu axtarmırlar. Doğru da olsa, yanlış da olsa, atalarının yolunu tuturlar. Bu təfəkkür isə vicdanın kütləşməsi və iradəsizliyin nəticəsidir. Sözügedən şəxslər doğru olanı gördükləri və iradəli olub düzgün olanı edə biləcəkləri halda, bundan çəkinib çoxluğu təqlid etməklə kifayətlənirlər.

Ancaq bu qədər dəyər verib hər şeydən üstün tutduqları atalarını qiyamət günündə yanlarında görməyəcəklər. Dünyada onları Allahın yolundan uzaqlaşdıran, şeytanın yoluna çağıran insanların hamısı məhşər günündə onları tək qoyacaq. Quranda bəzi insanların o günkü peşmançılığını belə bildirilir:

**Üzləri odda o yan-bu yana döndəriləcəyi gün onlar deyəcəklər: "Kaş biz Allaha ibadət edəydik, Onun Elçisinə müti olaydıq!" Onlar dedilər: "Ey Rəbbimiz! Biz başçılarımıza və böyüklərimizə itaət etdik, onlar da bizi haqq yoldan azdırdılar. Ey Rəbbimiz! Onları ikiqat əziyyətə sal və onları müdhiş bir lənətə məruz qoy!" (Əhzab surəsi, 66-68)**

## Atalarının dininə tabe olanlar qavrayışdan məhrum olurlar

Atalarının dininə tabe olan insanların əksəriyyətinə fikirlərinin yanlışlığı şifahi və yazılı şəkildə, müxtəlif formalarda izah edilsə də, bu inanclarından əl çəkmirlər. Çünki onlar atalarının dininə kor-koranə bağlanıb, ona görə də ağıl, qavrayış və mühakimə qabiliyyətlərini itiriblər. Beləliklə, kiçik uşağın belə asanlıqla görə bildiyi həqiqətləri görə bilmirlər. Allah inkarçıların görmə və qavrama qabiliyyətlərini itirdiklərini Quranda belə bildirir:

**"Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar.**



**Qafil olanlar da məhz onlardır". (Əraf surəsi, 179)**

**Onlara: "Allahın nazil etdiyinə itaət edin!"– deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!"– deyərlər. Əgər şeytan onları (Cəhənnəm) odunun əzabına doğru sürükləyirsə necə olsun? (Loğman surəsi, 21)**

**Onlara: "Allahın nazil etdiyinə və Elçiyə tərəf gəlin"– deyildikdə: "Atalarımızın tutduğu yol bizə bəsdir"– deyirlər. Əgər ataları bir şey bilməyib, doğru yola yönəlməyiblərsə (onda) necə olsun? (Maidə surəsi, 104)**

## Nəticə

Bir insan həyatı boyu "atalarının dininə" görə yaşaya, hətta din əxlaqına qarşı ola bilər. Ancaq  bu insan səmimi düşündüyü və vicdanının səsini dinlədiyi təqdirdə Quranın hökmlərinin nə qədər doğru, açıq və asan olduğunu görər. Tövbə etdiyində Allahın bütün keçmiş günahlarını bağışlayacağına ümid edə bilər. Unutmaq olmaz ki, insanın heç bir əcdadı onun üçün şəfaət edə bilməz. Kimsə Allahın hüzurunda bir başqasına fayda verə bilməz. İnsanların tək dostu və qoruyucusu aləmlərin Rəbbi olan Allahdır. Allah ayələrdə bu açıq həqiqəti qavramış insanlar haqqında belə buyurur:

**Siz məni Allahı inkar etməyə, bilmədiyim bir şeyi Ona şərik qoşmağa çağırırsınız, mən isə sizi Qüdrətli və Bağışlayan (Allaha) çağırıram. Şübhəsiz ki, sizin məni çağırdıqlarınızın nə dünyada, nə də axirətdə çağırmaq haqqı yoxdur. Bizim dönüşümüz Allahadır. Həddi aşanlar isə od sakinləridirlər. (Ğafir surəsi, 42-43)**

Tarix boyu təbliğ edərkən bütün elçilərin qarşılaşdığı ən böyük maneələrdən biri insanların Allah rizası və Allahı qorxusuna əsaslanan din əxlaqına uyğun yaşamaq əvəzinə din əxlaqına zidd olan fikirlərə və adətlərə kor-koranə bağlılıqları olmuşdur. Quranda iman gətirməyənlərin hər vəchlə müdafiə etdiyi, onlara təbliğ edilən din əxlaqını heç cür qəbul etməmələrinə səbəb olan bu ənənəvi din "ataların dini" adlandırılır.

Şeytanın oyununun nəticəsi olaraq haqq din əxlaqına deyil, atalarının dininə bağlanan bu insanların ən böyük səhvi isə atalarından qalan mirasdan bərk yapışaraq onu doğru hesab etmələridir.

# DİNSİZLİYİN QARANLIQ TARİXİ:
# FAŞİZM Və KOMMUNİZM

## FAŞİZM VƏ KOMMUNİZM SON YÜZİLLİKDƏ DÜNYAYA MÜHARİBƏ, QARŞIDURMA, QIRĞIN VƏ ZÜLM GƏTİRDİ. DİNSİZLİYİN BU QARANLIQ TARİXİNİ BİLİRSİNİZMİ?

Bunları bilirsinizmi?

-Lenin, Trotski və bolşeviklerin insanı bir heyvan növü kimi gördüklərini və maddə yığını hesab etdikləri üçün insan həyatına dəyər vermədiklərini, inqilab uğrunda milyonlarla insanın rahatlıqla fəda ediləcəyini söylədiklərini…

-Kommunist Leninin kəndlilərə məxsus bütün məhsulu və toxumları yığdıraraq 1921-1922-ci illərdə 29 milyon insanı ac saxladığını və 5 milyon insanın aclıqdan öldüyünü…

-Leninin məhsullarını əlindən aldığı kəndlilərin aclıqdan ot, ağac qabığı, gəmiriciləri, pişik və it yediklərini, hətta bir müddət sonra ölkədə adamyeyənliyin yayıldığını, insanların öz uşaqları ilə başqalarının uşaqlarını dəyişərək yediklərini…

-Leninin kəndlilərin məhsullarını yığaraq insanları bilərəkdən qıtlığa məruz qoymasının əsl səbəbinin insan psixologiyasında təxribat meydana gətirmək, bu yolla insanların Allaha olan inanclarını yox etmək və dinə qarşı hərəkat başlatmaq olduğunu…

-Stalin tərəfindən kəndlilərin məhsullarının müsadirə olunmasına görə müsadirə dəstələrinin qurulduğunu, bunun nəticəsində, 6 milyon insanın qıtlıqdan öldüyünü, digər ölkələrin bu zülmdən xəbərdar olmasına mane olmaq üçün xaricə yüz minlərlə ton taxıl ixrac edildiyini…

-Stalin dövründə bazarda toxum satmağın, tarlada işçi işlətməyin, hətta iki samovar sahibi olmağın böyük cinayət olduğunu, kəndlilərin özlərinin istehsal etdikləri məhsulları bazarda satdıqları üçün ticarətə başladıqlarına görə həbs olunduqlarını…

Stalin dövründə 6 milyon insan, qadın, yaşlı, uşaq və körpənin ölümünə səbəb olan qıtlığın sovet torpaqlarında kifayət qədər taxıl yetişmədiyi üçün deyil, kommunist partiyanın tələbi olduğu üçün reallaşan qıtlıq olduğunu, yəni tamamilə insan əli ilə təşkil edildiyini…

-Stalinin kommunizmə müqavimət göstərən ukraynalıları qıtlıq yolu ilə öldürərkən, digər xalqları da sürgünə göndərərək qətl etdiyini, sürgün adı altında milyonlarla insanı öldürdüyünü…

-Kubada kommunist inqilabından sonra 10 min nəfərin edam edildiyini, 30 mindən çox insanın isə insanlıqdan uzaq şəraitdəki həbsxanalarda saxlanıldığını...

-Qızıl Ordunun Əfqanıstanı işğal etməsindən sonra müsəlmanlara qarşı ən alçaq üsulları tətbiq etdiyini, əfqan uşaqlarının oyuncaq sanaraq əllərinə götürmələrini təmin etmək üçün oyuncaq şəkilli minalar istehsal etdiklərini,





tutulan mücahidlərə qorxunc işgəncələr verildiyini, dinc əhalinin tərəddüdsüz bombalandığını...

-10 il davam edən Qızıl Ordu işğalı nəticəsində Əfqanıstanda on minlərlə insanın öldüyünü, bir o qədər də insanın şikəst qaldığını, bu səbəbdən, hal-hazırda Əfqanıstanın dünyanın ən çox protez qol və ayaq emal edilən ölkəsi olduğunu…

-Darvinist-kommunist elm adamı Lisenkonun toxumların əgər uzun müddət soyuq suda saxlanılsa, soyuq hava şəraitinə uyğunlaşacağını iddia etdiyini və bunu sınamaq üçün tonlarla toxumun soyuq suda saxladıqdan sonra Sibir çöllərində əkildiyini və toxumların hamısının zay olduğunu…

-Maonun 1949-cu ildə Çində kommunist inqilabla hakimiyyətə gəldiyini, inqilabdan sonrakı ilk illərdə bütün Çinə hakim olmağa və kommunizmi hər yerdə qurmağa çalışdığını, buna görə, minlərlə insanın həbs olunduğunu və ictimaiyyət qarşısında edam edildiyini...

-1950-ci illərin ortalarında Maonun "Böyük sıçrayış" layihəsini tətbiq etdiyini, bu layihənin də eynilə Sovet İttifaqında olduğu kimi, Çin xalqına yalnız böyük qıtlıq və işgəncə gətirdiyini…

-"Böyük sıçrayış" layihəsinin tətbiq edilməsindən sonra Çində sərt qış mövsümünün yaxınlaşmasına baxmayaraq, odun yandırmağın qadağan edildiyini, minlərlə insanı həbs edərək işgəncələr verilməsi və öldürülən uşaqların qaynadıldıqdan sonra tarlalarda gübrə kimi istifadə edilməsi kimi vəhşilik mənzərələrinin yaşandığını…

-Maonun "Böyük sıçrayış" siyasəti nəticəsində 1958-1961-ci illərdə Çində yaşanan qıtlığın tarixə ən böyük və ən ölümcül qıtlıq kimi yazıldığını, qıtlıq nəticəsində ölən insanların sayının 40 milyona çatdığını, bu rəqəmin o dövrdəki əhaliyə görə çox böyük olduğunu, müqayisə üçün desək, bütün Türkiyə əhalisinin ölməsi kimi qorxunc bir fəlakət olduğunu…

-Çinli kommunistlərin təkamülçü fikirlərin təsirilə bitki toxumlarının torpağa yaxın əkildikdə toxumların arasında "sosialist həmrəylik" təmin ediləcəyinə və bu şəkildə, daha çox səmərə əldə ediləcəyinə inandıqlarını, üstəlik, bunu tətbiq etdiklərini, nəticədə, böyük istehsal itkisi və qıtlığın olduğunu…

-Çinli kommunistlərin kimyəvi gübrələrin istifadəsinə son verdiklərini, çünki toxumların gübrəsiz qaldıqda, yeni vəziyyətə uyğunlaşaraq "təkamül keçirəcəklərini" və beləliklə, gübrə istifadə etmədən də eyni səmərənin təmin ediləcəyini düşündüklərini, bu sınaqların əkinçiliyin səmərəsini böyük ölçüdə aşağı saldığını…

-Mao dövründə milyonlarla insanın konkret günahı olmadığı halda, kommunizmə müxalif sayılaraq həbs olunduğunu və bir müddət sonra böyük şəhər meydanlarında təşkil edilən edam mərasimlərində öldürüldüklərini...

-Maonun əmrilə 6-10 milyon insanın birbaşa öldürüldüyünü, təxminən 20 milyon "antiinqilabçı"nın da ömürlərinin böyük hissəsini həbsxanalarda keçirdiyini…

-Mao dövründə məhbusların mədən ocaqlarında işlədildiklərini, burada gündə 300 nəfərin öldüyünü, məhbusların diri-diri basdırıldıqlarını və təhqir edilmələrini, mənəviyyatlarını yox edən işgəncələrə məruz qaldıqlarını…

-Maonun xalqın kommunizmi daha yaxşı anlaması üçün "Mədəni inqilaba" başladığını, sonra "kommunizmə zidd" olan minlərlə bürokratın, universitet müəlliminin, elm adamı və ziyalının həbs olunduğunu, qorxunc işgəncələrdən sonra edam edildiklərini…

-Çində "Mədəni inqilab"dan sonra həbs olunan bəzi professorların əlləri arxadan bağlanaraq çəmənliyə atıldığını və "otlamaları", yəni ağızları ilə yerdəki otu yolmaları üçün məcbur edildiklərini, Pekin mətbuatının "Mao əleyhdarları küçələrə qaçan siçanlardır, öldürün onları, öldürün"

Mussolininin Efiopiya işğalını darvinizmin irqçi fikirləri ilə dəstəkləyərək məqbul göstərməyə çalışdığını, efiopiyalıların qara irqdən olduqları üçün aşağı olduqlarını düşündüyünü və bu səbəblə italyanlar kimi üstün irq tərəfindən idarə olunmanın onlar üçün bir şərəf olduğunu söylədiyini….
II Dünya müharibəsini başlayanların - almanların Almaniya sərhədlərindən daha çox "əraziyə" ehtiyac duyduğunu iddia edən nasistlər olduğunu, həm almanlara, həm də digər millətlərə böyük fəlakətlər gətirdiyini, 55 milyon insanın ölümü ilə nəticələnən bu siyasətin faşizmin XX əsrə atdığı ən qanlı imza olduğunu… şəklində başlıqlar yazdıqlarını…

-Maonun qızıl mühafizəkarlarının on minlərlə insanı musiqi dinlədiyi, ev heyvanları bəslədiyi və ya ibadət etdiyi üçün həbs etdiyini, işgəncələrlə edam etdiyini...

-Maonun iqtidara gəlməsindən sonra Şərqi Türküstanda yaşayan uyğur türklərinə sistemli şəkildə soyqırım tətbiq olunduğunu…

-Çinli kommunistlər tərəfindən uyğur türklərinin ibadətlərini yerinə yetirmələrinə icazə verilmədiyini, ibadət yerlərinin və məktəblərin bağlanıldığını, din adamlarının həbs olunduğunu, əksəriyyətinin isə öldürüldüyünü…

-Çinin Uyğur muxtar bölgəsində 1964-cü ildən bu yana 46 nüvə sınağının keçirildiyini, bu sınaqların nəticəsində uyğur türkləri arasında xərçəng xəstəliyinin artdığını, çoxlu körpənin şikəst və ya ölü doğulduğunu…

-1949-1952-ci illərdə 2.800.000, 1952-1957-ci illərdə 3.509.000, 1958-1960-cı illərdə 6.700.000, 1961-1965-ci illərdə 13.300.000 müsəlman uyğur türkünün çinlilər tərəfindən müxtəlif üsullarla öldürüldüyünü…

-Müsəlman uyğurların 1-dən çox uşaq sahibi olmalarının qadağan edildiyi Şərqi Türküstanda uşaq sahibi olmaq istəyənlərin uşaqlarının 9 aylıq olsa belə, ana bətnində kommunistlər tərəfindən qətl edildiyini...

-Zəruri köç, zəruri əhali planlaması və qırğınlar nəticəsində uyğur türklərinin Şərqi Türküstanda azsaylı xalqlar siyahısına düşdüyünü, 1953-cü ildən başlayan assimilyasiya siyasəti nəticəsində Uyğur muxtar bölgəsində 75%-i müsəlman olan əhalinin sayının hal-hazırda 35%-ə düşdüyünü...

-Kommunist Qızıl Kmerlərin Kamboccadakı düyü tarlalarını 1975-79-cu illərdə "ölüm tarlalarına" çevirdiklərini, əhalisi 9 milyon olan ölkədə təxminən 3 milyon insanın başına güllə sıxmaqla, kəlləsini balta ilə parçalamaqla, başına torba keçirib boğmaqla və ya aclığa məhkum etməklə öldürdüklərini…

-Kommunist rəhbərlik tərəfindən Kamboccada da qəsdən aclığın yaradıldığını, ölkədə aclıqdan ölənlərin olduğuna baxmayaraq, əkilməyə əlverişli torpaqların yalnız beşdə birinin istifadəsinə icazə verildiyini…

-Kommunist Maonun "Mədəni inqilabı" nəticəsində "sevgiyə, gözəlliyə, estetikaya və mədəniyyətə düşmənlik" meylinin artmasını, Qızıl Kmerlərdə insanların saçlarını daramaları, özlərinə bir az diqqət göstərmələri, hətta eynək taxmalarının belə "xalq düşməni" sayıla bildiyini…

-Şimali Koreyalı ruhi xəstələrin sürgünə göndərildiklərini, şəhər xaricindəki bu düşərgələrdə uşaq sahibi olmaqdan da məhrum edildiklərini, bu insanlıqdan uzaq metodun qaynağının da darvinizmin məhsulu olan Yevgeni nəzəriyyəsi (insan nəslindən xəstə və şikəstlərin kənarlaşdırılması, bu şəkildə sağlam cəmiyyətlərin meydana gətirilməsi) olduğunu…

-Kommunist Hoşiminin rəhbərliyi altındakı Vyetnamda həbsxanalarda 1975-1977-ci illərdə 8 min nəfərin yerləşə biləcəyi yerə 40.000 nəfərin qoyulduğunu, məhkumların aclıqdan, havasızlıqdan, işgəncə ilə öldüklərini, ya da intihar etdiklərini…

-Faşist diktator Mussolininin: "Faşizm azadlıq deyil, zalımın hakimiyyətidir. Millətin zəmanəti deyil, xüsusi mənfəətləri müdafiə etməsidir", - deyərək faşizmin zalımlığını etiraf etdiyini və İtaliyada xüsusi olaraq qurduğu "Təmizləmə düşərgəsi"nə 35 min insanı salaraq onların 18 minini qətl etdiyini…

-Faşist Frankonun İspaniyanı çox böyük vətəndaş müharibəsinə sürüklədiyini və gündə təxminən 500 nəfərin öldüyünü, kütləvi qırğınların, vəhşi işgəncələrin və insanlıqdan uzaq cinayətlərin ardı-arasının kəsilmədiyini, İspaniya vətəndaş müharibəsi nəticəsində 600.000 insanın öldüyünü…

-Faşist diktatorların ölkələrindən bir sınaq sahəsi kimi istifadə etdiklərini, məsələn, İspaniyanın faşist diktatoru Frankonun Hitlerə bir qəsəbə (Quernika) hədiyyə etdiyini, bu qəsəbənin 5 may, 1937-ci ildə nasist bombardman təyyarələri ilə yerlə-yeksan edildiyini…

-Darvinist-faşist Mussolininin "qara köynəklilər" adlandırdığı, hər cür zorakılıq hərəkətlərini reallaşdıran yarı əsgəri birliklər meydana gətirdiyini, qara köynəklilər vasitəsilə yalnız öz ölkəsində deyil, digər ölkələrdə də şiddət və təzyiq tətbiq etdiyini, məsələn, 1935-ci ildə Efiopiyanı işğal edərək 1941-ci ilə qədər 15 min insanı qətl etdirdiyini…

-II Dünya müharibəsini başlayanların - almanların Almaniya sərhədlərindən daha çox əraziyə ehtiyac duyduğunu iddia edən nasistlər olduğunu, həm almanlara, həm də digər millətlərə böyük fəlakətlər gətirdiklərini, 55 milyon insanın ölümü ilə nəticələnən bu siyasətin faşizmin XX əsrə atdığı ən qanlı imza olduğunu…

-Üçüncü dünya faşistlərinin də nasist qırğınlarını xatırladan vəhşiliklər tətbiq etdiklərini, məsələn, 1973-cü ildə zor gücünə hakimiyyətə gələn Çili diktatoru Pinoçetin xuntasının ilk ilində minlərlə insanın öldürüldüyünü, 9 milyonluq Çilidə təxminən 90 min nəfərin həbs olunduğunu…

-Argentinadakı faşist xunta rejimi dövründə iki mindən çox siyasi məhbusun təyyarələrə mindirilib Argentina çöllərində minlərlə metr yüksəklikdən dənizə atıldıqlarını, doğuş sancısı çəkən qadınların dənizə atıldıqlarını, insanların cinsi orqanlarını dişləmək üçün xüsusi olaraq yetişdirilən itlərə qədər bir çox vəhşi üsulun tətbiq olunduğunu…

-Qvatemalada faşist vəhşiliklərin yaşandığını, buradakı faşistlərin hədəflərinin, əslində, din adamları olduğunu, 1966 və 1968-ci illərdə çoxlu sayda din adamının da iştirak etdiyi 8 min qvatemalalının "ölüm manqaları" tərəfindən edam edildiyini, 1972-ci ildə bu ölüm manqalarının qurbanlarının sayının 12 minə, dörd ildən sonra isə 20 minə çatdığını…

-Yaxın Şərqin faşist diktatorlarından Səddam Hüseynin İranla müharibə nəticəsində 17 milyon əhaliyə sahib olan İraqda 1 milyon insanın öldüyünü və ya yaralandığını, xalqın 1 milyonunun da ölkəni siyasi və iqtisadi səbəblərlə görə tərk etdiklərini…

-Səddamın 1988-ci ildə Hələbcədə kürdlərə qarşı zəhərli qazdan istifadə etdiyini və bir çox günahsız insanın, körpə, yaşlı, qadın, kişinin ölümünə səbəb olduğunu, bu qırğında 5.000 kürdün öldüyünü və bir neçə mininin isə itkin düşdüyünü…

-Kommunistlərin dinə qarşı tətbiqlərin ən şiddətlilərindən birinin Albaniyada yaşandığını, Albaniyanın kommunist lideri və dinsizliyi ilə tanınan Ənvər Xocanın 1967-ci ildə Albaniyanı dünyanın ilk dinsiz ölkəsi elan etdiyini və Albaniyada kommunist rəhbərliyin hakimiyyətə gəlməsindən sonra 1948-ci ildə iki yepiskopun 5000 din adamı ilə birlikdə güllələndiyini, 327 katolik məbədi də daxil olmaqla, 2 min 169 məscid və kilsənin bağlandığını…

-Krım türkləri, Orta Asiya türkləri, kazaklar kimi rus olmayan xalqların Sovet rejiminin terroruna məruz qaldıqlarını, 1920-ci ilin oktyabr ayında 6000-dən çox insanın ölümə məhkum edildiyini və onların dərhal edam edildiyini…





Ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1970) Aleksandr Soljenitsın:

*"Yarım əsr əvvəl hələ uşaqkən yaşlıların Rusiyanın başına gələn fəlakətlərin səbəbi üçün belə dediklərini xatırlayıram: "İnsanlar Allahı unutdular, bütün bu fəlakətlərin səbəbi budur". O zamandan bəri 50 ildir, inqilabımızın tarixini araşdırmışam, yüzlərlə kitab oxumuşam, yüzlərlə şahid dinləmişəm, səkkiz cild kitab yazmışam. Amma 60 milyon insanı məhv edən inqilabın əsas səbəbini izah etməyimi istəsəniz, bunu təkrarlamaqdan başqa bir şey edə bilmərəm: "İnsanlar Allahı unutdular; bütün bu fəlakətlərin səbəbi budur".*

Edward E. Ericson, Jr., "Solzhenitsyn - Voice from the Gulag", Eternity, October 1985, ss. 23, 24



Vladimir Lenin:

*"Bəzi insanlar bizi zalımlığımız səbəbilə tənbeh etdikləri zaman bu insanların ən sadə marksist prinsipləri belə necə yaddan çıxardıqlarına təəccüb edirik".*

(Pravda qəzeti, 26 oktyabr 1918)



# Fosillər Təkamülü TƏKZİB EDİR



ÇAQQAL KƏLLƏ SÜMÜYÜ

Yaşı: 48 milyon il
Dövr: Eosen
Bölgə: Şan Donq, Çin

Elm adı altında ortaya çıxan darvinistlər fosillərin sübut etdiyi faktı inkar edərək, əslində, açıq-aşkar elmə qarşı çıxırlar. Çünki fosil qeydləri canlıların təkamül keçirmədiyini göstərmişdir. Əgər bir darvinist, həqiqətən, elmin gəldiyi nəticələrə əsasən hərəkət edirsə, bu elmi faktı görməməzliyə vurmamalıdır. Şəkildəki 48 milyon illik çaqqal kəlləsi fosilinin göstərdiyi kimi, dövrümüzdəki canlılar milyon illər əvvəl də eyni xüsusiyyətlərə malik olublar. Bunun əksini iddia etmək artıq elm deyil, bir yalanı saxta, batil inanclar uğrunda davam etdirməkdir.



SİBİR ÇOBAN İTİ KƏLLƏ SÜMÜYÜ

Yaşı: 47 milyon il
Dövr: Eosen
Bölgə: Şan Donq, Çin

Şəkildəki 47 milyon illik Sibir çoban iti kəlləsi 47 milyon il ərzində mükəmməl mühafizə olunmuş və görünüşü ilə bugünkü Sibir çoban itlərindən heç bir fərqi olmadığını göstərir. Fosil qeydlərindəki bu izlər təqribən 150 ildir müxtəlif səylərlə dirçəldilməyə çalışılan təkamül nəzəriyyəsini təkzib edir. Çünki canlının əldə edilən bütün fosilləri eyni şeyi söyləyir: bu canlı milyon illər ərzində dəyişməmişdir, yəni təkamül keçirməmişdir.

Fosil nədir?

Fosillər uzun zaman əvvəl yaşamış canlıların bu günə gəlib çatan qalıqları və ya izləridir. Minlərlə il yaşı olan fosillər olduğu kimi, miyonlarla, hətta yüz milyonlarla il əvvələ aid canlılara məxsus fosillər də var. Fosil orjinal canlı ilə tamamilə eyni quruluşa sahibdir, lakin tərkib hissəsi üzvi maddələr deyil, daşdır.

Bütün bu fosil nümunələri olduqca vacib həqiqəti ortaya qoyur. Bütün canlılar dünya üzərində yaradıldıqları ilk andan etibarən eyni quruluş, ölçü və xüsusiyyətlərə sahibdir.

Ən qədim geoloji dövrlərdə yaşamış canlılar belə ən kiçik dəyişikliklər keçirmədən bu günə qədər gəlib çıxıblar. Bu, elmi gerçəkdir və bütün məxluqatın Allah tərəfindən yaradıldığının elmi dəlilidir.



AĞ PƏLƏNG KƏLLƏ SÜMÜYÜ

Yaşı: 32 milyon il
Dövr: Oliqosen
Bölgə: Donq Bey, Çin

Darvinistlər elmi faktları ört-basdır edə bilməzlər. Təkamül adlı bir şey yoxdur.Nə görə bilir, nə eşidə bilir, nə də düşünə bilir. Bu cür sistem görən, eşidən, tədbir alan, hiss edən, ağıl və şüurla yaradıldığı bəlli olan, sənət və estetika nümayiş etdirən canlı varlıqları əmələ gətirə bilməz.Fosil qeydlərindəki canlılar yaradıldıqlarını elan edirlər. Bunlardan biri də 32 milyon il əvvəl yaşamış və dövrümüzdəki növlərindən heç bir fərqi olmayan ağ pələng kəlləsidir.





# 2012
# DÜNYANIN SONU, YOXSA YENİ BİR BAŞLANĞIC?

**ADNAN OKTAR:** *"2012-ci ildən sonra insanların beyinlərində, ruhlarında dəyişiklik olacaq. Tamamilə başqa bir aləmə, başqa bir dünyagörüşə sahib olacaqlar. İnsanların bəziləri 2012-ci ili qiyamət ili hesab edirlər. Bu barədə miladdan əvvəlki dövrlərə aid yazılarda da məlumatlar var: "2012-ci ildə ya qiyamət olacaq, ya da insanların ruhunda əsaslı dəyişiklik olacaq", - deyilir.*

*Əslində, insanlar 2012-ci ildən etibarən maddənin həqiqətini görəcəklər. Hal-hazırda maddənin həqiqətini bilmirlər.*

*Məsələn, mən sizi beynimin içində kiçik bir yerdə görürəm. Bu görüntü hədsiz şəkildə canlı və dəqiqdir. Bizim xaricimizdə səs yoxdur, səs beynin bir qavramasıdır, bu, sırf beyinə xas xüsusiyyətdir, beyindəki ruhun qavramasıdır. Görüntü də elədir: gözümüz görməz, gözlər ətdən ibarət bir cüt kameradır. Onlar işıq şüalarını müəyyən nöqtəyə qədər keçirirlər, orada da kimyəvi enerji elektrik enerjisinə çevrilir. Elektrik enerjisi onu beynimizə aparır, bu, çox gözəl bir sistemdir. O elektriki ruhumuz dünya kimi görür. Çox zəif elektrik enerjisi o ətin içindən naqilsiz keçir və üç ölçülü dəqiq görüntü meydana gəlir".*



## Heç bir insan əşyanın əslini görməyib

İnsanlar hər şeyi gözləri ilə gördüklərini zənn edirlər. Bunun səbəbi doğulduqları andan etibarən qavradıqları xarici təlqinlərdir. Halbuki görən göz deyil. Bu, elmi həqiqətdir. Belə ki, gözlərin (və gözlərlə bağlı milyonlarla sinir hüceyrəsinin) yeganə vəzifəsi görmə əməliyyatının reallaşması üçün beyinə mesaj ötürməkdir. Bütün məktəblərdə öyrədilən, bu səbəbdən də hamının bildiyi bu məlumatı burada bir daha xatırladaq: bir cisimdən gələn işıq göz büllurundan keçir və gözün arxa tərəfindəki torlu qişanın üzərinə baş aşağı və iki ölçülü görüntü salır. Torlu qişa təbəqəsinə düşən görüntülər buradakı milyonlarla sinir ucu tərəfindən elektrik axınına çevrilir və beyindəki görmə mərkəzinə ötürülür. Beyin bu siqnalları üç ölçülü, mənalı görüntülərə çevirir

və beləliklə, görüntü yaranır. Başqa cür desək, görmə mərkəzinə gələn işıq həmin anda elektrik siqnallarına çevrilir və biz bu siqnalları rəngli və üç ölçülü bir dünya kimi görürük. Bu məlumatdan belə nəticə çıxara bilərik:

- Ömrümüz boyu gözlərimizlə gördüyümüzü zənn edirik. Halbuki göz görməz, yalnız elektrik siqnallarını görmə mərkəzinə ötürər.
- Qulaqlarımızla eşitdiyimizi zənn edirik. Halbuki eşidən qulaqlarımız deyil. Qulaqlarımız yalnız elektrik siqnallarını eşitmə mərkəzinə ötürür.
- Xaricimizdəki dünyanın əsli ilə təmasda olduğumuzu zənn edirik. Xaricimizdə dünya var, lakin biz bunun əsli ilə heç vaxt təmasda olmuruq, beynimizdəki kiçik nöqtənin içindəki dünyanı görürük.

Elmin sübut etdiyi bu həqiqətə əsasən, biz dənizdə üzən gəmiyə baxdığımız zaman dənizi və gəmini gözlərimizlə görmürük, çünki bu mənzərəyə aid görüntü gözümüzün qarşısında deyil, beynimizin arxa tərəfində meydana gəlir. Böyük villanın sahibi villasını, bağçasını, avtomobilini, villasında işləyən insanları, ailəsini, yoldaşlarını gözlərilə gördüyünü zənn edərkən, əslində, bu, insan beyninin arxa tərəfindəki kiçik bir yerdə sadaladığımız hər şeyin yalnız surətini görür, surəti ilə təmasda olur. Başqa bir misal: qəfəsdəki quşu seyr edən insan qəfəsi və quşu gözləri ilə görmür. İşıq bu insanın gözündəki torlu qişaya düşəndə, torlu qişada qəfəsin və quşun əksi və iki ölçülü görüntüləri meydana gəlir, sonra bu görüntü elektrik cərəyanına çevrilir və beyinin arxasındakı görmə mərkəzinə çatır və qəfəslə quşun üç ölçülü, qüsursuz görüntüsü burada görünür.

## “Gözümlə görürəm”, - deyənləri yanıldan dərinlik hissidir

Qarşımızdakı insana baxdığımız zaman biz ancaq onun beynimizdə yaranan surətini, görüntüsünü görürük. Heç vaxt və heç bir zaman o insanın əslini görə bilmərik.

Məsələn, televizora baxarkən hərəkətli və rəngli olduqları üçün bizə həqiqət kimi görünən görüntüləri görür və bunları da gözlərimizlə gördüyümüzü deyirik. Halbuki televizora baxarkən biz yalnız beynimizdəki kiçik sahədə elektrik cərəyanlarının meydana gətirdiyi görüntüləri seyr edirik.

Eynilə ətrafımızda gördüyümüz hər şey - bağçalar, ağaclar, çiçəklər, evimiz, evimizdəki bütün əşyalar, sahib olduğumuz bütün mal-dövlət, ailəmiz, yoldaşlarımız… hamısının yalnız beynimizin içərisindəki surətləri ilə təmasda oluruq.



Bu günə qədər heç birimizin heç kimi və heç bir əşyanın əslini görmədiyi açıq-aşkar bir həqiqətdir. Biz yalnız maddi dünyanın görüntüsü ilə təmasda oluruq.

Bu həqiqətin insanların qavramasına mane olan faktor isə gördüklərimizin əsli ilə təmasda olduğumuza inandıran dərinlik hissidir. Pəncərədən baxan insanla qarşıdakı mənzil arasındakı uzaqlıq hissi onu bu həqiqətə inanmaqdan çəkindirir. Bəzi insanlar: "Yaxşı, bütün görüntü beynimdə meydana gəlir, bəs hər şey beynimdəki kiçik nöqtəyə necə sığır? Məsələn, pəncərədən baxanda gördüyüm mənzillər, yollar, avtomobillər və mən necə eyni nöqtədə ola bilərik?" - deyə düşünə bilərlər. Halbuki uzaqlıq hissi də beyində meydana gələn boşluq hissinin qavranmasından başqa bir şey deyil. Buna görə də, insanın özündən uzaqda zənn etdiyi şey də, əslində, beynindəki kiçik nöqtədə meydana gəlir. Bunu bu misalla daha yaxşı anlaya bilərik: televizor düz səthdə iki ölçülü görüntü meydana gətirdiyi halda, işıq, perspektiv və kölgə oyunları istifadə edildiyi zaman üç ölçülü görüntü yaranır. Məhz beyində yaranan qavrama da buna bənzəyir. Biz beyində yaranan iki ölçülü görüntüdə uzaq məsafələri qavraya bilərik, amma bunların heç biri bizdən uzaqda deyil, əksinə, hamısı içimiz–də, beynimizdəki kiçik nöqtədədir.

Gözümüzün gördüyü hər yeri əhatə edən mavi səma, üfüqdə yüksələn dağlar, günəş, ulduzlar, içində oturduğumuz otaq, üzərində oturduğumuz kreslo… hamısının surətləri beynimizdəki kiçik nöqtədə meydana gəlir.

Bu mövzunu daha yaxşı başa düşmək üçün gördüyümüz yuxulara nəzər salaq. Yuxularımızda çox dəqiq və həqiqətəbənzər görüntülər görürük. Heç vaxt getmədiyimiz ölkələrə gedir, tanımadığımız insanlarla danışır, maşın sürür, ləzzətli yeməklər yeyir, gözəl bağçalarda gəzir, sevinc, həyəcan, qorxu kimi müxtəlif hisslər keçiririk… Gördüklərimizin həqiqət olduğuna o qədər inanırıq ki, bəzən oyandığımız zaman bir müddət gördüyümüz yuxunun, həqiqətən, olub-olmadığını düşünürük. Bəs yuxunu həqiqətdən ayıran nədir? Hər ikisi də zehində yaşanır. Bu baxımdan yuxu ilə həqiqət adlandırdığımız dünya həyatı bir-birinə bənzəyir.

Burada bir neçə sual meydana çıxır: beyin bu qədər qüsursuz, əskiksiz, mükəmməl bir qavramanı necə meydana gətirir? Bu görüntünü necə qavrayır?

Əslində, görüntünü qavrayan nə beyindir, nə də elektrik cərəyanları. Çünki beyin yalnız zülal və yağ molekullarından, atomlardan ibarət olan bir ət parçasıdır. Bu vəziyyətdə bütün görüntüləri atomların gördüyünü, sevinc, coşğu, qorxu, həyəcan kimi bütün hissləri atomların hiss etdiyini düşünmək qeyri-mümkündür. Elə isə görən, eşidən, gözəl mənzərədən, musiqidən zövq alan, sevimli dovşan balasını görəndə heyran olan, çiyələyin, qarpızın, şaftalının dadından xoşlanan, dostunu görəndə sevinən kimdir? Şübhəsiz, bütün bunları göz etmədiyi kimi, beyin də etmir. Bu varlıq ruhdur.



**ADNAN OKTAR:** *"Mən əvvəl də qısa şəkildə izah etdim, məsələn, mən baxıram və qarşımdakı insanları görürəm. Amma baxdığım zaman onlar məndən uzaqdaymış kimi görünürlər. Əslində, uzaqda deyillər, mənim içimdədirlər. Beynimin içində görürəm. Yəni əlimlə onun üzü eyni yerdədir. Sənin əlinlə mənim əlim, onların əlləri eyni yerdədir. Hamısı eynidir. Məsələn, bu fincanla sənin saçların eyni yerdədir, hamısı eynidir. İnsanın beynində yaranır. Amma uzaqlıq hissi verilir, uzaqdaymış kimi görürük. Məsələn, fincan da uzaqdaymış kimi görünür, hətta əlimi uzatmalı oluram, baxın, toxunma hissi verildi. Fincanı qaldırdım, fincan getdikcə böyüyür. Bu da Allahın ayrı bir sənətidir. Əvvəl kiçildir Allah, uzaqlaşdıranda kiçildir. Yaxınlaşdırdıqca yavaş-yavaş böyüdür. Bu, ayrı bir sənətdir. Bir də yaxınlaşdırdı cənabi-Allah, əlhəmdülillah, bax, içirtdi Allah, qolumu vəsilə edərək geri qoydurdu cənabi-Allah. Cənnətdə qola ehtiyac yoxdur, eynilə qolun varmış kimi istəyərsən, o qalxar, qolun görünmədən, hətta danışar da səninlə istəsən, gələr, içirdər və yerinə qayıdar. İstəsən, mahnı da oxuyar. Sən düyməyə basanda necə mahnı çalmağa başlayır, televizoru açanda, elə deyilmi? Məsələn, bir düyməyə bir neçə dəfə basırsınız, halbuki düymələr səbəbdir. Oradakı musiqini yaradan Allahdır. Amma siz o düymələrin qarışıq quruluşundan qaynaqlanan bir sistemlə onun işlədiyini zənn edirsiniz. O zaman ağlınızın ixtiyarı qalxmır. Halbuki Allah sizin hansı musiqini dinləmək istədiyinizi bilir, sizin istədiyinizə görə o düymələri vəsilə edir, o musiqini orada yaradır. Amma siz səbəbə sarıldığınız üçün möcüzə olmur..."*

## Kimin gördüyü materializmlə açıqlana bilməz

Maddənin əzəli və əbədi olduğunu iddia edən materializm XX əsrdə astronomiya və fizika sahələrində ortaya qoyulan tapıntılar və əldə edilən elmi məlumatlar nəticəsində tamamilə süqut etmişdir. Elmi araşdırmalar, məsələn, Big Bang sabit kainat nəzəriyyəsinin əsassızlığını sübut etmiş, kvant fizikası maddənin quruluşu haqqındakı yanılmaları ortadan qaldırmış, biologiya və paleontologiya sahələrində əldə edilən məlumatlar darvinizmin əsassızlığını ortaya qoymuşdur. Bunlar materializmin tarix səhnəsindən silinməsinə səbəb olmuşdur.

Materializmin heç vaxt açıqlaya bilmədiyi mövzulardan biri də, görüntünün necə meydana gəlməsi, beyinin içindəki qaranlıqda rəngarəng dünyanı kimin görməsi və beyinin içindəki səssizlikdə bütün səsləri kimin eşitməsidir. Materialistlər bu mövzunu düşünmək belə istəmirlər. Çünki bu həqiqəti düşünən və qavrayan insan bütün mal-dövlətin, marka paltarların, prestijin… qısaca desək, bütləşdirdiyi hər şeyin yalnız surətləri ilə təmasda olduğunu, əslini heç vaxt görmədiyini qəbul etmiş olacaq. Bu səbəbdən, aciz varlıq olduğunu görəcək, yalnız dünyaya həsr etdiyi



saxta həyatı dağılacaq.

Halbuki materialistlər qəbul edib-etməsələr də, kainatda gördüyümüzü söylədiyimiz hər şeyin yalnız surətlərini tanıyırıq və ruhumuzla hiss edirik. Ruhumuzu və qavradığımız bütün görüntüləri yaradan isə Rəbbimiz Allahdır. Hər şey Onun iradəsindən asılıdır. O, hər şeyin sahibidir. İnsana ən yaxın olan varlıq da Allahdır. Bu həqiqət Quranda belə bildirilir:

**"And olsun, insanı Biz yaratdıq və... Biz ona şah damarından da yaxınıq". (Qaf surəsi, 16)**

**ADNAN OKTAR:** *"İnsanlara maddə həqiqətini başa salmaq lazımdır. Maddənin həqiqətini bilmirlər, onu 2012-ci ildən sonra açıq-aydın başa salacağam. Amma hal-hazırda nəzəri şəkildə izah edirəm. İnsanlar sirləri bilsinlər, dünyanın həqiqətini anlasınlar, axirəti qavrasınlar, cənnətə hazırlaşsınlar, Allahın rizası üçün yaşasınlar. Bu qəflət pərdəsi getgedə aradan qalxacaq, dəccalın tilsimi pozulacaq. Dəccal dünyada insanları hal-hazırda hipnoz edir, televizor, radio, qəzetlər vasitəsilə təlqin edərək hipnoz edir. Bəzi şeyləri təkrar edərək hipnoz edir. Sehrdə də elə olur, bəzi sözlər təkrar edilir, insanlar fərqinə belə varmadan hipnoz altına düşürlər. Dəccal hal-hazırda dünyanı hipnoz etmişdir. Yəni sehr bütün insanları bürüyüb, onun təsiri altındadırlar. Hipnoz 2012-ci ildən etibarən açılmağa başlayacaq, insanlar beyinlərində aydınlıq hiss etməyə başlayacaqlar. Yəni sehrin olduğu dövrlə olmadığı dövr arasındakı fərqi başa düşəcəklər. Beyinin üstündəki sehr ortadan qalxanda bədən rahatlaşacaq, hafizə rahatlaşacaq, mühakimə qabiliyyəti açılacaq. İnsanlar deyirlər ki, izah edirik, izah edirik, amma anlamırlar, o zaman izah etsən, həmin anda anlayacaqlar. Hal-hazırda sehrin təsirindən anlamırlar. Allah dəccala xüsusi imkan vermiş, güc vermişdir, onun çox böyük hipnoz qabiliyyəti var.*



## 2012-ci ildən sonra hansı hadisələr olacaq?

**ADNAN OKTAR:** *2012-ci ildən sonra İslama, müsəlmanlara qarşı çox böyük hücum olacaq, Mehdiyə (ə.s.) qarşı da təzyiq şiddətlənəcək, Mehdiyyətə və Mehdi (ə.s.) camaatına qarşı. "Hamiyəti-İslamiyyə fəvəran edəcək", - deyir. Ondan sonra təzyiq artacaq, müsəlmanlara qarşı da təzyiq artacaq. Amma müsəlmanlıqda da böyük irəliləyiş olacaq. Materializm dünya səviyyəsində iflas etməyə davam edəcək. Allah Hadi ismilə təcəlli edəcək. Artıq insanların beyni açılacaq, ruhları açılacaq. İnsanların üzərində qabıq var hal-hazırda. Şeytan qabıq kimi bağladı bir çox insanın üstünü. Şeytan məğlub olur artıq. Şeytan insanların üzərindən çəkilməyə başlayacaq. İnsanlara bəsirət, fərasət gələcək. Mehdi (ə.s.) gəldiyi üçün Allah insanlarda Hadi ismi ilə təcəlli edəcək. Hadi ismilə təcəlli etdimi, hidayət nurları yayılacaq. İnsanlar kütlələr halında iman gətirməyə başlayacaqlar. On min nəfər, yüz min nəfər, bir milyon insan bu şəkildə hidayətə gələcək Allah tərəfindən. Quranda da ayə var, şeytandan Allaha sığınıram: "İnsanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə…" Bu hadisə axırzamanda təsdiqlənməyə doğru gedir, inşaAllah.*





# ƏHLİ-SÜNNƏNİN DÖRD MƏZHƏB İMAMI HZ. MEHDİNİN (Ə.S.) GƏLƏCƏYİNİ MÜJDƏLƏMİŞDİR

Peyğəmbərimizdən (s.ə.v.) nəql edilən "təvatür" (içində yalan ehtimalı olmayan, səhih, əsaslı xəbər) dərəcəsindəki hədislərdə hz. Mehdinin (ə.s.) bu əsrdə zühur edəcəyi açıq-aydın bildirilmişdir. Peyğəmbərimizin (s.ə.v.) hədisləri və böyük İslam alimlərinin açıqlamaları ilə yanaşı, İslam aləminin dörd böyük məzhəbinin imamları da hz. Mehdinin (ə.s.) bu əsrdə çıxacağını müjdələmişdir.

**Dörd haqq məzhəbdə hz. Mehdinin (ə.s.) zühuru necə müjdələnib?**

**Hədislərdə bu barədə hansı açıqlamalar verilib?**

İslam aləmi Peyğəmbərimizdən (s.ə.v.) sonra müxtəlif üsullarla idarə edilmişdir. Rəsulullahın (s.ə.v.) vəfatından sonra idarəçilik xəlifələrə keçmişdir. Növbə ilə Hz. Əbubəkr (r.ə.), hz. Ömər (r.ə.), hz. Osman (r.ə.) və hz. Əlinin (r.ə.) İslam aləminin idarəçisi olduğu dörd xəlifə dövrü 30 il davam etmişdir. Peyğəmbərimizin (s.ə.v.) vəfatından sonra İslam aləminin sərhədləri daha da genişlənmiş, bir çox səhabə İslamı yeni qəbul etmiş ölkələrə gedərək Quran əxlaqını və Peyğəmbərimizin (s.ə.v.) sünnəsini təbliğ etmişdir. Bu şəkildə, Peyğəmbərimizin (s.ə.v.) miras qoyub getdiyi elm və hikmət əshabi-kiram vasitəsilə onlardan sonrakı nəsil olan tabiinlərə (səhabələri görənlərə) çatdırılmışdır. Tabiin imamları da səhabələr kimi həm müsəlmanların dini məsələlərdəki suallarını cavablandırmış, həm də tələbələr yetişdirmişdir. Həmin tələbələr İslam əxlaqı, Quran və Peyğəmbərimizin (s.ə.v.) sünnəsi haqqında məlumatlandırılmışlar. "Təbeyi-tabiin" adlandırılan bu yeni nəslin

içindən əhli-sünnənin dörd haqq məzhəbinin imamları çıxmışdır.

İmami-əzəm Əbu Hənifə, İmam Malik, İmam Əvzai, İmam Şəfii, Əhməd ibn Hənbəl və Süfyan ibn Üyeynə təbeyi-tabiin adlandırılan şəxslərdəndir. Tabiin alimləri səhabələrin fətvalarını topladığı kimi, təbeyi-tabiin alimləri də tabiinin fətvalarını toplamış, eyni zamanda özləri də fətva vermişdir.

Buradan məlum olduğu kimi, əsri-səadət və dörd xəlifə dövrlərində hər hansı məzhəbin qurulmasına ehtiyac olmamışdır. Çünki onlar dini birbaşa Peyğəmbərimizdən (s.ə.v.) və səhabələrdən öyrənmişlər. Lakin sonradan müxtəlif azğın cərəyanlar və bidətçi təriqətlər ortaya çıxmış, nəticədə, Peyğəmbərimizin (s.ə.v.) və səhabələrinin yolu ilə gedən rəbbani alimlər etiqadda və əməllərdə bəzi ölçülər müəyyən etmiş, doğrunu yanlışdan ayıraraq İslam dinini təmiz şəkildə bəşəriyyətə təqdim etmişlər. Beləliklə, əhli-sünnə məzhəbləri meydana gəlmişdir. Əhli-sünnə məzhəblərinin imamları Quran və sünnədə bildirilən hökmləri ciddi şəkildə tətbiq etmiş, başda təfsir və hədis olmaqla, bir çox elmi öyrənmiş, özlərindən sonra gələnlərə elmi Qurandan və sünnədən, yəni əsl mənbəyindən öyrənməyi tövsiyə etmişlər.

## Məzhəb imamları hz. Mehdinin (ə.s.) zühurunu müjdələmişdir

Əhli-sünnə məzhəb imamları arasında sünnənin fəziləti ilə bağlı tam uyğunluq var. Məzhəb imamları bir məsələ olduqda əvvəlcə mütləq Qurana müraciət edirdilər. Daha sonra Peyğəmbərimizin (s.ə.v.) sünnəsinə baxılırdı. Sünnədə də tapılmadıqda səhabənin o məsələ ilə bağlı münasibətinə nəzər salırdılar. Bundan da bir nəticə çıxmadıqda, ictihad (Qurana və hədislərə, böyük İslam alimlərinin hökmlərinə əsasən hökm çıxarma) ilə qərar verilirdi.

Əhli-sünnə inancındakı bütün məzhəb imamlarının müjdələdiyi məsələlərdən biri də hz. Mehdinin (ə.s.) zühurudur.

**Hz. İsanın (ə.s.) nüzulu və hz. Mehdinin (ə.s.) zühuru əhli-sünnə etiqadında inkaredilməz mövzulardır**

"... DÜNYANIN ÖMRÜNDƏN TƏKCƏ BİR GÜN QALSA DA, ALLAH MƏNİM ƏHLİ-BEYTİMDƏN BİR NƏFƏR GÖNDƏRƏCƏK. O, (DAHA ƏVVƏL) ZÜLMLƏ DOLDUĞU KİMİ, DÜNYANI ƏDALƏTLƏ DOLDURACAQ". (Sünəni-Əbu Davud, 14-cü cild, səh. 402)

*Peyğəmbərimizdən (s.ə.v.) nəql edilən "təvatür" (içində yalan ehtimalı olmayan, səhih, əsaslı xəbər) dərəcəsindəki hədislərdə hz. Mehdinin (ə.s.) bu əsrdə zühur edəcəyi açıq-aydın bildirilmişdir. Peyğəmbərimizin (s.ə.v.) hədisləri və böyük İslam alimlərinin izahatları ilə yanaşı, İslam aləminin dörd böyük məzhəbinin imamları da hz. Mehdinin (ə.s.) bu əsrdə çıxacağını müjdələmişdir.*

Bu hədisdə bildirildiyi kimi, Peyğəmbərimizin (s.ə.v.) müsəlmanlara axırzamanda gələcək və zülm içində olan dünyanı sevgi və sülhə qovuşduracaq hz. Mehdinin (ə.s.) zühurunu müjdələmişdir. Peyğəmbərimizin (s.ə.v.) bu müjdəsi Hənəfi, Hənbəli, Şəfii və Maliki məzhəblərində əhli-sünnə inancı kimi dəyişməzdir.

Əsrlərdən bəri, eyni inancı mənimsəmiş əhli-sünnə alimlərindən hz. İsanın (ə.s.) nüzulunu və hz. Mehdinin (ə.s.) zühurunu inkar edən olmamış, alimlərimiz hər dövrdə fikir birliyi ilə müsəlmanları bu mövzuda müjdələmişdir.

Hənəfi məzhəbinin imamı İmami-əzəm Əbu Hənifə, Hənbəli məzhəbinin imamı İmam Hənbəl, Maliki məzhəbinin imamı İmam Malik, Şəfii məzhəbinn imamı İmam Şəfii hz. İsanın (ə.s.) yenidən dünyaya qayıdacağını, hz. Mehdinin (ə.s.) zühur edəcəyini bildirmişdir. Əhli-sünnənin bu dörd böyük haqq məzhəbinin imamları mütləq müctəhidlərdir. Bu mütləq müctəhidlərdən başqa, bütün böyük İslam alimləri də axırzamanda İslam əxlaqının bütün dünyaya hakim olacağını, hz. İsanın (ə.s.) nüzulunu və hz. Mehdinin (ə.s.) zühurunu müjdələmişdir.

## Hənəfi məzhəbində hz. Mehdi (ə.s.) inancı

Yaşadığı illərdə bir neçə səhabəni görən, bu səbəbdən də, elmi çox güclü olan İmami-əzəm Əbu Hənifə hz. İsanın (ə.s.) nüzulunu və hz. Mehdinin (ə.s.) zühurunu müjdələyən məzhəb imamlarındandır. Birbaşa səhabələrdən

elm və hədis öyrəndiyinə görə, Əbu Hənifə hz. Mehdinin (ə.s.) zühurunun inkaredilməz olduğunu bildirmişdir.

İslam aləmində əqaid məsələləri (İslam dinində fərz olan xüsuslar, imanın əsasları, dinin əsas qayda və hökmləri) haqqında İmam Əbu Hənifənin yazdığı "Fiqhul-əkbər" və "Vəsiyyət" adlı risalələri çox önəmli əhli-sünnə mənbələrindəndir. İmami-əzəm Əbu Hənifənin "Fiqhul-əkbər" adlı əsəri əhli-sünnə inancının əsasını təşkil edir. Hənəfi imamı İmami-əzəm Əbu Hənifə hz. İsanın (ə.s.) nüzulunu və hz. Mehdinin (ə.s.) gəlişini inkaredilməz mövzu kimi risaləsində belə bildirir:

"Dəccalın və Yəcucun çıxması, Günəşin qərbdən doğması, hz. İsanın (ə.s.) göydən enməsi və səhih xəbərlərdəki digər qiyamət əlamətləri haqdır və olacaqdır. Qiyamətin böyük əlamətlərindən başqaları da var. Məsələn, MEHDİNİN (Ə.S.) GƏLMƏSİ kimi. Bütün bu hadisələr səhih xəbərlərin məlumat verdiyi kimi haqdır və baş verəcəkdir". (Fiqhul-əkbər tərcüməsi, İmami-əzəm Əbu Hənifə, hazırlayan Əli Rıza Kaşəli, səh. 99)

Dəccalın, Yəcuc və Məcucun çıxması, Günəşin qərbdən doğması, HZ. İSANIN (Ə.S.) GÖYDƏN ENMƏSİ və digər qiyamət əlamətləri səhih xəbərlərdə varid olduğu vəchlə (etibarlı xəbərlərdən bizə çatdığı şəklilə) haqdır, olacaqdır. (Əbu Hənifə, Numan bin Sabit (150/767), Fiqhul-əkbər, tərcümə edən: H. Basri Çantay, Ankara, 1982)

QİYAMƏT QOPACAĞI ZAMAN HZ. İSA (Ə.S.) YER ÜZÜNƏ ENƏCƏK. HZ. İSA (Ə.S.) GƏLMƏZDƏN ƏVVƏL, HZ. MEHDİ (Ə.S.) MƏKKƏ VƏ MƏDİNƏ HƏRƏMLƏRİNDƏ (MÜQƏDDƏS YER) ORTAYA ÇIXACAQ, SONRA QÜDSƏ GƏLƏCƏK. ONDAN SONRA DƏCCAL GƏLƏCƏK, İSA (Ə.S.) DA DƏMƏŞQDƏ ŞƏRQ MİNARƏSİNDƏN ENƏRƏK DƏCCALI TƏSİRSİZ HALA SALACAQ VƏ DƏCCAL ORADA BİR ZƏRBƏ İLƏ (FİKRƏN) ZƏRƏRSİZLƏŞDİRİLƏCƏK. İSA (Ə.S.) YER ÜZÜNƏ ENDİKDƏ DUZUN SUDA ƏRİDİYİ KİMİ, DƏCCAL DA ƏRİYƏCƏK. BUNDAN SONRA İSA ƏLEYHİSSALAM MEHDİ (Ə.S.) İLƏ GÖRÜŞƏCƏK, BİRLİKDƏ NAMAZ QILINACAQ. MEHDİ (Ə.S.) NAMAZI QILDIRMASI ÜÇÜN HZ. İSAYA (Ə.S.) İŞARƏ EDƏCƏK, LAKİN İSA (Ə.S.): "BU NAMAZ SƏNİN ÜÇÜN QILINIR", -DEYƏ SƏBƏB GÖSTƏRƏCƏK VƏ: "SƏN BU NAMAZI QILDIRMAĞA MƏNDƏN DAHA ÇOX LAYİQSƏN", -DEYƏCƏK. HZ. İSA ƏLEYHİSSALAM HZ. PEYĞƏMBƏRİN (S.Ə.V.) ŞƏRİƏTİNƏ TABE OLDUĞU ÜZƏ ÇIXSIN DEYƏ MEHDİYƏ (Ə.S.) TABE OLACAQ, BELƏLİKLƏ, BİRLİKDƏ NAMAZ QILACAQLAR". (İmami-əzəm, Fiqhul-əkbər, Əliyyül-Qari şərhi, tərcümə, Yunus Vəhbi Yavuz, əlavəli 3-cü nəşr, Çağrı nəşriyyatı, səh. 284)

## Şəfii məzhəbində hz. Mehdi (ə.s.) inancı

Hicri 150-ci ildə Qəzzada anadan olan İmam Şəfiinin Əbu Hənifənin vəfat etdiyi il doğulması İslam alimləri tərəfindən əhəmiyyətli hesab olunur. İmam Şəfii Məkkəyə gələrək hədis təhsili almış, kiçik yaşda Quranı əzbərləmiş və İmam Malikin yanına gələrək fiqhi məsələləri mükəmməl öyrənmişdir. Quran və hədis bilgisi mükəmməl olan İmam Şəfii də Əbu Hənifə kimi hz. Mehdinin (ə.s.) zühurunu müjdələmişdir.

HZ. MEHDİNİN (Ə.S.) VƏ DƏCCALIN ZÜHURLARI. Qiyamətə yaxın zamanda HZ. MEHDİ (Ə.S.) ADLANAN MÜSƏLMAN SƏRKƏRDƏ ÇIXACAQ və müsəlmanların imanlarını yeniləyib, yer üzündə geniş yayılmış zülm və təcavüzləri aradan qaldırıb yerinə haqq və ədaləti yerləşdirəcək. Bir çox hədis və əqidə kitablarında açıq şəkildə ifadə edildiyi kimi, hz. Mehdinin (ə.s.) çıxışının ardınca dəccal adlanan bir sərkərdə çıxacaq, rəhbərliyi altında yetmiş döyüşçü ilə islami fəaliyyəti dayandırmaq üçün

hərəkətə keçəcək və nəticədə müsəlmanlarla vuruşacaq, əvvəlcə, nə qədər qələbə çalsa da, sonda məğlub olacaq.

HZ. İSA (Ə.S.) ALLAHIN ƏMRİLƏ GÖYƏ QALXDIĞI KİMİ, QİYAMƏTƏ YAXIN ZAMANDA YENƏ ALLAHIN ƏMRİLƏ YER ÜZÜNƏ ENƏCƏK VƏ İSLAM ƏDALƏTİNİ TƏTBİQ EDƏCƏK. İmanı zəif olan bunu qeyri-mümkün hesab edə bilər. Lakin Allahın qüdrətinə isnad etdikdə, bu, çox asandır. (Böyük Şəfii elmihalı, Halil Günenç, əlavəli 2-ci nəşr, səh. 23)

## Maliki məzhəbində hz. Mehdi (ə.s.) inancı

Maliki məzhəbində də Hz. İsanın (ə.s.) gəlişi əsas inanclardandır. İmam Malikin "Əl-Muvatta" əsərində hz. İsanın (ə.s.) ikinci dəfə yer üzünə gəlməsinə və hz. Mehdinin (ə.s.) zühuruna diqqət çəkilmişdir. (Əl-Muvatta, İmam Malik, 2-ci cild)

İbn Ömər (r.ə.) rəvayət edir: "Xeyr, Allaha and olsun, Rəsulullah (əleyhissalatu vəssəlam) HZ. İSANIN (Ə.S.) QIZIL ÇÖHRƏLİ OLDUĞUNU DEMƏYİB.

Ancaq bunu deyib: "Mən bir dəfə yatmışdım. Yuxuda Beytullahı təvaf edirdim. O ƏSNADA DÜZ SAÇLI, QUMRAL BƏNİZLİ, BAŞINDAN SU AXAN VƏZİYYƏTDƏ İKİ NƏFƏRİN ORTASINDA GEDƏN BİRİNİ GÖRDÜM. "Bu kimdir?" -dedim. "MƏRYƏMİN OĞLU!" -dedilər". (Buxari, Tabi 33, 11, Enbiya, 42, Libas 68, Fiten 26, Muslim, İmam 275,169); Muvatta, Sifatu'n-Nebi 2, (2, 920. *1673)

## Hənbəli məzhəbində hz. Mehdi (ə.s.) inancı

Hənbəli məzhəbinin banisi Əhməd ibn Hənbəl əsərlərində hz. İsanın (ə.s.) gəlişini, dəccalı fikrən öldürəcəyini qəbul edir. Axırzaman əlamətləri ilə bağlı çox maraqlı məlumatlar verir. Əhməd ibn Hənbəl dəccalın şərindən iztiazə ilə (Allaha sığınaraq) hədisləri nəql edərək axırzamanda zühur edəcəyini və hz. İsa (ə.s.) tərəfindən fikrən öldürüləcəyini qəbul edir. (İslam əqaidinin üç şəxsiyyəti, Dr. Yusuf Şevki Yavuz, səh. 49)

**Peyğəmbərimiz (s.ə.v.) hz. Mehdinin (ə.s.) bütün məzhəbləri aradan qaldıraraq dini, əslində, əvvəlki vəziyyətinə qaytaracağını bildirmişdir**

Hz. Mehdinin (ə.s.) mühüm xüsusiyyətləri arasında ən böyük mücəddid (hər əsrin əvvəlində dini həqiqətləri dövrün tələbinə görə öyrədən böyük İslam alimi) və ən böyük müctəhid (ehtiyac olduqda ayələrdən hökm çıxaran böyük İslam alimi) vəsfləri də var. Bu vəsfə malik böyük şəxslər İslam topluluqlarına nümunə olmuş, yol göstərmiş, zamanın mənəvi lideri olmuş öndərlərdir. Bu öndərlərdən bəziləri ictihad etmə (üsuluna uyğun olaraq Quran və hədislər vasitəsilə hökm çıxarma) və hökm vermə vəsflərinə görə məzhəb öndərləri olmuş, müsəlmanlar da onlara tabe olmuşdur. Bu müctəhid və mücəddidlərdən ən böyükləri isə hz. Mehdi (ə.s.) olacaq. Bu da hz. Mehdinin (ə.s.) ictihad edən (üsuluna uyğun olaraq Quran və hədislər vasitəsilə hökm çıxarma) və hökm verən səlahiyyətli şəxs kimi bütün məzhəbləri aradan qaldıracağını göstərir. Çünki ən böyük məzhəb imamı olduğuna görə, digər bütün məzhəbləri ləğv etməlidir. Dövründə hər kəsin ona tabe olacağını bildirilməsi də bunu təsdiq edir. İslam tarixinin ən böyük alimlərindən biri olan Muhyiddin Ərəbi isə "Fütühatül-Məkkiyyə" adlı əsərində bu barədə belə məlumat verir:

"... MEHDİ (Ə.S.) DİNİ PEYĞƏMBƏRİN (S.Ə.V.) ZAMANINDA OLDUĞU KİMİ, EYNİLƏ TƏTBİQ EDƏCƏK. YER ÜZÜNDƏKİ MƏZHƏBLƏRİ ARADAN QALDIRACAQ. XALİS, HƏQİQİ DİNDƏN BAŞQA HEÇ BİR MƏZHƏB QALMAYACAQ". (Muhəmməd bin Rəsul əl-Hüseyn əl-Bərzənci, Qiyamət əlamətləri, səh. 186-187)

Hz. Mehdi (ə.s.) ilə bağlı hədislərin dörd böyük əhli-sünnə məzhəbində (Hənəfi, Hənbəli, Maliki, Şəfii) olduğunu açıqlayan əhli-sünnə alimləri çoxdur:

Hz. Mehdi (ə.s.) haqqında çox hədis var. Şiəlikdə Peyğəmbərimizdən (s.ə.v.) və əhli-beyt imamlarının hamısından hz. Mehdi (ə.s.) haqqında hədislər nəql edilmişdir. Əhli-sünnənin də Rəsulullahdan (s.ə.v.) nəql etdikləri hədislər təvatür dərəcəsindədir və onlardan öndə gələnlərinin böyük hissəsi buna şahidlik edib.



# Allahın qar kristallarında Yaratdığı Ehtişam

Texniki imkanımız olsa və bütün yağan qar kristallarını araşdırsaq, hamısının bir-birindən tamamilə fərqli olduğunu görərik. Bunun səbəbi qar dənəciklərini meydana gətirən su molekullarının molekulyar xüsusiyyəti və qar kristallarının müxtəlif həndəsi strukturlarda meydana gəlməsidir. Meydana gələn bu qar kristalları mükəmməl və qüsursuz simmetriyaya sahibdir.

Bir-birləri ilə zəif şəkildə birləşərək qar dənəsini meydana gətirən kristalların heç biri digərinə bənzəmir. Qar kristallarındakı möhtəşəm quruluş elm dünyasını təəccübləndirmiş və elm adamlarında böyük heyranlıq meydana gətirmişdir. Belə ki, qar kristalları üzərində ilk tədqiqat işi aparan amerikalı Uilson Bentli gördüyü möhtəşəm sənətdən çox təsirlənmiş və əlli il ərzində qar kristallarının rəsmini çəkərək qar dənəciklərini araşdırmışdır. Bentli kəşf etdiyi kristal aləminin bənzərsizliyini belə ifadə edir:

"Mikroskopun altında qar dənəciklərinin möcüzəvi gözəllikdə olduğunu kəşf etdim. Bu gözəlliyin başqaları tərəfindən görülməməsi və lazımi əhəmiyyətin verilməməsi böyük itkidir. Hər kristal bir dizayn möcüzəsidir və heç bir dizayn bir daha təkrarlanmır...".

Qar kristallarında olan müxtəliflik bitib-tükənmədiyi üçün hal-hazırda da tədqiqatlar davam edir.

## Çox vaxt fərqinə varmadığımız sənət əsərləri

Göydən düşən qar dənəciklərinin bir-birindən fərqli olduğu çox insanın bilmədiyi mövzudur. Bilinsə belə, bu möhtəşəmlik üzərində çox düşünülmür. Halbuki qar kristallarının hamısının altıbucaqlı olub strukturlarının bir-birindən fərqlənməsi çox böyük möcüzədir. Belə müxtəlifliyi heç bir sənətkar, memar və ya elm adamı reallaşdıra bilməz. Üstəlik, Allah bu sənəti 0.1 millimetr olan bir məkanın içində yerləşdirmişdir.

Amerikalı fizik, professor Kennet Librext qar kristallarının möhtəşəm quruluşu üzərində tədqiqat aparan elm adamlarından biridir. Kaliforniya Texnologiya İnstitutunun professoru Librext qar dənəciklərinin şəkillərini çəkərək Allahın yaratma sənətindəki qüsursuz gözəlliyi nümayiş etdirmişdir.

Professor Librext indiyə qədər aparılan tədqiqatlar əsasında qar dənəcikləri arasında eyni böyüklükdə, eyni formada və eyni sayda su molekulu ehtiva edən iki kristalın belə olmadığını bildirmişdir. Librext texnoloji cihazların köməyi ilə qar kristallarının bucaqları, motivləri və rəngləri arasında belə, müxtəliflik olduğunu göstərərək bunun möcüzə olduğunu isbat etmişdir.

## Qar kristalları necə meydana gəlir?

Bir qar dənəciyi kiçik toz dənəsi ətrafında meydana gəlməyə başlayır. Yaranan bu kristal get-gedə böyüyür və künclərində kiçik qollar formalaşır. Hava soyuduqca bu qolların böyüməsi bir az da sürətlənir. Qar ətrafa sovrulduqca və hava dəyişikliyinə məruz qaldıqca bu quruluş dəyişməyə davam edir və hər şəraitə uyğun müxtəlif xüsusiyyət



qazanmağa başlayır. Bir qar dənəciyindəki hər qol eyni cür inkişaf edir, bütün qollar bir-birinə bənzəyir və çox kompleks quruluş meydana gəlir. Meydana gələn altıbucaqlı forma qızıl nisbətə uyğun simmetriyaya malik olur və kristal üç ölçülü quruluşunu qazanır.

Kainatı ən kiçik zərrəsinə qədər Allah yaratmışdır və yaratdığı hər şeyə surət vermişdir. Var olan hər şey Ondandır. Bütün gözəlliklər, incəliklər Onun ağlının təcəllisidir. İnsanın üzərinə düşən vəzifə Allahın yaratdığı bənzərsiz sənəti görmək və bunların üzərində düşünməkdir.

## Allah nümunəsiz yaradandır

Hər bir qar dənəciyi Allahın iznilə yer üzünə düşür. Qarın meydana gəlməsi üçün lazım olan bütün faktorları yaradan Allahdır. Temperatur dəyişikliyi, hava kütlələri, kristallaşma Allahın istəyi ilə reallaşır. Hər su damlasını soyuq hava ilə qarşılaşdıran və çox nazik buz parçalarına çevirən də Allahdır. Hər şeyi ən gözəl şəkildə yaradan Allah trilyonlarla qar dənəciyini ehtişamlı sənətlə yer üzünə göndərir. Hər şeyin Allahın diləməsilə var olduğu bir ayədə belə bildirilir:

**Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!"– deyər, o da olar. (Bəqərə surəsi, 117)**

Burada Allahın sonsuz yaratma gücünü daha yaxşı anlamaq üçün qarla örtülmüş mənzərəni gözünüzün önünə gətirin. Qar altında olan ağacları, yolları, avtomobilləri və evlərin damlarını düşünün. İndi buradakı qar dənəciklərini saymağa çalışdığınızı fərz edin. Bunu bacarmaq qeyri-mümkündür. Çünki bir kub metr qarda 350 milyon qar dənəciyinin olduğu təxmin edilir. İndi bu 350 milyon qar dənəciyinin hər birinin fərqli altıbucaqlı quruluşa malik olduğunu düşünün. Sonra qarşınızdakı qarla örtülmüş mənzərəyə baxın və neçə fərqli qar kristalı ilə qarşı-qarşıya olduğunuzu düşünün. 350 milyon bir-birindən fərqli bucaqları, naxışı, rəngləri və quruluşları belə insanın zehnində canlandırması mümkün deyil. Dünyada heç bir rəssamın və ya heç bir sənətkarın bir-birindən fərqli 350 milyon rəsm əsəri və ya naxış işi yoxdur. Allah isə yalnız bir kub metr qarda 350 milyon müxtəlif naxış yaratmağa qadir olandır. Quranda Rəbbimizin yaratma elmi belə xəbər verilir:

**Heç yaradan da yarada bilməyən kimi ola bilərmi? Düşünüb ibrət götürməyəcəksinizmi? Əgər Allahın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Nəhl surəsi, 17-18)**



# Əhli-beyt imamlarından axırzamanla bağlı ayə təfsirləri

### "ƏRAF" SURƏSİNİN 128-ci AYƏSİ

**"Musa öz qövmünə dedi: "Allahdan kömək diləyin və səbir edin. Şübhəsiz ki, yer üzü Allahındır. O, qullarından dilədiyini onun varisləri təyin edir. (Gözəl) aqibət müttəqilərindir".**

...Əbu Xalid əl-Kabuli Əbu Cəfərdən (Muhəmməd Baqir) rəvayət etmişdir: Hz. Əlinin kitabında belə yazıldığını gördük: "...Şübhəsiz ki, yer üzü Allahındır. O, qullarından dilədiyini onun varisləri təyin edir. (Gözəl) aqibət müttəqilərindir". Mən və əhli-beytim Allahın yer üzündə varisləriyik. Biz müttəqilərik və yer üzünün hamısı bizimdir... Mənim soyumdan Qaim (hz. Mehdi (ə.s.))... bütün yer üzünə hakim olar, Rəsulullahın (s.ə.v.) yer üzündə hakimlik etdiyi... kimi.

### "TÖVBƏ" SURƏSİNİN 33-cü AYƏSİ

**"Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstərən rəhbərlə və haqq din ilə göndərən Odur".**

İmam Cəfər Sadiq bu ayə haqqında: "Vallah! Qaim (hz.Mehdi (ə.s.)) zühur etmədən bu ayənin mənası təcəlli etməz. Abaye bin Rəb'idən: Əmirəlmöminin hz. Əli yuxarıda zikr edilən ayə haqqında: "Nəfsim əlində olan Allaha and içirəm ki, heç bir kənd, qəsəbə və şəhər qalmayacaq ki, səhər-axşam içində "Əşhədü ən la ilahə illəllah və əşhədü ənnə Muhəmmədən Rəsulalllah deyilməsin", - deyə buyurdu.

İmam Zeynəl-Abidin və İmam Muhəmməd Baqir: "Cənabi-Haqq mütləq Qaim (hz. Mehdi (ə.s.)) ilə İslam dinini bütün dinlərə qalib edəcək", - deyə buyurdular.

### "YASİN" SURƏSİNİN 30-cu AYƏSİ

"Vay (bu) qulların halına! Onlara elə bir elçi gəlməyib ki, ona istehza etməsinlər".

Əmirəlmöminin əleyhissəlam Kufə şəhərinin minbərində belə buyurdu: "Sizdən sonra qaranlıq, kor və şiddətli fitnələr olacaq. Bu fitnələrdən sadəcə "Nevmə"lər qurtulacaq?" Dedilər ki: "Ey Əmirəlmöminin! "Nevmə" nədir?" Buyurdu ki: "XALQI TANIYAN, AMMA XALQIN TANIMADIĞI KİMSƏDİR. BİLİN Kİ, YER ÜZÜ ALLAHIN HÜCCƏTİ (HZ. MEHDİ (Ə.S.)

OLMADAN AYAQ ÜSTƏ DURA BİLMƏZ. AMMA ALLAH XALQIN NƏFSİNDƏKİ ZÜLM, CƏFA VƏ İSRAF ÜZÜNDƏN ONU XALQDAN GİZLƏDƏCƏK. ƏGƏR ALLAHIN HÜCCƏTİ (HZ. MEHDİ (Ə.S.) BİR AN YER ÜZÜNDƏN ÇƏKİLSƏ, YER XALQIN ÜSTÜNƏ ÇÖKƏR. AMMA HÜCCƏT (HZ. MEHDİ (Ə.S.)) XALQI TANIYIR, XALQ İSƏ ONU TANIYA BİLMƏZ. Yusif kimi. Yusif xalqı tanıdığı halda, onlar Yusifi inkar etdilər". Sonra hz. Əli bu ayəni oxudu: "Vay (bu) qulların halına! Onlara elə bir elçi gəlməyib ki, ona istehza etməsinlər". (Mübarək "Yasin" surəsi, 30-cu şərifə. Qeybəti-Numani, səh.162)

## "HUD" SURƏSİNİN 86-cı AYƏSİ

**"Əgər möminsinizsə, (bilin ki,) Allahın saxladığı (nemətlər) sizin üçün daha xeyirlidir. Mən sizin üstünüzdə gözətçi deyiləm".**

Əbu Cəfər bu əlamətləri belə sadalamışdır:
"... O (Hz. Mehdi (ə.s.)) çıxanda kürəyini Kəbəyə söykəyər. Ona (Hz. Mehdi (ə.s.)) 313 nəfər tabe olar. Hz. Mehdi (ə.s.) əvvəl "əgər möminsinizsə, (bilin ki,) Allahın saxladığı (nemətlər) sizin üçün daha xeyirlidir" ayəsini oxuyar". (Hud surəsi, 86)

Bu ayəni oxuyub belə deyər: "MƏN ALLAHIN SİZƏ VERDİYİ XƏLİFƏSİYƏM (müsəlmanların mənəvi lideriyəm). MƏN ONUN HÜCCƏTİYƏM". HZ. MEHDİYƏ (Ə.S.) SALAM VERƏNLƏR BELƏ DEYƏRLƏR: "SALAM SƏNƏ, EY ALLAHIN YER ÜZÜNDƏKİ (BAQİYYƏSİ!)". Sonra hamı ona (Hz. Mehdiyə (ə.s.)) beyət edər. (Hz. Mehdinin (ə.s.)) adamlarının sayı on minə çatar. Allahdan başqasına ibadət edən, musəvi və xristian olan hər kəs ona (Hz. Mehdiyə (ə.s.)) iman gətirər. Beləliklə, yer üzündə bir millət hasil olar. O da İslam millətidir. Sonra Allahdan başqasına tapınanların üzərinə göydən bir atəş düşər və onları yandırar. Doğrusunu Allah bilir". (Nurul-Ebsar, Ehl-i Beyt, Oniki İmam, Kutuplar ve Mezhep İmamlarının Menkıbeleri Şeblenci (1250),Tercüme: Saim Güngör, (Pamuk Yayıncılık Nisan 2004 Cild: 628 77 93) s. 594).

## "NUR" SURƏSİNİN 55-ci AYƏSİ

**"Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir".**

Əli bin Həsən vasitəsilə Əyyaşi tərəfindən rəvayət edildi: Onun yanında bu ayə oxundu: "Allaha and olsun ki, onlar bizim əhli-beytin sevənlərindəndir. ALLAH BİZDƏN BİR ŞƏXSİN (HZ. MEHDİ-nin (Ə.S.)) ƏLİ İLƏ ONLARA (BUNU) ETDİRİR. O ŞƏXS İSƏ BU ÜMMƏTİN MEHDİSİDİR". (Mecmau'l beyan fi tefsiri'l-Kuran Ebu Ali Eminuddin Fazl, Hasan b. Fazl Tabersi 1986, 4-cü cild, səh. 832).

Əyyaşi təfsirində:

Zeynəl-Abidin həzrətləri: ... (Nur surəsi, 55) ayəsini oxudu və belə buyurdu: "Vallah! Onlar biz Əhli Beyti sevənlərdir. Allah onlar üçün bunu mütləq edəcək, bizdən birinin əli ilə... ki, o bu ümmətin Mehdisidir".

## "ƏNBİYA" SURƏSİNİN 105-ci AYƏSİ

**Biz Zikrdən (Lövhi-məhfuzdakı yazıdan) sonra (nazil etdiyimiz) kitablarda da yazmışdıq ki, yer üzünə Mənim əməlisaleh qullarım varis olacaqlar.**

İMAM MUHƏMMƏD BAQİR BU AYƏ İLƏ ƏLAQƏDAR BELƏ BUYURMUŞDUR :"BUNLAR AXIRZAMANDA ZÜHUR EDƏCƏK HZ. MEHDİNİN (Ə.S.) SƏHABƏLƏRİDİR". (Mecma-ul Beyan Tefsiri)

Biz Zikrdən (Lövhi-məhfuzdakı yazıdan) sonra (nazil etdiyimiz) kitablarda da yazmışdıq ki, yer üzünə Mənim əməlisaleh qullarım varis olacaqlar. İmam Baqir və

Sadiqdən rəvayət edilir: "Buradakı (ayədə bildirilən) "əməlisaleh qullar" HZ. MEHDİ (Ə.S.) VƏ TƏLƏBƏLƏRİDİR". (Hüseyin es-Şirazi, səh. 113)

**"MAİDƏ" SURƏSİNİN 54-cü AYƏSİ**

**"Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah (onun əvəzinə) Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər..."**

ONLAR (HZ. MEHDİ (Ə.S.) VƏ ONA TABE OLAN MÜSƏLMANLAR) BU AYƏNİN BİLDİRDİYİ ŞƏXSLƏRDİR: "Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah (onun əvəzinə) Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər... (Maidə surəsi, 54)" (Tefsir-un Nu'mani)

Süleyman bin Haruni İcli demişdir: "İmam Cəfər Sadiq əleyhissəlamın belə buyurduğunu eşitdim: "Bu əmrin sahibinin (Hz. Mehdinin (ə.s.)) səhabələri məhfuzdur (sadiq), əgər xalqın hamısı ölsə belə, Allah onun (Hz. Mehdinin (ə.s.)) səhabəsini gətirər. Əziz və Cəlal Allah onlar (Hz. Mehdi (ə.s.)) və səhabələri) haqqında belə buyurmuşdur: "Onlar ona qarşı kafir olsalar da, Ona elə bir qövm vermişik ki, ona qarşı kafir olmazlar". Allah onlar (hz. Mehdi (ə.s.) və səhabələri) haqqında belə buyurmuşdur: "Allah elə bir qövm gətirəcək ki, Allah onları (Hz. Mehdi (ə.s.) və səhabələrini) sevər, onlar da Allahı sevərlər. Möminlərə qarşı mülayim, kafirlərə qarşı sərtdirlər".

**"ƏNAM" SURƏSİNİN 89-cu AYƏSİ**

**"Bunlar, Kitab, hikmət və peyğəmbərlik verdiyimiz kəslərdir. Əgər (kafirlər) ayələri inkar etsələr, Biz onları inkar etməyən bir camaata həvalə edərik".**

... İmam Cəfər Sadiq (ə.s.) bu ayə ilə bağlı belə buyurmuşdur: "BU AYƏDƏ İŞARƏ EDİLƏN VƏZİFƏNİN SAHİBİ (HZ. MEHDİ (Ə.S.)) QORUMA ALTINDADIR. İNSANLARIN HAMISI GETSƏLƏR DƏ, ALLAH ONU (HZ. MEHDİNİ (Ə.S.)) VƏ SƏHABƏLƏRİNİ GƏTİRƏCƏKDİR. ONLAR UCA ALLAHIN HAQQINDA BELƏ BUYURDUĞU KİMSƏLƏRDİR: Onlar kitab, hikmət və peyğəmbərlik verdiyimiz kəslərdir. Əgər (kafirlər) ayələri inkar etsələr, Biz onları inkar etməyən bir camaata həvalə edərik. (Ənam surəsi, 89)

**"NƏML" SURƏSİNİN 62-ci AYƏSİ**

**"Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir?..."**

Muhəmməd bin Müslim belə demişdir: "Ehtiyac içində, möhtac olan biri çağırsa, Ona cavab verər" ayəsi haqqında İmam Muhəmməd Baqir əleyhissəlam belə buyurdu: Bu ayə Qaim (Hz. Mehdi (ə.s.)) əleyhissəlam haqqında nazil olmuşdur... XALQIN İÇİNDƏ HZ. MEHDİYƏ (Ə.S.) İLK BEYƏT EDƏN CƏBRAİL ƏLEYHİSSƏLAMDIR. (Şeyh Muhammed b. İbrahim-i Numani, Gaybet-i Numani s.37)

**"BƏQƏRƏ" SURƏSİNİN 155-ci AYƏSİ**

**"Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver".**

... Əbu Basirdən: İmam Cəfər Sadiq əleyhissəlam belə buyurdu: QAİMİN (HZ. MEHDİNİN (Ə.S.)) QİYAMINDAN ÖNCƏ* BİR İL XALQ AC QALACAQ VƏ ONLARI ÖLDÜRÜLMƏ QORXUSU BÜRÜYƏCƏK; MALLARI, CANLARI VƏ MƏHSULLARI AZALACAQ. Bu hadisə Allahın Kitabında açıq şəkildə yazılmışdır. Sonra bu ayəni oxudu: "Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver". (Şeyh Muhammed b.İbrahim-i Numani, Gaybet-i Numani s. 297)

*Hz. Mehdinin (ə.s.) qiyamından öncə dünyada 7 il sürən çox böyük iqtisadi tənəzzül baş verəcək. İmam Cəfər Sadiq (ə.s.) 7 il sürən iqtisadi tənəzzülün bir il daha da artacağına diqqət çəkmişdir.

Eynilə Muhəmməd bin Müslimdən edilən rəvayətə görə isə, İmam Cəfər Sadiq əleyhissəlam belə buyurdu: "Qaimin (Hz. Mehdinin (ə.s.)) qiyamından öncə əlamətlər var: Uca Allah tərəfindən mömin qullarına bəlalar gələcək". "Bu əlamətlər hansılardır?" - deyə ərz etdim. Buyurdu ki: O ƏZİZ VƏ CƏLAL ALLAH BELƏ BUYURMUŞDUR: "Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver".

Buyurur ki: Siz möminləri mütləq sınayacağıq. Qorxu ilə, yəni səltənətlərinin sonlarına doğru onların oğullarının hökuməti ilə qorxudacağıq. Və aclıqla, yəni məhsulların bahalığı ilə. Malların azalması, yəni ticarətlərin kasad olması və fəzilətinin azalması. Canlar(ın azalması) yəni, sürətli və ani ölümlər. Məhsullar(ın azalması), yəni təsərrüfatın azalması və meyvələrin bərəkətinin azalması. SƏBİR EDƏNLƏRİ MÜJDƏLƏ, YƏNİ O ZAMAN QAİM (HZ. MEHDİ (ə.s.)) ƏLEYHİSSALAMIN ZÜHURU İLƏ (ONLARI MÜJDƏLƏ). Sonra mənə buyurdu ki: Ey Muhəmməd! Bu onun şərhidir. (əsl məna və şərhi budur). Əziz və Cəlil Allah buyurur ki: "Onun şərhini yalnız Allah və elmdə dərin olanlar bilərlər".

**"ALİ-İMRAN" SURƏSİNİN 83-cü AYƏSİ**

**"Yoxsa onlar Allahın dinindən başqa bir din axtarırlar? Halbuki göylərdə və yerdə olan hər bir məxluq istər-istəməz Ona təslim olmuş və Ona da qaytarılacaqlar".**

Təfsiri-Əyaşidə İmam Musa Kazım vasitəsilə bu ayənin hz. Mehdiyə (ə.s.) işarə etdiyi rəvayət edilir.

# Demokratiyanın Əsl Mənbəyi ALLAHIN ELÇİLƏRİ OLAN PEYĞƏMBƏRLƏRDİR

İnsan həyatının əsasını təşkil edən və həyat səviyyəsini yüksəldən azadlıq ancaq demokratiyanın hakim olması ilə mümkündür. Çünki demokratiya bütün insanların sosial ədalət, bərabərlik, insan hüququ və azadlıqlarına malik olduğu idarəçilik üsuludur. Demokratiya peyğəmbərlər vasitəsilə Allahın qullarına haqq kitablarda vəhy etdiyi nemətdir. Bütün haqq kitablarda azadlıq, sevgi, mərhəmət, ədalət, hər kəsin azad yaşadığı, fikirlərini sərbəst ifadə etdiyi sülh mühiti əmr edilmişdir. Elə bu səbəbdən, demokratiyanın ilk dəfə təşəkkül tapdığı yer kimi qəbul edilən Yunanıstan və ya dövrümüzdə demokratiyanın mərkəzi qəbul edilən Avropa ölkələri demokratiyanı haqq kitablardan öyrəniblər. Ancaq demokratiyanın ən mütəşəkkil forması İslam əxlaqının bütün dünyaya hakim olması ilə yaşanar.

İslam əxlaqından xəbərsiz olan və ya İslam haqqında yeni məlumat əldə edən bəzi insanlar İslamı yanlış mənbələrdən öyrəndikləri üçün yanlış düşünürlər. Bu insanlar heç bir əsası olmadığı halda, İslamın həyat tərzlərini məhdudlaşdıracağını, azadlıqlarını əllərindən alacağını, düşüncələrini nəzarət altında saxlayacağını, elmi və mədəniyyəti məhdudlaşdıracağını zənn edirlər. Halbuki İslam insanlara düşüncə, ibadət və söz azadlığı verən, onların hər cür haqqını qoruyan və insanları həqiqi azadlıqla təmin edən dindir. Belə ki, Quranda bildirilən **“Əgər səni yalançı hesab etsələr, de: “Mənim əməlim mənə, sizin əməliniz isə sizə aiddir. Siz mənim etdiyim əməldən uzaqsınız, mən də sizin etdiyiniz əməllərdən uzağam (Yunus surəsi, 41)”** ayəsi Allahın qullarına demokratiyanı əmr etdiyi ayələrdən biridir. Bu ayədə heç kimə təzyiq və zorakılıq edilməməsinin, hər kəsin fikir və inanc azadlığına malik olmasının əhəmiyyəti açıq şəkildə bildirilmişdir.

## Demokratiya ancaq İslam əxlaqının yaşanması ilə tətbiq oluna bilər

### *1-SOSİAL ƏDALƏT: Allah sosial ədaləti və paylaşmağı əmr edir*

Həqiqi demokratiyada sosial ədalət demokratiyanın əsas prinsiplərindən biridir. İnsanlar sosial ədaləti hz. İbrahimdən (ə.s.) və hz. Nuhdan (ə.s.) öyrəniblər. Dini mənbələrə əsasən, hz. Nuhun (ə.s.) gəmisi tufandan sonra quruya çıxdıqda çox az qalmış noxud, mərcimək, üzüm, əncir, buğda yarması kimi qidaların hamısını qarışdırıb bişirmişdir. Sonra gəmidəki hər kəslə birlikdə hazırladığı yeməyi yemişdir. Bu, sosial ədalətdir. Çünki hər kəsə bərabərlik, xeyirxahlıq və paylaşmağı öyrədir və insanlara ərzaq paylamağın əhəmiyyətini xatırladır.

**“Elçilərimiz İbrahimə müjdə gətirdilər və: “Salam!”– dedilər. O da: “Salam!”– dedi və dərhal gedib qızardılmış bir buzov gətirdi. (Hud surəsi, 69)”** ayəsində xəbər verildiyi kimi, hz. İbrahim (ə.s.) qonaqları gəldikdə dərhal buzov kəsib bişirmiş və onları qonaq etmişdir. Hz. İbrahimin (ə.s.) heç tanımadığı insanları qonaq etməsilə Allah qonaqlara süfrə açmağın gözəl davranış olduğunu, eləcə də mümkün olduqca kasıblara süfrə açmağın əhəmiyyətini hikmətli nümunə ilə bildirmiş və sosial ədalətə diqqət çəkmişdir.

### *2-BƏRABƏRLİK: Allah irqlərin bir-birindən üstün olmadığını Quranda bildirmişdir*

Allahın Quranda xəbər verdiyi kimi, “üstünlük təqva ilədir”. Ayədə belə buyurulur:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə,**

**sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Allahın əmr etdiyi bu həqiqiəti Peyğəmbərimiz (s.ə.v.) hədislərində belə buyurmuşdur:

"Ey insanlar! Hamınız Adəmin övladlarısınız. Adəm isə torpaqdan yaradılmışdır. İnsanlar milliyyətlərinə görə öyünməkdən mütləq əl çəkməlidirlər". (Sünen-i Ebu Davud, 4/331)

"Sizin əsil-nəcabətiniz heç kimdən üstün olmağınıza və təkəbbür göstərməyinizə səbəb deyil. Hamınız Adəmin övladlarısınız. Hamınız bir qabın içində bir-birinə tay olan buğda dənələri kimisiniz... Halbuki heç kimin heç kimdən din və təqvadan başqa üstünlüyü yoxdur. Bir insana pislik olaraq başqalarını qınaması, özündən aşağı hesab etməsi, xəsis, bədxasiyyət, həddi aşmış olması kifayətdir". (Müsned-i Ahmed b. Hanbel, 4/158, İbnu Kesir, 4/128)

Peyğəmbərimiz (s.ə.v.) Vida xütbəsində də müsəlmanlara belə müraciət etmişdir:

"Nəsillə öyünmək olmaz. Ərəblər ərəb olduğu üçün əcəmdən, əcəmlər də əcəm olduğu üçün ərəblərdən üstün hesab olunmur. Çünki Allah qatında yüksəkdə olanınız Ona qarşı çıxmaqdan ən çox çəkinəninizdir (ən təqvalınızdır)". ("əcəm"- ərəb olmayan)

## *3-ƏDALƏT: Allah ədaləti əmr edir*

Allah Quranda möminlərə: **"... Allah şahidləri kimi ədaləti qoruyun. İstər dövlətli, istər kasıb olsun, hər halda, Allah onların hər ikisinə (sizdən) daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! (Nisa surəsi, 135)"** - şəklində buyurur. Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v.) həm müsəlmanlar arasında verdiyi hökmlər, həm digər din, dil, irq və qövmlərdən olanlara qarşı ədalətli və şəfqətli münasibəti, həm də Allahın ayədə bildirdiyi kimi, varlı-kasıb ayırd etmədən hər kəsə bərabər davranması demokratiya anlayışına gözəl nümunədir.

Allah bir ayədə Rəsuluna belə buyurur:

**Onlar yalana qulaq asanlar və haram yeyənlərdir. Əgər yanına gəlsələr, aralarında hökm et və ya onlardan üz çevir. Əgər onlardan üz döndərsən, sənə**





**heç bir zərər verə bilməzlər. Əgər aralarında hökm etsən, ədalətlə hökm et. Allah ədalət sahiblərini sevər! (Maidə surəsi, 42)**

Peyğəmbərimiz (s.ə.v.) bu ayənin hökmünə əməl edərək zorakılıq edən qövmün içində belə Allahın əmrini yerinə yetirmiş və əsla ədalətdən əl çəkməmişdir. Ayədə bildirildiyi kimi, daima: **"Rəbbim ədalətli olmağı əmr etdi. (Əraf surəsi, 29)"** - deyərək hər dövrdə bütün insanlara örnək olmuşdur.

## Demokratiya Allahın əmr etdiyi əxlaqa uyğun yaşamaqla olar

Göründüyü kimi, İslamın təməlində düşüncə, inanc və söz azadlığı durur. Bəzi insanlar demokratiyanın bəşəriyyət tarixinə qədim yunanlardan gəldiyini zənn edir. Halbuki insanlara demokratiyanı öyrədən Allahdır. Hz. Adəmdən (ə.s.) bəri bütün peyğəmbərlər azadlığı, azad düşüncəni, fikirlərə hörməti təmsil ediblər. Demokratiya dedikdə insanların ağlına azadlıq, ədalət, heçkimə təzyiq göstərilməməsi gəlir. İnsanlara hörmət, etibar edilməsi, insanların fikirlərinə görə mühakimə olunmaması kimi bütün anlayışlar din əxlaqında mövcuddur. İnsanlar bunları tarix boyu Allahın nazil etdiyi haqq dinlər vasitəsilə öyrənmiş və ən gözəl nümunələrinə də haqq dinlərin hakim olduğu dövrlərdə şahid olmuşlar.

Düşüncələrinə görə zülm edildyi, müxtəlif ideologiyaya malik olanların əzildiyi, müxtəlif din mənsublarının alçaldıldığı, sənətkarlığın, elmin, memarlığın məhv olduğu, insanların həyat eşqini itirib sanki robota çevrildiyi, kitab yandırma, cinayətlər, qırğınlar, soyqırımlar kimi hadisələrin baş verdiyi dövrlərə baxdıqda isə ya dinsiz, ateist ideologiyaların, ya da din əxlaqını kökündən ayıraraq radikal təfəkkürlə yanlış şərh edənlərin insanlara təsirini görürük.

Allahın haqq dini Allahın əmr etdiyi kimi yaşandıqda insanların həsrətini çəkdiyi həqiqi ədalət, demokratiya, hörmət və sevgi hakim olar. Allahın iznilə çox yaxında demokratiya, qardaşlıq, sevgi, dostluq, sülh və əmin-amanlıq tarixdə tayı-bərabəri olmayan şəkildə bütün dünyaya hakim olacaq, insanlar imanın sevincini, bərəkətini dərindən hiss edəcəklər. Ayələrin işarə etdiyinə əsasən, Peyğəmbərimizin (s.ə.v.) hədislərindən və böyük İslam alimlərinin sözlərindən açıq şəkildə göründüyü kimi, yaşadığımız dövr axırzamandır. Axırzamanın əziyyətli, çətin günləri hz. İsanın (ə.s.) və hz. Mehdinin (ə.s.) vəsitəsilə bu əsrdə sona çatacaq, dünya yeni işıqlı dövrə qədəm qoyacaq. Allahın varlığını və birliyini ən gözəl və hikmətli şəkildə təbliğ etmək və insanlara Qurandakı əsri-səadət dövründəki İslamı tanıtmaq isə yaxın gələcəkdə qovuşacağımız işıqlı günlər üçün zəmin hazırlayır, Allahın bu məqaləni də həmin gözəlliklərə vəsilə etməsini və "insanların Allahın dininə dəstə-dəstə girdiklərini" gördüyümüz günlərin tez gəlməsini Allahdan diləyirik. Allahın bu müjdəsi Quranda belə xəbər verilir:

**Allahın köməyi və zəfər gəldiyi zaman; İnsanların dəstə-dəstə Allahın dininə daxil olduqlarını gördüyün zaman, həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir! (Nəsr surəsi, 1-3)**

## İslam dinində azadlığa əhəmiyyət verilmiş, zorakılıq və təzyiq qadağan edilmişdir

Hər müsəlman Quran əxlaqının tələbinə uyğun olaraq insanlara doğru yol göstərməklə, onları yaxşılığa dəvət edib pislikdən çəkindirməklə məsuldur. Lakin bu əsla bir insanı özü kimi düşünməyə, özü kimi yaşamağa, özü kimi davranmağa, özü kimi geyinməyə məcbur etmək demək deyil. Müsəlman doğrunu göstərir, seçimi qarşısındakı insanın öhdəsinə buraxır. Bu, Allahın Quranda "Dində məcburiyyət (zorakılıq) yoxdur. (Bəqərə surəsi, 256)" ayəsi ilə bildirdiyi hökmdür.

Peyğəmbərimiz (s.ə.v.) Allahın bu əmrinə uyğun olaraq Ərəbistan yarımadasının cənubundakı xristian Nəcran xalqı ilə müqavilə bağlamışdır. Bu, İslam dininin demokratik düşüncə və inanc azadlığının əsl mənbəyi olduğunu açıq şəkildə göstərir. Müqavilənin maddələrindən biri belədir:

***"Nəcranlıların və onlara xidmət edənlərin canları, dinləri, malları, ailələri, kilsələri və sahib olduqları hər şey Allahın və Allahın Peyğəmbərinin himayəsi altına alınacaq". (Majid Khoduri, İslamda Savaş ve Barış, Fener Yayınları, İstanbul, 1998, səh . 209-210)***

Peyğəmbərimizin (s.ə.v.) xristian, yəhudi və müşrik icmalarla imzaladığı Mədinə müqaviləsi də İslamdakı demokratiya anlayışının ən gözəl nümunələrindəndir. Müxtəlif inancalara malik icmalar arasında ədalətin bərqərar olması və hər icmanın mənfəətinin nəzərə alındığı bu müqavilə sayəsində illərlə bir-birinə düşmənçilik edən xalqlar sülhə qovuşmuşdur. Mədinə müqaviləsinin ən nəzərəçarpan xüsusiyyətlərindən biri inanc azadlığını təmin etməsidir. Bu məsələ ilə bağlı maddə belədir:

"Bəni-Əvf yəhudiləri möminlərlə bərabər eyni ümmətdirlər. Yəhudilərin dinləri özlərinə, müsəlmanların dinləri də özlərinədir". (Muhammed Hamidulllah, İslam Müesseselerine Giriş, Düşünce Yayınları, İstanbul, 1981, səh.128)

Mədinə müqaviləsinn 16-cı maddəsində isə: "Bizə tabe olan yəhudilər heç bir haqsızlığa məruz qalmadan və düşmənlərindən kömək almadan yardım və dəstəyimizi qazanacaqlar. (İbn Kesir, El-Bidaye, III/224-225; Hamidullah, El-Vesaik, No:1, səh.39-44; Yrd. Doç. Dr. Orhan Atalay, Doğu-Batı Kaynaklarında Birlikte Yaşama, Gazeteciler ve Yazarlar Vakfı Yayınları, İstanbul, 1999, səh.40)" - deyə bildirilmişdir.

Peyğəmbərimizdən (s.ə.v.) sonra da səhabələri Peyğəmbərimizin (s.ə.v.) müqavilədə qoydurduğu bu hökmə sadiq qalmış və eyni hökmü bərbəri, buddist, brahman və digər bənzər inanclara mənsub insanlara da tətbiq ediblər. (Muhammed Hamidulllah, İslam Müesseselerine Giriş, Düşünce Yayınları, İstanbul, 1981, səh.162-163)



# Bərəkətin qarşısını alan böyük maneə: MAL YIĞMAQ EHTİRASI

Mal yığıb-toplamaq din əxlaqını yaşamayan insanların həyatları boyu məşğul olduğu və onları ən çox qayğılandıran mövzulardan biridir. Dünyada və axirətdə insana fayda verməsə də, malı yığıb-toplamaq niyə bəzi insanlar üçün gözəl əxlaqa sahib olmaqdan daha vacibdir?

## Allahın rizasını və cənnəti qazanmaq üçün mallardan necə istifadə etmək lazımdır?



Allah Quranda insanları dünyaya həvəslə bağlayan mövzuların olduğunu xəbər vermiş və onları bunlarla sınadığını bildirmişdir. Allahın bildirdiyi imtahan mövzularından biri də mal sevgisidir. Şübhəsiz, mal sahibi olmaq Quran əxlaqına uyğundur və hər müsəlmanın qanuni haqqıdır. Ancaq Quranda Allahın xəbər verdiyi təhlükə insanın, əslində, Allaha aid olan bütün mal və mülkə sahiblənərək imkanı olduğu halda, köməyə ehtiyacı olan insanlara kömək etməməsi, bu var-dövləti yığaraq həvəslə dünya həyatına bağlanmasıdır. Quran əxlaqından uzaq olan insanların mala olan sevgisi, ondan istifadə edilməməsi, pulun xərclənməməsi onları dünyaya bağlayan xəstəliyə çevrilir. Çünki artıq bu pul və mala çoxaltma istəyi də əlavə olunur. Bu istək həvəs şəklində həyatlarının sonuna qədər davam edir. Allah bir Quran ayəsində bu həqiqəti belə xəbər verir:

**Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki, qəbirləri ziyarət etdiniz (ölənə qədər bu halınızda davam etdiniz). (Təkasur surəsi, 1–2)**

# MAL YIĞIB-TOPLAYANLAR NƏ İTİRİRLƏR?



## *Böyük ibadətdən məhrum olurlar.*

Malını yığıb xəsislik edərək Allah yolunda xərcləməyənlər böyük bir ibadətdən və Allahın rəhmətindən məhrum olurlar. Çünki Allah qullarını malların zəkat verilməsi mövzusunda **"... Sizin ixtiyarınıza verdiyi maldan (xeyirxah işlərə) sərf edin! Sizdən iman gətirib xərcləyənləri böyük bir mükafat gözləyir (Hədid surəsi, 7)"** ayəsilə xəbərdar edib müjdələyir. Bu səbəbdən, insanın özünü ətrafındakılarla müqayisə edərək: "Məndən daha varlı, mal-mülk sahibi var, mən niyə verim?" - kimi düşünməsi böyük səhv olar. Çünki burada əhəmiyyətli bir sirr var. Ancaq imani yetkinliyə çatmış möminlər bilirlər ki, insan hər ibadəti yalnız özü və axirəti üçün edir. Bu baxımdan, əgər bir insan xəsisliyinə görə müxtəlif bəhanələr uydursa, bu bəhanələr özündən başqa heç kimə zərər verməz. Malını Allah yolunda xərcləməyə ehtiyacı olan şəxsən özüdür. Bu ibadəti yerinə yetirən insan saf niyyətlə verdiyi hər sədəqənin Allah qatında böyük bir qarşılığı olduğunu bilməlidir. Bu səbəbdən, xəsislik edən də ancaq öz əleyhinə xəsislik etmiş olar. Bu həqiqət bir Quran ayəsində belə bildirilmişdir:

**Budur, siz Allah yolunda (malınızdan) xərcləməyə dəvət edilirsiniz. Aranızda isə simiclik edənlər də tapılır. Kim simiclik etsə, ancaq öz əleyhinə etmiş olar. Allah Zəngin, siz isə kasıbsınız..." (Muhəmməd surəsi, 38)**

## *Dünyanı itirərlər*

Malı yığan və varlı kimi görünən insan, əslində, Allahın ona verdiyi əmanətə sahibdir. Çünki kainatdakı mal və mülkün yeganə sahibi Allahdır və bu mülkü dilədiyi insana dilədiyi qədər və dilədiyi müddətə verər. Bu baxımdan, insanın xəsislik etməsi qeyri-məqbuldur. Bundan əlavə, Rəbbimiz diləsə, insanın yığdığı malı tamamilə əlindən alar. Təbii fəlakətlə insanın malının bir anda itirməsi buna nümunədir. Quranda bu mövzuda nümunə göstərilən insan Qarundur. **"...Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi... (Qəsəs surəsi, 76)"** ayəsilə Qarunun var-dövləti Quranda bildirilmişdir. Ancaq xəsisliyi ucbatından **"Biz onu öz evi ilə birlikdə (yerə) batırdıq. Allaha qarşı ona kömək edə biləcək havadarları yox idi. Və özü də özünə kömək edə bilmədi (Qəsəs surəsi, 81)"** ayəsilə Qarunun mal və mülkünün Allahın qüdrəti qarşısında ona heç nə qazandırmadığı və nəticədə, dünyanı itirdiyi xəbər verilmişdir. İman gətirməyərək Allahın verdiyi dünya malında xəsislik edənlər ancaq Allahdan gələn fəlakətlərlə yanıldıqlarının fərqinə vararlar. Bu fəlakətlərə fikir verməyib



# MALI ALLAH YOLUNDA XƏRCLƏYƏNLƏR NƏ QAZANARLAR?

Möminlər ehtiyacı olan insanlara sədəqə verməyin, Allah yolunda zəkat verməyin gözəl nəticələrini həm bu dünyada, həm də axirətdə görərlər. Dünya həyatında qazandıqları bərəkət və Allahın razılığı bunun əvəzidir. Axirətdə isə Rəbbimizin rəhməti və lütfü olaraq cənnəti qazanarlar.

## *Bolluq və bərəkət qazanarlar*

İman gətirməyən insanlar dünyadakı meyarları həmişə səbəb-nəticə prinsipi ilə qiymətləndirdiklərindən mallarını heç kimlə paylaşmadıqlarında, saxlayıb-yığdıqlarında daha dövlətli olacaqlarını zənn edirlər. Ancaq vəziyyət zənn etdikləri kimi deyil. Çünki Allahın Quranda bildirdiyi kimi, Allah yolunda zəkat verən və sədəqə verən möminlərin malları artar, bərəkətli olar. Əslində, möminlərin hədəfi axirət olduğu üçün onlar mallarını verdikləri zaman onun əvəzini bu dünyada gözləməzlər. Ancaq sonsuz lütf sahibi olan Allah saf niyyətlə edilən bu ibadətin əvəzini dünyada bolluq və bərəkət olaraq verər. Quranda Allahın bu mövzu ilə əlaqədar bildirdiyi bir nümunə belədir:

**Mallarını Allahın razılığını qazanmaq və nəfslərini möhkəmləndirmək üçün xərcləyənlərin məsəli təpə üzərindəki bağın məsəlinə bənzəyir ki, ona şiddətli yağış düşdükdən sonra o öz bəhrəsini iki qat verər. Hərgah ona şiddətli yağış düşməzsə, narın yağış da (bəs edər). Allah sizin nə etdiklərinizi görür. (Bəqərə surəsi, 265)**

## *Allahın razılığını və rəhmətini umarlar*

Bütün mülkün Allaha aid olduğunu bilən möminlər malın dünyada ancaq qısa fayda və mənfəət verdiyini, axirətdəki sonsuz həyatın yanında dəyərsiz olduğunu bilirlər. Sahib olduqları malları onlara verənin Allah olduğunu unutmadan, verilən bütün nemətlərə şükür edər

xəsislik etməyə davam etsələr, axirətdəki yurdları Allahın əbədi əzabı ilə dolu olan cəhənnəm olar.

## *Axirəti itirərlər*

İnsan malını yığsa belə, bu maldan faydalanacaq zamanı dünyada yaşayacağı bir neçə on illə məhdudlaşar. Ancaq iman gətirməyən insanlar bu həqiqətin fərqinə vara bilmirlər. Ölümlə dünyanı itirdikləri kimi, axirətdəki sonsuz həyatlarında da malları onlara heç bir fayda verməz, əksinə, dünyada mala həvəslə bağlandıqlarına görə cənnəti itirərlər. Allah Quranda bu həqiqəti belə xəbər vermişdir:

**O şəxs ki, mal-dövlət toplayıb onu sayır və elə güman edir ki, var-dövləti onu əbədi saxlayacaqdır. Xeyr! O, mütləq Hütəməyə atılacaqdır. Sən haradan biləsən ki, Hütəmə nədir? (Bu,) Allahın qaladığı Oddur. (Huməzə surəsi, 2-6)**

və bu malları Allah yolunda xərcləyərək Allaha yaxınlaşmaq üçün bir vasitə kimi istifadə edərlər. Dünyada var-dövlət arxasında qaçmaqdansa, axirətdə onları əsl zənginliyə qovuşduracaq əxlaqı hədəf seçərlər. Belə ki, bu mövzuda bizim üçün ən gözəl nümunə hz. Süleymanın rəftarıdır. Böyük var-dövlətə və mülkə sahib olan hz. Süleyman bu zənginliyi nə məqsədlə istədiyini: "**...Mən mal sevgisini Rəbbimin zikrindən dolayı sevirəm… (Sad surəsi, 32)"** - sözləri ilə ifadə etmiş və malını Allah yolunda din əxlaqının təbliğ edilməsi üçün istifadə etmişdir.

## *Cənnəti qazanarlar*

Allaha iman gətirən və keçici dünyanın bərbəzəyinə lazımi qədərdən çox əhəmiyyət verməyən, hər şeyin yalnız Allahdan gəldiyini bilən və bu səbəblə mallarını Allah yolunda xərcləyən möminlər Allahın rəhmətini və cənnətini uma bilərlər. Qısa sürən dünya həyatı yerinə sonsuza qədər sürəcək axirət həyatını seçdikləri üçün, əslində, dövlətli olanlar da onlardır. Bütün malını Allah yolunda xərcləyən, dünya həyatı əvəzində axirəti satın alan möminlər keçici dünyanın yerinə sonsuz zənginliyi və qurtuluşu seçərlər. Bir Quran ayəsində möminləri Allah qatında gözləyən gözəl son belə xəbər verilmişdir:

**Mallarını Allah yolunda xərcləyənlərin və xərclədiklərinin ardından minnət qoymayan və əziyyət verməyənlərin Rəbbi yanında mükafatları vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 262)**





# ŞƏKƏR YEDİYİNİZ ZAMAN BƏDƏNİNİZDƏ ÇALIŞAN NƏHƏNG FABRİKDƏN XƏBƏRİNİZ VARMI?

Əgər ehtiyacınızdan bir az artıq şəkərli qida yeyirsinizsə, bədəninizdəki sistem qandakı şəkər nisbətinin yüksəlməsinin qarşısını almaq üçün işə başlayır:

1- Əvvəlcə, mədəaltı vəzi hüceyrələri qanın içində olan yüzlərlə molekulların arasından şəkər molekullarını tapır və digərlərindən ayırır. Həmçinin bu molekulların sayının az və ya çox olduğuna qərar verir, sanki şəkər molekullarını sayır. Gözü, beyni, əlləri olmayan, gözlə görünməyəcək qədər kiçik olan hüceyrələrin qanın içindəki şəkər molekullarının sayı haqqında məlumatı olması düşündürücü mövzudur.

2- Əgər mədəaltı vəzi hüceyrələri qanda normadan çox şəkər olduğunu təyin edərsə, normadan artıq olan şəkərin yığılmasına qərar verir. Ancaq bu işi özləri deyil, özlərindən çox uzaqda olan başqa hüceyrələr yerinə yetirir.

3- Uzaqdakı bu hüceyrələr onlara əmr gəlməyənədək şəkəri yığmırlar. Mədəaltı vəzi hüceyrələri bu hüceyrələrə "şəkər yığmağa başlayın" əmrini daşıyan hormon göndərir. Mədəaltı vəzi hüceyrələri ilk yaradıldıqları andan etibarən DNT-lərində insulin adlı bu hormonun düsturu qeyd olunur.

4- Mədəaltı vəzi hüceyrələrindəki xüsusi fermentlər (işçi zülallar) bu düsturu oxuyur. Oxunan düstura görə insulin sintez edilir. Bu sintezdə yüzlərlə fərqli ferment çalışır.

5- Sintez olunan insulin hormonu ən etibarlı və ən sürətli nəqliyyat şəbəkəsi olan qan yolu ilə hədəfdəki hüceyrələrə çatdırılır.



6- İnsulin hormonunda yazılmış “şəkər yığın” əmrini oxuyan digər hüceyrələr bu əmrə qeyd-şərtsiz itaət edirlər. Şəkər molekullarının hüceyrələrin içinə keçməsini təmin edən qapılar açılır.

7- Ancaq bu qapılar təsadüfən açılmır. Anbar hüceyrələri qandakı yüzlərlə fərqli molekul arasından yalnız şəkər molekullarını tanıyır, saxlayır və öz içlərinə buraxır.

8- Hüceyrələr özlərinə verilən əmrə heç vaxt itaətsizlik etmir. Bu əmri yanlış anlamır, yanlış maddələri tutmur, lazım olandan artıq şəkər yığmırlar. Ciddi intizam və fədakarlıqla çalışırlar.

Beləliklə, çox şirin çay içdiyiniz zaman bu fövqəladə sistem işə başlayır və artıq şəkəri bədəninizdə saxlayır. Əgər bu sistem fəaliyyət göstərməsə, o zaman qanınızdakı şəkər sürətlə yüksələr və komaya düşüb ölərdiniz.

Bu, o qədər mükəmməl bir sistemdir ki, lazım gəldiyində əksinə də fəaliyyət göstərə bilir. Əgər qandakı şəkər normadan az olsa, bu zaman mədəaltı vəzi hüceyrələri tamamilə fərqli bir hormon - “qlükoqon”u sintez edir. Qlükoqon şəkər depolayan hüceyrələrə bu dəfə “şəkəri qana qarışdırın” əmrini verir. Bu əmrə də itaət edən hüceyrələr yığdıqları şəkəri geri qaytarır.

Necə olur ki, beyinə, sinir sisteminə, göz və qulağa sahib olmayan hüceyrələr bu cür böyük hesablamaları və işləri qüsursuz şəkildə bacarırlar? Zülalların və yağ molekullarının yan-yana gəlməsilə yaranan bu şüursuz varlıqlar necə olur ki, insanların belə edə bilməyəcəkləri qədər böyük işlər görə bilirlər? Şüursuz molekulların göstərdikləri bu böyük şüurun mənbəyi nədir?…

Əlbəttə, bu hadisələr bizlərə bütün kainata və bütün canlılara hakim olan Allahın varlığını və qüdrətini göstərir. Quranda Allahın hökmranlığı belə açıqlanır:

**Göylərdə və yerdə böyüklük yalnız Ona məxsusdur. O, Qüdrətlidir, Müdrikdir. (Casiyə surəsi, 37)**



# Allah hər yerdədir



Bəzi insanlar özlərini, maddəni, ətraflarında gördükləri dünyanı mütləq varlıq hesab edirlər. Allahı isə (Allahı tənzih edirik) bu mütləq maddəni əhatə edən xəyal kimi düşünür və ya Allahı gözləri ilə görmədikləri üçün: "Hər halda, Allah bizim görmədiyimiz bir yerdə, kosmosda və ya göydə uzaq yerdədir", - deyirlər (Allahı tənzih edirik). Bu fikirlərin hamısı yanlışdır.

Çünki Allah sadəcə göydə deyil, hər yerdədir. Tək mütləq varlıq olan Allah bütün kainatı, insanları, yeri, göyü, hər yeri əhatə etmişdir və Allah bütün kainatda təcəlli edir. Hədislərdə rəvayət edildiyinə görə, Peyğəmbərimiz (s.ə.v.) Allahın göydə olduğunu söyləyən şəxsə doğru dediyini bildirmişdir. Ancaq bu rəvayət Allahın hər yerdə olduğu faktına zidd deyil. Çünki dünyada sizin olduğunuz yerdəki bir nəfər əllərini göyə qaldıraraq Allaha dua etsə və Allahın göydə olduğunu düşünsə, cənub qütbündə başqa bir insan eyni şəkildə Allaha üz tutsa, şimal qütbündə də bir insan əllərini göyə qaldırsa, Yaponiyada, Amerikada, Ekvadorda bir insan əllərini göyə qaldıraraq Allaha üz tutsa, bu təqdirdə, hər hansı məkandan bəhs etmək mümkün deyil. Kainatın və kosmosun müxtəlif yerlərindəki cinlər, mələklər, şeytanlar da üzlərini göyə tutub dua etsələr, hər hansı sabit göydən və ya istiqamətdən bəhs etmək mümkün olmaz, çünki bu vəziyyət bütün kainata aid olar.

Bunu da unutmaq olmaz ki, Allah zamandan və məkandan asılı deyil. Allahın Zatı başqadır. Allahın təcəlliləri isə hər yerdədir. Bir insan bir otağa girib: "Burada Allah yoxdur", - desə, Allahı inkar etmiş olar. Allahın təcəlliləri, o otaq da daxil olmaqla, hər yerdədir. Siz haraya çevrilsəniz, Allahın təcəllisi oradadır. Allahın hər yeri əhatə etdiyi, bizə şah

damarımızdan yaxın olduğu, üzümüzü haraya çevirsək, Allahın üzünü görəcəyimiz bir çox Quran ayəsi ilə bildirilmişdir. Allah "Bəqərə" surəsinin 255-ci ayəsində: "... Onun Kürsüsü göyləri və yeri əhatə edir...", - deyə bildirir. "Hud" surəsinn 92-ci ayəsində isə: "... Şübhəsiz ki, Rəbbim sizin nə etdiklərinizi əhatə edir", - deyilərək Allahın insanları da, əməllərini də əhatə etdiyi bildirilir.

Quranda da açıq şəkildə bildirildiyi kimi, Allah təkcə göydə deyil. Allah hər yeri əhatə etmişdir. Bu məlumat bizə Quran vasitəsilə bildirilir. Maddənin ardındakı sirr ilə bağlı həqiqətin izah edilməsi isə insanların bu ayələri daha yaxşı anlamasına və qavramasına səbəb olar. Maddənin mütləq varlıq olmadığını anlayan insanlar Allahın hər an hər yerdə olduğunu, hər an onları gördüyünü və eşitdiyini, hər şeyə şahid olduğunu və onlara şah damarlarından daha yaxın olduğunu, hər dua edənin duasını eşitdiyini dərk edər.

## Mövzu ilə bağlı Quran ayələri

**Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah (hər şeyi) Əhatəedəndir, Biləndir. (Bəqərə surəsi, 115)**

**Allahdan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O, nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur! (Bəqərə surəsi, 255)**

**Bir zaman Biz sənə: "Rəbbin insanları əhatə etmişdir", – demişdik. Sənə göstərdiyimiz mənzərəni və Quranda lənətlənmiş ağacı insanlar üçün yalnız bir imtahan etdik. Biz onları qorxuduruq, bu isə onlarda ancaq böyük bir azğınlığı daha da artırır. (İsra surəsi, 60)**

**Göylərdə və yerdə olanların hamısı ər-Rəhmanın hüzuruna ancaq bir qul kimi gələcək. (Allah) onları hesablamış və bir-bir saymışdır. (Məryəm surəsi, 93-94)**

**Hələ ələ keçirə bilmədiyiniz başqa qənimətlər də (vardır). Allah onları əhatə etmişdir. Allah hər şeyə qadirdir. (Fəth surəsi, 21)**

**Allah (onları) arxadan əhatə etmişdir. (Buruc surəsi, 20)**

**İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. (Qaf surəsi, 16)**

**Sizə bir uğur nəsib olsa, (bu) onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbir etsəniz və (Allahdan) qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların nə etdiklərini əhatə edir. (Ali-İmran surəsi, 120)**

**Onlar insanlardan gizlətsələr də, Allahdan gizlədə bilməzlər. Halbuki onlar (Allahın) razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir. (Nisa surəsi, 108)**

**Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah hər şeyi əhatə edir. (Nisa surəsi, 126)**

**Yurdlarından təkəbbürlə, özlərini camaata göstərmək üçün çıxan və (insanları) Allah yolundan sapdıran kəslər kimi olmayın. Allah onların əməllərini hər tərəfdən ehtiva etmişdir. (Ənfal surəsi, 47)**

**O dedi: "Ey qövmüm! Məgər mənim qəbiləm sizin üçün Allahdan da əzizdir? Siz Onu saymayıb unutdunuz. Şübhəsiz ki, Rəbbim sizin nə etdiklərinizi əhatə edir. (Hud surəsi, 92)**

**Doğrudan da, onlar öz Rəbbi ilə qarşılaşacaqlarına şübhə edirlər. Həqiqətən, O, hər şeyi əhatə edir. (Fussilət surəsi, 54)**

# İNSANLAR NƏ ÜÇÜN HAQSIZLIĞA MƏRUZ QALDIQLARINI DÜŞÜNÜRLƏR?

Adətən, insanların çoxunda haqsızlığa məruz qaldıqlarına dair psixologiya formalaşır. Bu, bəzən baş verən gündəlik hadisələrdə, bəzən də keçmişdə baş vermiş hadisənin insanın yadına düşərək onu daxilən narahat etməsi ilə üzə çıxır. Hər iki halda, insana həm fiziki, həm də mənəvi cəhətdən zərər verir. Bu hissə qapılan insan şeytanın hər cür tələsinə düşə bilər. Bu fikirdən çəkinməsə, bu hal insanı Allahın razı olmadığı düşüncə və davranışlara təşviq edən şeytani məntiqə çevrilər.

**İnsanlara haqsızlığa məruz qaldıqlarını düşündürən səbəblər nələrdir?**

Bu səbəblər çox mürəkkəb deyil. İnsanların böyük əksəriyyəti bu psixologiyaya gətirib çıxaran xüsusiyyətlərin əxlaqi zəifliklərindən irəli gəldiyini anlamaq istəmir. Halbuki bu həqiqətdən qaçmağın insana heç bir faydası yoxdur. Bunun üçün ön mühakimə etmədən vəziyyəti dəyərləndirib həll yolunu tapmaq lazımdır. Bu təqdirdə, insan qısa müddətdə keçirdiyi sıxıntıdan xilas olar. İndi isə bu səbəbləri təhlil edək:

## Eqoizm

İnsanı haqsızlığa məruz qaldığını düşünməyə vadar edən ən mühüm səbəblərdən biri eqoizmdir. Eqoizm insanın özünü bəyənməsi və hər kəsdən üstün görməsi mənasını verir. Özünün digərlərindən daha üstün olduğunu düşünən şəxs eqoizm xəstəliyinə tutulmuşdur. Eqoizm bir xəstəlikdir və ilk başladığı zaman qarşısı alınmalıdır. Çünki inkişaf etdiyi zaman səmimi şəkildə Allaha sığınmadıqca bu xəstəlikdən xilas olmaq çətinləşir.

Bu xəstəliyə tutulan bir insan nəinki ətrafındakıların özündən üstün olduğunu qəbul etmir, hətta onlarla eyni səviyyədə belə olmadığına inanır. Bu səbəbdən, hər şeyin ən yaxşısına özünün sahib olmalı olduğunu düşünür. Bu cür insanın daima ətrafındakıların səhvlərini axtarmasının, qüsurlarını tapdıqda sevinməsinin də səbəbi budur. Əgər özündən daha aşağı səviyyəli hesab etdiyi insana mövqe, var-dövlət və ya daha üstün vəzifə verilsə, qısqanclıq hissinə qapılaraq bütün bunlara, əslində, özünün layiq olduğunu düşünər və haqsızlığa məruz qaldığını gizli və açıq şəkildə ifadə edər. İnsanların əksəriyyəti haqsızlığa məruz qaldığını qəlbindəki qısqanclıq hissi ilə biruzə verir. Bu yanlış davranış insanın baxışlarına bəzən donuq ifadə, hərəkətlərinə isə laqeyd görünüşlə əks olunur. Sözügedən şəxslər özlərini üstün olduqlarına inandırır, ətrafdakı insanlara haqsızlığa məruz qaldıqlarından şikayət edirlər. Bu isə həmin əxlaqi qüsurun göstəricilərindəndir.

Halbuki Allah Quranda **"... Biz istədiyimiz kəsi dərəcə-dərəcə yüksəldirik. Hər bilik sahibindən də üstün bir bilən vardır. (Yusuf surəsi, 76)"** ayəsi ilə insanların üstünlüklərinin Onun təqdirilə, olduğunu bildirmişdir. Dolayısılə, insan ətrafındakı insanların həmişə özündən daha üstün əxlaqa, daha dərin biliyə sahib olacağını nəzərə alaraq təvazökar davranmalıdır.

## Hər şeyin Allahın nəzarətində olduğunun unudulması

Kainatdakı hər şey sonsuz ağıl və elm sahibi Allahın müəyyən etdiyi qədərə (taleyə) tabedir. "Ol" sözü ilə hər şeyi bir anda yaradan Allah təkcə insanların deyil, bütün varlıqların da qədərini müəyyən etmişdir. Səmimi iman gətirmiş insan bu mütləq həqiqəti bilərək qədərə könüldən təslim olaraq yaşayır.

Hər hadisənin bir qədər üzrə və Allahın əmrilə yaradıldığını unudan və ya buna diqqət yetirməyən insan özünə zülm edər. Haqsızlığa məruz qaldığını, haqqının tapdandığını və ya səhvən təqsirləndirildiyini düşünən insan bu həqiqəti qəbul etməyərək yanılır. Halbuki istər iman gətirib qədərə tabe olsun, istərsə də təslim olmasın, hər iş Allahın hərkəs üçün tək-tək müəyyən etdiyi qədər üzrə və Allahın nəzarəti altında baş verir. Ona görə, istədiyini əldə edə bilməyən və ya etmədiyi bir şey üçün günahlandırılan bir insan bütün bunları Allahın müəyyən etdiyi qədərdə olduğu üçün yaşayır. Bu təqdirdə qədəri unudaraq haqsızlığa uğradığını düşünmək böyük yanılmadır. Bu inanca malik olan şəxs şeytanın təşviqi ilə axirətdə əbədi cəhənnəm əzabı çəkə bilər.

## Allahın insanları imtahan etdiyinin unudulması

**"Beləliklə, Biz onların bir qismini digəri ilə sınadıq ki, onlar desinlər: "Məgər Allah bizim aramızdan ancaq bunlara lütf göstərmişdir?"..." (Ənam surəsi, 53)**

Yuxarıdakı ayədə bildirildiyi kimi, Allah insanları müxtəlif hadisələrlə sınayır. Bəzi insanlara daha yüksək dərəcələr, mövqe, mal-mülk, var-dövlət verilə bilər, bu insanlar işlərində daha tez yüksələ bilərlər. Buna bənzər bir çox misal çəkə bilərik. Hamısı tamamilə Allahın təqdiridir. Allah yaratdığı hadisələrlə ayədə bildirildiyi kimi, insanları imtahan edir.



Haqsızlığa uğradığını düşünüb bədbinliyə qapılan və hadisələrin Allahın təqdiri olduğunu unudan insan bunu dərk edib düşdüyü vəziyyətdən çıxmasa, imtahandan keçə bilməz. Başına gələn hər şeyin Allahın razılığını qazanmaq üçün imtahan olduğunu düşünən, səbir edən və təvəkkül edən insan, əlbəttə, dünyada və axirətdə qazanclı olar.

## Nəticə: hər hadisə Allahın istəyi ilə baş verir

Həqiqətən, iman gətirən, Allahın qədrini bilən, gücünü qavrayan insan haqsızlığa məruz qaldığını düşünməz. Belə ki, peyğəmbərlərin və tarix boyu yaşamış bütün möminlərin Allah qorxuları, Allaha olan dərin sevgiləri, könüldən bağlılıqları və sədaqətləri böyükdür. Dolayısilə, onlara iftira atsalar, onları həbs etsələr və ya etmədikləri şeylərdə təqsirləndirsələr belə, Allahın onlar üçün ən gözəlini, ən xeyirlisini yaratdığını, səbirlə gözlədikdə daima ən ədalətli, ən mərhəmətli şəkildə qarşılığını alacaqlarını bilirlər. Allah Quranda üstün ədaləti ilə insanları ən kiçik haqsızlığa belə məruz qoymayacağını **"Həqiqətən, Allah zərrə qədər də olsa zülm etməz... (Nisa surəsi, 40)"** ayəsi ilə bildirmişdir. Mömin Rəbbimizin ədalətinin dünyada və axirətdə təcəlli edəcəyini bilərək rahat və xoşbəxt yaşayar.

## Mömin Allahın ədalətinə əsla şübhə etməz

Quranda peyğəmbərlərin və onlara tabe olan möminlərin din əxlaqını təbliğ edərkən inkarçıların iftiralarına məruz qaldığı, təqsirləri olmadığı halda, həbs olunduğu, yurdlarından sürgün edildiyi və hətta öldürüldüyü xəbər verilir. Quranda bu mövzu ilə bağlı bir çox nümunə var. Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v.) və səhabələrin həyatı bu böyük mübarizənin nümunələrindəndir. Məkkə müşriklərini bir və tək olan Allaha iman gətirməyə dəvət edən Peyğəmbərimiz (s.ə.v.) müşriklər tərəfindən ölümlə hədələnmiş, müşriklərin iftiralarına məruz qalmış və bütün bu təzyiqlər nəticəsində yanındakı möminlərlə birlikdə Mədinəyə hicrət etmişdir. Hz. Yusuf də təqsiri olmadığı halda, uzun illər həbsdə qalmışdır. Ancaq peyğəmbərlər və onlarla birlikdə olan möminlər bütün bu hadisələri yaradanın Allah olduğunu bildikləri üçün Onun ədalətinin təcəlli edəcəyinə əsla şübhə etməmiş, bütün təqva sahibi möminlərə nümunə olaraq təvəkkül, sədaqət və səbirlə bu imtahandan keçmişlər.

İnsanların həyatı boyu etdiyi bütün hərəkətlər mütləq Allahın ədalətinə görə dəyərləndirilməlidir. Əlbəttə, zülm edənlərin zülmü əvəzsiz qalmayacağını, bircə yaxşı sözün belə mükafatı veriləcəyini Allah Quranda bizə xəbər verir. Dünya həyatında baş verən hər hadisə Allahın iznilə axirətdə Rəbbimizin sonsuz ədaləti ilə qarşılığını görəcək. Quranda bu həqiqət insanlara belə xəbər verilmişdir:

**Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. (Görülmüş iş) bir xardal dənəsi mislində olsa belə, onu gətirib (tərəziyə) qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. (Ənbiya surəsi, 47)**

Allahı bütün üstün sifətləri ilə tanıyan, Ona səmimi iman gətirən insan Allahın daima onu yardımı, sevgisi və ehsanı ilə dəstəkləyəcəyinə əmindir. Buna görə də Allahın ədalətinə güvənir. Çünki Allah Quranda insanları haqsızlığa məruz qoymayacağını bildirmişdir:

**Onların qəlbində xəstəlikmi var? Yoxsa onlar şübhəyəmi düşüblər? Ya da Allahın və Onun Elçisinin onlara haqsızlıq edəcəklərindən qorxurlar? Xeyr, məhz onlar zalımdırlar. (Nur surəsi, 50)**

**“... Sizə xurma çərdəyindəki tel qədər belə haqsızlıq edilməz”. (Nisa surəsi, 77)**



# Müasir elmin islami mənşəyi

14 əsr əvvəl Allah bütün insanlara yol göstərici olaraq Quranı endirdiyində ərəblər batil inanclara sahib idilər. Quranın nuru sayəsində batil inanclardan xilas oldular və ağıllı metodlardan istifadə edərək inkişaf etməyə başladılar. İslamla birlikdə mədəniyyəti öyrəndilər. Yalnız ərəblər deyil, İslamı qəbul edən bütün cəmiyyətlər cahiliyyə dövrünün qaranlığından sıyrılıb çıxdılar. Bunun nəticəsində İslamın yayıldığı ilk dövrlərdə dünya tarixində çox sürətli inkişaf baş verdi. Əvvəllər bir şəhəri belə idarə edə bilməyən ərəblər Afrikadan Orta Asiyaya qədər uzanan imperiya qurdular.

Bu imperiyanın əsas fərqləndirici xüsusiyyətlərindən biri tarixdə o günə qədər misli görünməmiş elmi inkişafa nail olması idi. Avropanın orta əsrlər qaranlığını yaşadığı bir dövrdə İslam dünyası möhtəşəm elmi irs meydana gətirdi. Tibb, cəbr, həndəsə elmləri ilk dəfə sistematik şəkildə İslam mədəniyyətinin tərkibində inkişaf etdi. İslam aləmindəki böyük dini təhsil mərkəzləri, həmçinin elmi inkişafın da mərkəzləri idi. Bu cür elmi mərkəzlər, minlərlə məktəb-məscid Abbasilər dövründə (750-1258) tikilməyə başladı. X əsrdə Bağdadda 300-ə yaxın mədrəsə var idi. XIV əsr başlanğıcında təkcə İsgəndəriyyədə 12 min şagird təhsil alırdı. Mədrəsələrdə çoxu qadın müəllimlər dərs keçirdi. Onların bir hissəsi bütün gün, digər hissəsi isə yarım günlük müəllimlik edirdi. Şagirdlər arasında varlı-kasıb ayrı-seçkiliyi edilmədən təhsil verilirdi. Kitabxanaların zənginləşməsinə əhəmiyyət verilir və xarici dilli mənbələr təmin edilirdi.

Ən məşhur mədrəsələr Bağdaddakı Beytül-hikmət (820) və Qahirədəki Darül-elm (998) idi. Bu gün də varlığını davam etdirən əl-Əzhər (969) kimi universitetlər Avropadakı bənzərlərindən daha əvvəl qurulub. O dövrdə İslam dünyası dünyadakı ilk universitetləri, hətta ilk xəstəxanaları tikmişdi.

## Yaxın Şərqdə elmi intibah

Bu həqiqətlər zehinlərində fərqli İslam portreti yaradan insanlara təəccüblü gələ bilər. Bu isə İslam mədəniyyətinin tarixini bilməməkdən qaynaqlanır. Bu məlumatsızlıqdan və ön mühakimələrdən xilas olanlar isə İslamın elm dünyasına liderliyini qəbul edirlər. Bunun nümunələrindən biri məşhur televiziya kanalı PBS tərəfindən çəkilən "İnanc imperiyası: İslam" adlı sənədli filmidir. Sənədli filmin şərhçisi bunları deyir:

*"Tarixin axışı içində İslam mədəniyyəti bəşəriyyətin ən böyük müvəffəqiyyətlərindən biri olmuşdur... Qərb üçün İslam tarixi yanlış anlama və qorxu pərdəsinin arxasında*

*qaraldılmışdır. Buna baxmayaraq, İslamın gizli tarixi heyrətamiz şəkildə Qərb mədəniyyəti ilə birlikdə inşa edilmişdir. Leonardo da Vinçinin anadan olmasından 600 il əvvəl İntibahın toxumlarını əkən müsəlman elm adamları idi. Xəstəlikləri müalicə etmə üsullarımızdan, saymaqda istifadə etdiyimiz rəqəmlərə qədər dünyadakı sivilizasiyalar İslam mədəniyyəti tərəfindən qəlibə salınmışdır".* (Jonathan Grupper (series writer), İslam: Empire of Faith, A Documentary by Gardner Films, in association with PBS, 2001)

Liberal Amerika mediasının tanınmış şəxslərindən biri olan Corc Rafael internetdəki məqaləsində belə yazır:

*"Qərb cəbrdən, qəhvədən tutmuş gitaraya, optikadan universitetə qədər bir çox şeyi Hilalın insanlarına borcludur. Min il əvvəl Qərb zülmətə büründüyü halda, İslam qızıl əsrini yaşayırdı. London barbar bataqlığında yaşayarkən müsəlman şəhəri Kordobanın küçələri işıl-işıl parlayırdı, Yorkdan Vyanaya qədər planlı şəkildə qırğınlar törədildiyi halda, (Əndəlüs rəhbərliyindəki) Toledoda dini dözümlülük vardı. Klassik mirasımızın mühafizəçiləri olan ərəblər bizim intibahımızın banisi idilər. Onların təsiri nə qədər uzaq görünsə də, daim bizimlə birlikdə olmuşdur. Gah bir fincan isti qəhvə ilə, gah da kompyuter proqramlarındakı loqarifmlə".* (George Rafael "A is for Arabs", Jan. 8, 2002)

## İslamın açıq fikirliliyi

Müsəlmanların elmin inkişafına liderlik etmələrinə səbəb Quranın malik olduğu üstün hikmətlərdir. Bu hikmətlər insanlara təbiəti araşdırmağa və onlardakı incə nizamı anlamağa yol göstərir. Allahın Quranda insanlara bildirdiyi digər bir hikmət isə fərdlər və cəmiyyətlər arasındakı maneələri aradan qaldıran xoş münasibət və açıq fikirlilikdir. Bu dünyagörüşü də müsəlmanların bütün mədəni və ictimai maneələri aşaraq dünyaya daha ağıllı baxmalarını təmin edir. Allah Quranda bunu bu şəkildə bildirir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

İslam elmlərinin inkişafında bu açıq fikirliliyin önəmli rolu var. Dövrümüzün ən böyük İslam alimlərindən biri olan Seyid Hüseyn Nəsrə görə: "İslam elmi insanlıq tarixində, həqiqətən, beynəlxalq quruluşda olan ilk elmdir". (Quoted in Weiss and Green, p. 187)

Onu da əlavə etmək lazımdır

ki, müsəlmanlar yalnız digər sivilizasiyalarla əməkdaşlıq etməklə kifayətlənməmiş, eyni zamanda yüksək xüsusiyyətlər daşıyan Quran əxlaqını da bütün insanlar arasında tanıtmış və izah etmişlər. Elmi sahələrdə saysız inkişafa səbəb olan müsəlman elm adamlarının ortaya atdığı bir çox nəzəriyyə eyni dövrdəki bir çox sivilizasiyanın da ilham qaynağı olmuşdur. Yaxın Şərqin tarixi üzrə tanınmış mütəxəssis olan prof. dr. Bernard Levis bunu belə açıqlayır:

***"İslam elmlərinin orta əsrlərdəki müvəffəqiyyəti nə yunan təlimini mühafizə etməklə məhdudlaşdırıla bilər, nə də daha qədim və daha uzaq olan şərq külliyyatına təmas etməklə. Orta əsrlər İslam alimlərinin müasir dünyaya verdiyi bu miras İslam alimlərinin səyi ilə zənginləşdirilmişdir. Yunan elmi nəzəriyyəyə əlverişli olduğu halda, Yaxın Şərqin orta əsrlər elmi tibb, kimya, astronomiya və əkinçilik kimi daha praktik sahələrdə lider idi".*** (Bernard Lewis, The Middle East, 1998, p. 266)

Bütün bu tarixi həqiqətlər İslamın peyğəmbərimiz hz. Muhəmmədə (s.ə.v.) vəhy edildiyi andan etibarən bəşəriyyəti doğruya və gözəlliyə aparan ən parlaq işıq olduğunu göstərir. Quran əxlaqı ilə şərəflənən müsəlmanlar getdikləri hər yerə ağıl, elm, sənət, estetika, təmizlik və rifah aparmışlar. Avropa qatı fanatizm və barbarlıq içində olarkən, İslam dünyası dünyanın ən müasir sivilizasiyası olmuşdur. Sonradan inkişaf edən Avropa mədəniyyətinin əsasında da İslam dünyasından öyrəndikləri bütün bu dəyərlərin böyük rolu olmuşdur.

Dövrümüzün müsəlmanları heç vaxt unutmamalıdırlar ki, onlar müqəddəs, şanlı və şərəfli bir inancın nümayəndələridirlər.

Bu inancın qaynağı olan Qurani-kərim isə bəşəriyyəti qaranlıqlardan nura çıxaran ən böyük yol göstəricidir.

**Əlif. Ləm. Ra. (Bu) insanları öz Rəbbinin iznilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq (Allahın) yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır. (İbrahim surəsi, 1)**

# İncə Düşüncəli Olmaq

Quran əxlaqı möminlərin öz haqlarından keçərək digər mömin bacı-qardaşlarını özlərindən üstün tutmağı tələb edir. Həqiqi iman, təslimiyyət və qardaşlıq budur. Möminin digər möminləri özündən üstün tutması təkcə onları daha çox maddi imkanla təmin etməsi ilə məhdudlaşmır. Mömin digər möminlərin ehtiyaclarını da özündən çox düşünməlidir.

Kobud, düşüncəsiz davranışlar insanın imanının kamilləşmədiyini göstərir. Etdiyi hərəkətin digər möminlərə necə təsir edəcəyini düşünməyən, ancaq öz istəklərini və öz bildiyini edən bir insan Allahın tərif etdiyi mömin modelindən uzaqdır. Quranda incə düşüncəyə və düşüncəsizliyə dair nümunələr verilir. İncə düşüncənin əhəmiyyəti bir ayədə belə vurğulanır:

**Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə verilmədən girib onun bişməsini gözləməyin. Lakin dəvət olunduqda girin və yemək yedikdən sonra bir-birinizlə söhbətə dalmadan dağılışın. Çünki bu, Peyğəmbəri narahat edir və o, sizdən utanır. Allah isə sözün açığını (sizə bəyan etməkdən) utanmır... (Əhzab surəsi, 53)**

Quran əxlaqı ilə tərbiyə almış insanlar çox nəzakətli və incə düşüncəlidirlər. Bu, öz nəfslərindən əvvəl möminlərin nəfsini düşünən, özü çox sevdiyi yeməyi yoxsula, yetimə və əsirə yedirən möminlərin təbii xüsusiyyətləridir.

## İncə düşüncəli olmaq eyni zamanda cənnət əhlinin xüsusiyyətidir

İncə düşüncəyə dair nümunələri şəraitə və mühitə görə sadalamaq olar. Bir işlə məşğul olan mömin bacı və ya qardaşını narahat etməmək, əgər dua edirsə, sakitliyi təmin etmək, o istəmədən ona qulluq etmək, rahatlığını təmin etmək, ehtiyacı olub-olmadığını öyrənmək bunlara misaldır. Lakin unutmaq olmaz ki, bunlar ümumi izahlardır. Hər mühitə və şərtə görə bu nümunələri artırmaq olar.



# XOŞBƏXTLİYİN SİRRİ



İman gətirən insan bu dünyanın həqiqi mahiyyətini, öz yaradılış məqsədini, Allahın onu sınadığını və Ona qulluq etməklə məsul olduğunu dərk edir. Ona görə, həyatı boyu Allahın rizasını, rəhmətini qazanmağa çalışır və möminlərin əsl yurdu olan cənnətə daxil olmaq üçün cəhd edir.

Xoşbəxtlik isə Allahın saleh qullarına səmimi imanlarına və bağlılıqlarına görə həm dünyada, həm də cənnətdə verdiyi çox böyük nemətdir. Möminlərin xoşbəxtliyinin və rahatlığının mənbəyi isə sadəcə imanlarıdır. Allah səmimi imanlarının əvəzində onların qəlbinə xoşbəxtlik və rahatlıq vermişdir. Möminlər şəraitdən asılı olaraq xoşbəxt olmurlar, bu, Allaha və axirətə iman gətirməyin qazandırdığı mənəvi xoşbəxtlikdir. Bu anlayışdan uzaq yaşayan insanlar isə iman gətirmədikcə həqiqi xoşbəxtlikdən uzaq qalırlar. Sonsuz güc sahibi Allah din əxlaqına uyğun yaşamadıqlarına görə, bu insanların qəlblərinə sıxıntı verəcəyini bir Quran ayəsində belə bildirmişdir:

**Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə rəzalətə salar. (Ənam surəsi, 125)**

## Möminləri xoşbəxt edən nədir?

İman gətirməyən insanlar axirət həyatının çox yaxın olduğunu və bir gün axirətə köçəcəklərini düşünmədən yaşayırlar. Ölümü, ölümdən sonra nələrlə qarşılaşacaqlarını, həyatları boyu bütün etdiklərinə görə Allaha cavab verəcəklərini, nəticədə, cənnət və ya cəhənnəmdə əbədi qalacaqlarını ağıllarına gətirmir və ya gətirmək istəmirlər. Bu insanları bu cür laqeyd davranmağa təhrik edən ən mühüm amil isə sonsuz axirət həyatını özlərindən uzaq görmələridir. Bu cür düşünən insanlar özləri üçün yaşayır, ona görə, heç düşünmədikləri və ya düşünsələr belə, baş verəcəyini ehtimal etmədikləri bir şey üçün həyatlarını və qurduqları planları fəda etmək istəmirlər. Bunu özləri üçün böyük itki hesab edirlər. Böyük səhv edərək dünya həyatını və dünyəvi mənfəətləri axirətdə qazanacaqlarına nisbətən daha yaxın və asan görürlər. Ona görə, dünyaya çox bağlanıb axirətə əhəmiyyət vermirlər. Bütün istəklərinə qısa dünya həyatında nail olmağa çalışırlar. Allahın rizası üçün olan davranışlardan, din əxlaqına uyğun yaşamaqdan çəkinir, dünyəvi arzularını həyata keçirmək üçün bütün vaxtlarını sərf edirlər.

Dünya həyatına olan həvəsləri insanları bədbəxt edir. Quran əxlaqından uzaq yaşayan bu insanların dünya həyatında xoşbəxt olmayacaqlarını, daima sıxıntı içində yaşayacaqlarını Allah Quranda belə bildirir:

**Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik. (Taha surəsi, 124)**

İman gətirməyən insanları bədbəxt edən, onlara narahatlıq verən digər məsələ isə qarşılaşdıqları çətinlik və sıxıntı anlarıdır. Bu insanların bədbəxtliyi tamamilə dünyəvi mənfəət və qazanca bağlı olduğuna görə, çətinlik anlarında bu mənfəətlərini itirmək qorxusu ilə üzləşirlər. Hər şeyləri buna bağlı olduğuna görə, heç gözləmədikləri hadisə nəticəsində əllərində olanları itirmək onlar üçün bədbəxtlikdir. Əldə etdikləri müvəqqəti sevinci də bu yolla tamamilə itirirlər. Ümidsizliyə və bədbinliyə qapılırlar.

Allahın rizasını qazanmaq ümidi möminlərin qəlbinə sevinc və rahatlıq verir və bu yolda əllərindən gələni etməyə çalışırlar. Bu sevinc və rahatlıq onları həm dünya həyatında xoşbəxt edir, həm də Allahın rizasını daha çox qazanmalarına səbəb olan şövqlərinin mənbəyidir. Bu sevinc və xoşbəxtlik insanların iman gətirmədicə əsla əldə edə bilməyəcəyi bənzərsiz həyatdır. Çünki bu, Allahın yalnız möminlərə hiss etdirdiyi və Allahın razılığına, rəhmətinə və sonsuz cənnətinə olan ümidin verdiyi xoşbəxtlik və rahatlıqdır.

İmanın sevinci

Möminlər Allaha və Onun yaratdığı qədərə iman gətirdikləri üçün daima sevinclidirlər. Bu vəziyyət onların gündəlik həyatına da yansıyır və möminlərin xarakterinin əsas mənbəyini təşkil edir. İman gətirməyənlər isə Allahdan və Onun ayələrindən xəbərsiz yaşadıqlarına görə, daima bədbəxt olurlar.

Möminlərin Allaha olan sevgisi, bağlılığı və qədərə təslimiyyətləri onları maddi və mənəvi cəhətdən narahat edən hər cür səbəbi aradan qaldırır. Çünki mömin üçün həyatı boyu pis heç nə yoxdur. Quran əxlaqı ilə Allahın bütün pis kimi görünən vəziyyətləri onun üçün xeyir və yaxşılığa çevirəcəyini bilir. Bu da möminin hər zaman imani sevinc içində olmasına səbəb olur. Hər kəsin kədərləndiyi, bədbin olduğu mühitdə onu kədərləndirən hər hansı səbəb olmadığına görə, sevincindən heç nə əskilməz. Çünki möminlər hər şeyin Allahın iradəsi daxilində olduğunu bilirlər. Allah bunu bir ayədə belə bildirir:

**De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O, bizim Himayədarımızdır. Qoy, möminlər Allaha təvəkkül etsinlər!" (Tövbə surəsi, 51)**

## Ancaq möminlər daima xoşbəxtdirlər

Nəticə etibarilə möminlər şəraitdən asılı olmayaraq daima Allaha güvənən, Ona üz tutan, daima Onu razı etməyi düşünən və Quran əxlaqından əsla əl çəkməyən əxlaqa malik olduqlarına görə, Allahın heç bitməyən rəhməti, fəzli və sevgisi daima onların üzərindədir. Allah Ona iman gətirənləri əsla tək və köməksiz qoymayacağını vəd vermişdir. Allah Öz yolunda səmimi cəhd edən, heç bir şübhəyə qapılmadan mallarını və canlarını Allahın razılığını qazanmaq üçün sərf edən bu sadiq qulların əməllərinin qarşılığında içində əbədi qalacaqları nemətlərlə dolu olan cənnətlərlə müjdələmişdir:

**Onlara dünyada da, axirətdə də müjdə vardır. Allahın sözləri heç vaxt dəyişməz. Bu, böyük qurtuluşdur! (Yunus surəsi, 64)**

# CANLILARDAKI MÜKƏMMƏL MÜDAFİƏ METODU: *KAMUFLYAJ*

Hər canlı özünü müdafiə etmək üçün müxtəlif qabiliyyətlərlə birlikdə yaradılmışdır. Bəzisi çox sürətli və cəlddir, qaçaraq düşmənlərindən xilas olur. Bəzisi yerindən tərpənə bilmir, lakin bədəni möhkəm zirehlə örtülüdür. Bəzisi özünü ilana bənzədən tırtıl kimi qeyri-adi qorxutma qabiliyyətinə malikdir. Bəziləri zəhərli, yandırıcı və ya pis qoxulu qaz püskürür. Bir qismi də ölü təqlidi edir.

Allah bəzi canlıları yaşadıqları mühitdə gizlənmək üçün müəyyən forma və naxışlarla yaratmışdır. Yarpağa və ya ağacın naxışlarına çox bənzər bədən quruluşuna malik olan canlılar bunun sayəsində düşmənlərindən gizlənməyi bacarır. Allahın bu heyvanlara verdiyi kamuflyaj qabiliyyəti o qədər mükəmməldir ki, bu cür canlıların rəsminə baxdıqda bitki və ya heyvan olduqlarını ayırd etmək mümkün olmur. Aşağıda verilən nümunələrdən də göründüyü kimi, kamuflyaj xüsusi planlanıb yaradılmış müdafiə mexanizmidir.

Kamuflyaj Allahın yaratdığı kainatda heç bir ziddiyyət və uyğunsuzluğun olmadığını və Onun güc, ağıl və elminin sonsuz olduğunu göstərən dəlillərdəndir. "Mülk" surəsində Allah kainatdakı qüsursuz ahəngi belə bildirmişdir:

**Yeddi göyü təbəqələr şəklində quran Odur. Sən Mərhəmətli (Allahın) yaratdığında qətiyyən bir uyuşmazlıq tapmazsan. Bir başını qaldırıb (göyə) diqqət yetir, heç onda bir çat görürsənmi? Sonra göz gəzdirib təkrar bax. Göz zəlil və yorğun halda özünə tərəf dönəcəkdir. (Mülk surəsi, 3-4)**



## Quru yarpaq yoxsa kəpənək?

Bu şəkildəki quru yarpaq kimi görünən əslində kəpənəkdir. Damarlar, çürümüş hissələr və rəng çalarına qədər hər cür təfərrüatı əks etdirən qanadlar kəpənəklər üçün müdafiə vasitəsidir.

Kəpənəyin yarpağa bu qədər mükəmməl bənzəməsinə "təsadüf" deyib keçmək, əlbəttə, mümkün deyil. Kəpənəyin öz-özünü yarpağa bənzətdiyini qəbul etmək isə ağıldankənardır.



## Mövsümə və məkana görə dəyişən tük rəngi

Heyvanlar bədənlərində yaradılmış mürəkkəb mexanizmlər sayəsində mühitə

görə rənglərini dəyişə bilirlər. Günəşin altında insanın dərisinin qızarıb tündləşməsi kimi, bu mexanizmlər heyvanların dərilərində və tüklərində rəng dəyişikliyinə səbəb olur.

Bu rəng dəyişikliyi heyvan üçün əhəmiyyətli qorunma mexanizmidir. Qışda hər yer qarla örtüldükdə ağ, digər mövsümlərdə torpaq rəngində olan tüklər kamuflyaja imkan verir.

Bunun əksinə hadisə də baş verə bilərdi: heyvan qışda topraq rəngində, yayda isə ağappaq olar və ya heç rəngini dəyişməzdi. Bir sözlə, rənglərin mövsümlərə görə dəyişməsində açıq-aşkar ağıl və dizayn var. Bədənimizin günəşdə yanmasının qarşısını ala bilmədiyimiz kimi (xüsusi qorunma metodları xaric), heyvanlar da bədənlərindəki bu dəyişikliyi tənzimləyə bilmirlər. Bir heyvan bunu özü hesablayıb tənzimləyə bilməz. Şübhəsiz ki, Allah bu canlıları belə müdafiə mexanizmi ilə birlikdə yaratmışdır. (Harun Yahya, Düşünen İnsanlar İçin)



## Yarpaqlar arasında gizlənən çəyirtkələr

Yarpaqla qidalanan çəyirtkələrin ömrü təbii olaraq yarpaqların arasında keçir. Eynilə yarpaq rəngində olduqlarına görə, ən böyük düşmənləri olan kərtənkələ və quşlar onları, adətən, sezmirlər. Beləliklə, çəyirtkələr təhlükəsiz şəraitdə yaşayır və qidalanırlar.

Hər halda, çəyirtkələrin yarpaqların arasında yaşayaraq "yarpaqlaşdığını" və ya hər hansı bir yolla öz-özlərinə "yarpaqlaşdıqlarını…" heç kim iddia edə bilməz.

Aydındır ki, yarpaq yeyən çəyirtkələr həyatda qalmaq üçün bu cür kamuflyaj xüsusiyyəti ilə birlikdə yaradılıblar. Bu, hər şeyi ən gözəl şəkildə yaradan Rəbbimizin sənət əsəridir.



# HƏR İŞDƏ ALLAHA YÖNƏLMƏK

Allah imtahanın tələbi olaraq dünya həyatını çox rəngarəng, zənginliklərlə dolu, həmişə davam edəcəkmiş kimi bir hiss oyadan, bir hadisə bitdiyində davamlı olaraq yeni hadisələrin başladığı, söhbət etdikcə bitməyəcək gözəlliklərlə yaratmışdır. Əlbəttə, dünya həyatının bu cür görünməsi Allahın sonsuz yaratma sənətinin təzahürüdür.

Allaha iman edən bir insan bu qarışıqlıq və ehtişamlı zənginlik içində bütün diqqətini Allaha və Allahın razılığını qazanmağa yönəltməlidir. Allahdan qorxan və həyatını Quran əxlaqına görə davam etdirən bir insan Allahın razılığını dünyadakı hər şeydən üstün tutar. Belə imani dərinliyə çatmış insan hər işində, hər danışığında, hər rəftarında bütün diqqətini Allaha və Allahın ən bəyəndiyi əxlaqı yaşamağa verər. Zehnində mütəmadi olaraq: "Hansı rəftarı göstərsəm, Allahı razı edərəm?" - düşüncəsi olar.

İnsanın diqqəti hər an dağılmağa, lazımsız fikirlərlə məşğul olmağa, boş və mənasız xəyallarla yayınmağa meyillidir. Mömin şüurunu və diqqətini hər zaman Allahı düşünərək, Allahın ən razı olduğu əxlaqı göstərməyə çalışaraq açıq saxlamağa cəhd göstərməlidir. Bir çox insanın Allahın yaxınlığını unutduğu anlarda belə (Allahı tənzih edirik) Allah sonsuz güc və qüdrəti ilə hər şeyi ən incə təfərrüatına qədər ehtiva edir. Quranda bu əhəmiyyətli həqiqət insanlara belə bildirilmişdir:

**Bil ki, onlar öz Rəbbi ilə qarşılaşacaqları barədə şəkk-şübhə içindədirlər. Və yenə bil ki, O, hər şeyi ehtiva edəndir! (Fussilət surəsi, 54)**

Müsəlman həyatının hər mərhələsində Allahın onun qarşısına sınaq olaraq çıxardığı bütün hadisələrdə insanların və ya digər səbəblərin yaratdığı xırda işlərdə ilişib qalmağı deyil, Allaha yönəlməyi hədəfləməlidir. Allah Quranda insanların sınanması üçün onların lehinə və ya əleyhinə kimi görünən müxtəlif hadisələr yaratdığını bildirir. Çətinliklər Allahdan gələn sınaq olduğu kimi, gözəlliklər və nemətlər də eyni şəkildə insan üçün imtahandır. İnsan necə sıxıntı və çətinliklərin Allahdan xüsusi bir hikmətlə verildiyini bilib Allaha yönəlirsə, eyni şəkildə, Allahın verdiyi nemətlər və gözəlliklər qarşısında da eyni rəftarı göstərməli və Allaha yönəlməlidir. Allah Qurani-kərimdə hər hadisədə Ona yönəlməyin üstün əxlaq olduğunu belə bildirir:

**Biz Davuda Süleymanı bəxş etdik. Nə gözəl bəndə! O, daim Allaha sığınan bir kimsə idi. (Sad surəsi, 30)**

Allah Quranda bizi çətinliklərlə sınayacağını bildirir. Belə anlarda təqva sahibi bir müsəlman ixlasla, şövqlə Allaha yönəlməlidir. Allahın onu sınadığını bilməklə onun Allaha olan sevgisi daha da artar, səbrin və əxlaqın ən gözəlini yaşayaraq Allaha olan sevgisini yenidən göstərər. Allah insana müxtəlif xeyir və hikmətlərlə fiziki və ya mənəvi çətinlik verə bilər. Müsəlman Allah üçün səbir etməyin rahatlığı ilə bundan da böyük mənəvi həzz alar. Kənardan baxıldığında, bəlkə, dözülməz çətinlik kimi görünən bir vəziyyət şiddətli Allah sevgisi ilə müsəlman üçün nemətə çevrilər.

Eynilə xəstəliklər də müsəlman üçün imtahanın bir hissəsidir. Xəstəliklə birlikdə müsəlman bütün səmimiyyəti ilə Allaha sığınar, Allahın gücünün hər şeydən üstün olduğunu və Allahın sonsuz gücü qarşısındakı acizliyini daha da anlayar. Daha dərin və Allahın qüdrətini düşünərək dua edər, səmimiyyətlə Allaha olan yaxınlığı artar. Səbir etdiyi hər an Allahın onu çox sevdiyini, Allahın razı olduğu bir insan olmağı ümid edərək yaşayar.

Eynilə yoxluq və var-dövlətin azaldılması kimi imtahanlarla qarşılaşan bir müsəlman da bu vəziyyəti Allahın bir çox hikmət və xeyirlə yaratdığını bilər. Allahın bu vəziyyəti yaratdığı andan etibarən o anda özü üçün varlığın deyil, yoxluğun gərəkli olduğunu anlayar. Bütün şərtləri yaradanın Allah olduğunu və yenə istədiyində bütün bunları ancaq Allahın dəyişdirəcəyini bilər. Allahın köməyinə ümid edərək yenə Allaha sığınar.

İnsan həyatı boyu bir çox mənfi rəftar, söz və davranışla da üzləşə bilər. Müsəlman eşitdiyi hər sözü Allahın istəyilə eşitdiyini, daha o doğulmadan nələri eşidəcəyinin hərfinə qədər qədərində təyin olunduğunu, bunların mənəvi baxımdan dərinləşməsi üçün Allahdan xüsusi olaraq verildiyini düşünər və bütün bunlar Allaha olan yaxınlığının artmasına səbəb olar.

Ani və gözlənilməz hadisələrlə qarşılaşdığında da mömin daim Allaha təvəkkül edər, reallaşan hər şeyin Allahın mütləq iradəsi altında olduğunu bilərək hərəkət edər. Bunun kimi hadisələrdə dərhal Allahı düşünərək, Allahın sonsuz qüdrətini xatırlayaraq Allaha yönəlməsinə səbəb olar.

İnsan belə vəziyyətlərdə hər şeyi ən incə xırdalıqlarına qədər Allahın yaratdığını, hər şeyi onun o an gördüyü və ya görə bilmədiyi bir çox hikmətlərlə dolu olduğunu mütləq bilməlidir. Təqva sahibi bir müsəlman belə vəziyyətdə: "Allah belə bir hadisə yaradaraq mənim bu hadisədəki hikmətləri görməyimi, imanımın artmasını, yetkinləşməyimi, Allaha daha güclü və səmimi bağlanmağımı istəyir", -deyərək Allaha yönələr.

Dərin imana, güclü Allah qorxusuna və Allah sevgisinə sahib olan bir müsəlman qəlbinin daim Allahla birlikdə olmasından qaynaqlanan əhvali-ruhiyyədədir. İşlərində, söhbətlərində və hərəkətlərində Allahın gücünə sığınaraq, Allahın sonsuz ağlına təslim olaraq və Allah eşqini hiss edərək yaşayar. Qəlbində və dilində daim Allah vardır. Ruhu Allaha eşqlə, şövqlə və istəyərək yönələr.



# Müsəlmanın danışıq üslubu:
# BOŞ VƏ FAYDASIZ SÖHBƏTLƏR ETMƏMƏK

Allaha inanmayan insanlar həyatlarının dünya ilə məhdudlaşdığını düşündükləri üçün axirət həyatı üçün bir hazırlıq görməzlər. Necə davrandıqlarını, yaşadıqları müddət ərzində nə qədər xeyirli işlər gördüklərini, sonlarının necə olacağını düşünməzlər. Ancaq hər davranış, hər söz, hər fikir hesab günündə insana göstərilmək üçün qorunur. Deyilən hər faydalı və hikmətli söz insana axirətdə xeyir verər, Allahın rizasını, cənnətini və rəhmətini qazanmasına səbəb olar.

Axirəti düşünməyən insanlar vaxtlarını boş söhbətlərlə, nə özlərinə, nə də başqalarına faydası olmayan sözlərlə keçirdikləri halda, möminlər hər anlarını xeyirli və hikmətli söhbətlərlə keçirirlər.

Axirət haqqında qəflətə düşüb, boş sözlərlə vaxtlarını keçirən insanlar barədə Quranın "Ənam" surəsinin 91-ci ayəsində belə deyilir: **"…onları burax ki, öz boşboğazlıqları ilə əylənsinlər"**. Möminlərin boş və yararsız sözlərdən qaçdıqları isə başqa bir ayədə belə bildirilir: **"Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!"– deyirlər". (Qəsas surəsi, 55)**

Möminlər boş və yararsız sözü Qurana əsasən müəyyən edirlər. Dünyada keçirdikləri hər anın axirət həyatları üçün çox dəyərli olduğunu bildiklərinə görə, yaşadıqları hər anı vicdanları ilə dəyərləndirərək boş-boş danışmamaq üçün diqqətli davranırlar. Bir ayədə: **"Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə (oradan) ləyaqətlə ötüb keçərlər. (Furqan surəsi, 72)"** – deyilərək möminlərin boş sözlə qarşılaşdıqları zaman ləyaqətlə ötüb keçdikləri bildirilir.



A9 TV

HƏYATA BAXIŞINIZI DƏYİŞDİRƏCƏK TV KANAL

✅ doğru ✅ etibarlı ✅ səmimi

✅ həqiqi ✅ elmi

sənədli filmlər, müsahibələr, maraqlı verilişlər

reklamsız yeganə tv kanal

KANALIN TEZLİKLƏRİ

TürkSAT 1C/3A

12525 V 30000

www.a9.com.tr

# XƏYALİ TƏSVİRLƏR

HARVARD UNİVERSİTETİNİN ANTROPOLOQU ERNEST HUTON:

"REKONSTRUKSİYA (XƏYALİ TƏSVİRLƏR) ÇOX RİSKLİ CƏHDDİR. DODAQLAR, GÖZLƏR, QULAQLAR VƏ BUNA OXŞAR ORQANLARIN ALTDAKI SÜMÜKLƏRLƏ HEÇ BİR ƏLAQƏSİ YOXDUR. MƏSƏLƏN, REKONSTRUKSİYADAN İSTİFADƏ EDƏRƏK BİR NEANDERTAL KƏLLƏ SÜMÜYÜNÜ HƏM MEYMUNA, HƏM DƏ FİLOSOFA OXŞADA BİLƏRSİNİZ. QƏDİM İNSANLARIN SKELET QALIQLARINA ƏSASLANARAQ ÇƏKİLƏN TƏSVİRLƏRİN HEÇ BİR ELMİ ƏSASI YOXDUR VƏ CƏMİYYƏTİ İSTİQAMƏTLƏNDİRMƏK MƏQSƏDİLƏ İSTİFADƏ EDİLİR".

(EARNEST A. HOOTON, UP FROM THE APE, MCMILLAN, NEW YORK, S. 332.)




www.tekamulinternasional.com